EVDƏ QAL,
SAĞLAM QAL!

Prezident İlham Əliyevlə Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti arasında videokonfrans keçirilib



Bax 2

ÜST-nin Baş direktoru Azərbaycan Prezidentinə təşəkkür edib




Bax 4




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 071 (6036) 29 aprel 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Əli Əhmədov: "Zərifə xanım müasirləri üçün olduğu kimi, indiki nəsillər üçün də insanlıq örnəyidir"



"Aprel ayının 28-i Azərbaycanın ən ləyaqətli xanımlarından biri, Ümummilli Lider Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın doğum günüdür. Zərifə xanım Azərbaycanın tibb elminə böyük töhvələr vermiş, yüksək mədəniyyəti və insanpərvərliyi ilə xalqın qəlbində özünə dərin hörmət qazanmışdır. Onun nurlu xatirəsi yaddaşlardan silinməyib və uzun illər silinməyəcək. Zərifə xanım müasirləri üçün olduğu kimi, indiki nəsillər üçün də insanlıq örnəyidir."

Bax 4

## "Azərbaycan xalqı çox xoşbəxt xalqdır ki, qayğıkeşliyi, humanistliyi ilə örnək olan Sizin kimi Prezidenti var"



Bax 8-9

## Mərkəzçi Demokrat İnternasionalı Dağlıq Qarabağda keçirilən qondarma "seçkiləri" tanımır

Yeni Azərbaycan Partiyasının müşahidəçi üzv olduğu və six əməkdaşlıq etdiyi Mərkəzçi Demokrat İnternasionalı (MDİ) Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində keçirilən qondarma prezident və parlament "seçkiləri" ilə bağlı bəyanat yayıb. Bəyanatda heç bir ölkənin Dağlıq Qarabağı dövlət kimi tanımadığı, bu səbəbdən də bölgədə keçirilən qanunsuz seçkilərin regionda uzun müddət davam edən...

Bax 4

idc-cdi

## AŞPA-nın prezidenti: "Ali Məhkəmənin Plenumunun qərarlarını alqışlayıram"



Aprelin 23-də Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda ReAL Partiyasının sədri İlqar Məmmədovun, eləcə də hüquq müdafiəçisi Rəsul Cəfərovun barəsində olan hökmlə...

## "Barselona" bu qapıçıya görə 3 futbolçusunu təklif etdi!



"Barselona" yay transfer pəncərəsi zamanı "Ayaks"ın qapıçısı Andre Onananı heyətinə cəlb etmək istəyir. Qol.az xəbər verir ki, bu barədə "De Telegraaf" məlumat yayıb. Bildirilib ki, kataloniyalılar bir qapıçıya görə dörd 3 futbolçusunu - qapıçı...

Bax 16

## "Kurtlar vadisi"nin Elifi ekranlara qayıdır



Ana olduqdan sonra sənətdən uzaqlaşaraq təsərrüfat işləri ilə məşğul olan aktrisa Özgü Namal ekranlara...

Bax 16

Ermənistanın "status-kvo" oyunu



Bax 12

Sahibkarlıq subyektləri güzəştlərdən necə yararlanacaq?



Bax 11

Eldəniz Quliyev təhqir etdi, cavabını aldı



Bax 13

# Prezident İlham Əliyevlə Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti arasında videokonfrans keçirilib



***Aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın prezidenti Suma Çakrabarti arasında videokonfrans keçirilib. AZƏRTAC xəbər verir ki, videokonfrans iştirakçılarını salamlayan Prezident İlham Əliyev dedi:***

-Cənab prezident, xanımlar və cənablar, sabahınız xeyir.

Suma Çakrabarti: Cənab Prezident, sizi görməyimə çox şadam. Bu səhər Avropa Yenidənqurma və İnkişaf Bankının geniş tərkibli heyəti ilə Sizinlə görüşürük. Mənim müavinim Yurqen Riqterinki yəqin ki, xatırlayırsınız. O, bu yaxınlarda Bakıda səfərdə olmuşdur. Burada siyasət üzrə vitse-prezident Pyer Helbron, bankçılıq üzrə vitse-prezident Alan Piyu də bizimlədir. Daha sonra Şərqi Avropa və Qafqaz üzrə icraçı direktor Matteo Patrone, Qafqaz üzrə regional direktor Katerina Hansen, Azərbaycan üzrə nümayəndəliyin rəhbəri İvana Duarte, siyasi məsələlər üzrə müşavir Aleksander Pavlyuk, mənim ofisimdən Svetlana Pirkalo və nəhayət, Avropa Yenidənqurma və İnkişaf Bankında ölkələr üzrə direktor, sizin nümayəndəniz və bizim dostumuz Taşkın Temiz də buradadır.

Cənab Prezident, bizə vaxt ayırdığınıza görə təşəkkür edirəm. Bu, olduqca qeyri-adi bir görüş tərzidir. Biz Sizinlə istər Bakı, istərsə də Davosda dəfələrlə görüşmüşük. Biz qəribə və qeyri-adi bir dönəmdə yaşayırıq. Əvvəlcə Azərbaycandakı vəziyyət və həyata keçirilən tədbirlər haqqında Sizdən məlumat almaq istərdik. Daha sonra isə mən və heyətim bu böhrandan ən qısa zamanda çıxmaq üçün Azərbaycana hansı dəstəyin verilə biləcəyi ilə bağlı məlumat təqdim edəcəyik. Cənab Prezident, bizim fikrimizcə, Siz və hökumətiniz bu böhranın öhdəsindən əla gəlirsiniz. Qısa zamanda bir sıra təsirli tədbirlər həyata keçirilib ki, bununla bağlı Sizi təbrik edirəm və vəziyyət və görülən tədbirlər haqqında Sizdən məlumat almaq istəyirik.

Prezident İlham Əliyev: Cənab prezident, sizə və Avropa Yenidənqurma və İnkişaf Bankının yüksək rütbəli nümayəndələrinə bu görüşə görə təşəkkür edirəm. Bu, Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanın yaxın və etibarlı tərəfdaşı olmasının göstəricisidir. Odur ki, çətin vaxtda siz belə təşəbbüslə çıxış etmisiniz. Bu, bizə hazırda həyata keçirilən layihələrimizi nəzərdən keçirməyə, görüləcək işləri müzakirə etməyə və gələcək əməkdaşlığımızı planlaşdırmağa imkan verəcək.

Virus məsələsinə gəldikdə, biz ilk gündən real vəziyyətə əsaslanan tədbirlər görməyə başladıq. Vəziyyətin düzgün dəyərləndirilməsi və bu böhranla məşğul olunması üçün səmərəli komandanın yaradılması bizim üçün çox vacib idi. Azərbaycana bu virus qonşuluqdan gəldi və bunun qarşısını almaq üçün biz müvafiq addımlar atdıq və qonşu dövlətlərlə razılıq və birgə qərar əsasında sərhədlərimizi bağladıq. Hesab edirəm ki, biz bu qərarı vaxtında və digər ölkələrin bənzər qərarlarından tez verdik və beləliklə, zaman udmuş olduq. Biz görürük ki, bu virusla mübarizədə ən vacib məsələ vaxtdır, çünki heç bir ölkənin səhiyyə sistemi bu qədər böyük sayda yoluxmuş insanların müalicəsinə hazır deyil. Bu səbəbdən vaxtın qazanılması, səhiyyə sistemimizin hazırlanması, mütəxəssis və həkimlərimizin səfərbər edilməsi və düzgün idarəçiliyin qurulması əsas hədəflərimiz oldu.

Daha sonra biz virusun ölkə ərazisində yayılmasının şahidi olduq və mart ayından etibarən məhdudlaşdırıcı tədbirlər həyata keçirməyə başladıq. Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə daimi təmasdayıq və bu təmaslar davam edir. Biz vəziyyətin dəyərləndirilməsi üçün ölkəyə mütəxəssislərdən ibarət heyətin göndərilməsi ilə bağlı Ümumdünya Səhiyyə Təşkilatına müraciət etdik və onlar bunu etdilər və daha sonra bəyanatla çıxış etdilər ki, Azərbaycan zəruri tədbirləri görür. Onlar da öz növbələrində, müəyyən tövsiyələrini verdilər. Daha sonra Ümumdünya Səhiyyə Təşkilatı bəyanat yayaraq Azərbaycanı koronovirusla mübarizə sahəsində nümunə kimi göstərmişdir.

Məhdudlaşdırıcı tədbirlərin tətbiqi qərarı asan olmamışdır. Biz anlayırdıq ki, insanlar üçün narahatlıq yaranacaq, iqtisadi inkişafımıza böyük zərbə dəyəcək, halbuki bu ilin göstəriciləri olduqca ümidverici idi. Lakin bizim iki variantımız var idi. Birinci variant insanların həyatını və sağlamlığını qorumaq, ikinci variant isə iqtisadiyyatın xilas edilməsi prioriteti idi. Bu səbəbdən ilk gündən bizim seçimimiz insanların həyatının qorunması oldu. Gördüyümüz bütün işlərin məqsədi budur və bu istiqamətdə səylərimizi tam səfərbər etmişik. Biz 120 mindən artıq test həyata keçirmişik və aparılan testlərin adambaşına düşən sayına görə aparıcı yerlərdəyik.

Biz əlavə laboratoriyalar yaratmışıq və hazırda onların sayı 18-dir. Koronavirusa yoluxmuş pasiyentlər 22 dövlət xəstəxanasında, o cümlədən yeni istifadəyə verilmiş 575 çarpayılıq müasir xəstəxanada müalicə olunurlar. Hazırda karantin rejimində 2000-ə yaxın vətəndaşımız var və bu rəqəm aşağı düşməkdədir. Bu insanlar xaricdən gələnlər və onlarla təmasda olmuş şəxslərdir. Onlar 4-5 ulduzlu mehmanxanalarda yerləşdirilib və yüksək standartlara cavab verən şəraitlə təmin ediliblər.

Vaxtaşırı sərtləşdirdiyimiz məhdudlaşdırıcı tədbirlərin müsbət nəticəsi olmuşdur və artıq iki həftədir ki, bizdə müsbət dinamika var. Yəni, sağalanların sayı yoluxanların sayından artıqdır. Ölüm faizinin nisbətən aşağı olması onu göstərir ki, işlər müsbət istiqamətdə aparılır. Dünəndən biz məhdudlaşdırıcı tədbirləri yumşaltmağa başlamışıq.

İqtisadiyyatımıza təsirə gəldikdə, əlbəttə, təsir mənfi olacaqdır. Bizim ilin əvvəlində müsbət perspektivlərimiz var idi. Hələ də ilin ilk rübünə nəzərə salsaq, artım 1 faizdir, qeyri-neft sektorunda artım 3 faiz təşkil edir, qeyri-enerji sahəsində artım isə 23 faizdir.

Koronavirus nəticəsində mənfi təsirə məruz qalmış özəl sektorun müvafiq sahələrinə ciddi dəstək paketi təqdim edilmişdir. Xidmət və digər sahələrdə çalışan 600 min vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənilib. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa minimal meyara uyğun olaraq ödənişlər edilib.

Təbii ki, bu, bizim üçün böyük xərcdir. Vergi güzəştləri də nəzərə alınsa, bu gün bu rəqəm 3,5 milyard manat və ya 2 milyard dollardan çoxdur. Bu, bizim büdcəmiz üçün böyük yükdür, çünki neftin qiymətinin kəskin azalması bizim valyuta ehtiyatlarımıza mənfi təsir göstərəcəkdir. Ancaq bizim üçün bu dövr xərclərimizi artırmalı və yoxsul vətəndaşlarımıza və sahibkarlara yardım etməli olduğumuz dövrdür. Eyni zamanda, bu il biz ödənişli ictimai iş yerlərinin sayını da 2 dəfə artırmışıq. Burada minimal əməkhaqqı verilir və adətən bu, dövlət sektoruna aid olan iş yerləridir. Bu il belə iş yerlərinin sayı 90 min olacaqdır. Biz sosial yardım alan vətəndaşların da sayını artırmışıq. Hər bir belə ailəyə ayda 222 manat ödənilir və onların sayı 80 minə çatmışdır. Bununla yanaşı, 12 min insan üçün, - burada da 70 faiz artım var,- özünüməşğulluq imkanları yaradılıb.

Beləliklə, bu, qeyd etdiyim mənfi təsirə məruz qalmış sahələrdə çalışan, habelə işlərini itirmiş vətəndaşlarımıza təqdim edilmiş iqtisadi və sosial paket haqqında məlumatdır. Burada mən çıxışımı dayandırmaq istərdim. Hər hansı fikir və ya suallarınız varsa buyurun.

Suma Çakrabarti: Təşəkkür edirəm cənab Prezident. Qeyd etməliyəm ki, qəbul etdiyiniz qərarların və görülmüş tədbirlərin həcmi məndə dərin təəssürat yaratdı. Bununla bərabər, addımlarınız olduqca qətiyyətlidir və Siz çevik hərəkət edirsiniz. Sizin də qeyd etdiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı da bunu təqdir etmişdir. Sizinlə 2012-ci ildə baş tutmuş ilk söhbətimi xatırlayıram. Azərbaycanda yoxsulluğun rekord dərəcədə aşağı salınmasına nail olunduğunu qeyd etdik və bir çox insan bundan bəlkə də xəbərsizdir, ancaq bu, dünyada ən yüksək templərdən biri idi. Həmin nailiyyətlərin qorunub saxlanılması, yoxsulların müdafiəsi sahəsində gördüyünüz işlər xüsusilə qeyd edilməlidir. Sahibkarlara dəstək, ailələrə yardım - bunlar zənnimcə, qısa perspektivli deyil, orta perspektivli addımlardır.

*Ardı Səh. 3*

# Prezident İlham Əliyevlə Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti arasında videokonfrans keçirilib

**Əvvəli Səh. 2**

Burada Mərkəzi Bankla 50 milyon dollar məbləğində “Swap” razılaşmasının başa çatdırılmasına görə dərin təşəkkürümü bildirirəm. Bu, bizə özəl sektor müştərilərimizin yerli valyutada maliyyələşdirilməsi üçün vacibdir. Buraya korporativ müştərilərimiz, orta və kiçik sahibkarlıq subyektləri və maliyyə institutları daxildir. Biz yaxın həftələrdə 5 müxtəlif tranzaksiya üzrə 20 milyon avroluq ödənişlər edəcəyik. Hesab edirəm ki, ötən bir neçə ay Azərbaycanın gözəl hekayəsi sayıla bilər. Sizin ölkə dünyada ilin ilk rübündə iqtisadi artıma nail olmuş azsaylı ölkələrdəndir, bəlkə də yeganə ölkəsiniz.

Bununla yanaşı, iqtisadiyyatın şaxələndirilməsinin vacibliyini nəzərə alaraq, böhran vaxtı qeyri-neft sektorunun xüsusilə yaxşı göstəriciləri də qeyd olunmalıdır. Çox gözəl bir hekayədir və gün gələcək Azərbaycanla müqayisə aparılacaq. Gələn il bizim illik iclasımız olacaq və növbəti 2-3 il ərzində biz ölkələr üzrə dəyərləndirmə aparacağıq. Azərbaycan burada artıq öndədir.

İstərdim qısaca olaraq planlarımız haqqında məlumat verim. Artıq 5 layihəni qeyd etdim, ancaq işlərimiz bununla məhdudlaşmır. Ötən illərlə müqayisədə keçən il Azərbaycana sərmayə həcmimiz aşağı səviyyədə olub, çünki biz neft-qaz sahəsinə yatırım etmədik və diqqəti orta və kiçik sahibkarlıq sahəsinə yönəltdik. Bu il isə, düşünürəm ki, yenidən Azərbaycana böyük sərmayə yatıracağıq və bu, böhrana cavab tədbirləri və iqtisadiyyatın canlandırılması baxımından düzgün olardı. Biz münbit şərait olduqda bu il Azərbaycana 250 milyon dollardan artıq sərmayə yatırmağı planlaşdırırıq. Bu sərmayənin qoyulması üçün bizə suveren və subsuveren zəmanət tələb olunacaq və həmkarlarımdan bu barədə ətraflı danışmağı xahiş edəcəyəm. Bu layihələr xüsusilə dövlət sektorunu əhatə edir və buraya enerji, infrastruktur və İKT sahələri daxildir. Buraya bəzi dövlət müəssisələrinin kommersiyalaşması da daxildir. Biz Sizinlə 150 milyon dollarlıq yaşıl zərfi müzakirə etmişik və bu mövzunu yenidən gündəmə gətirmək istərdik.

Bilirsiniz ki, biz əvvəllər həmin 150 milyon dollarlıq yaşıl zərfi müzakirə etmişik. Onu işə salmaq istərdik. Bu barədə fikirlərinizi bilmək istərdim. Bu işləri biz Sizin hökumətinizlə irəliyə doğru aparırıq. Elektrik enerjisi şəbəkəsinə gəldikdə, biz şəbəkənin təkmilləşdirilməsinə təxminən 100-200 milyon avro məbləğini sərmayə kimi yatırmağı təklif edirik. Bu, böhran zamanı cavab tədbirləri və bərpa baxımından çox əhəmiyyətlidir. Həmçinin bərpa olunan enerji mənbələrinə özəl yatırımlar üçün imkanlar yaranar. Daha sonra yaşıl şəhər ideyası var. Azərbaycan yaşıl şəhər təşəbbüsünə qoşulan ilk ölkələrdən oldu. Tullantıların idarə edilməsi layihəsi baxımından Gəncə bu çərçivə təşəbbüsünə mart ayında qoşuldu. Biz təklif edirik, o, ilk yaşıl şəhər layihəsi olsun.

Həmçinin Aztelekom şirkəti ilə bağlı təklifimiz var. Bizim alt suveren 15-25 milyon avroluq mühüm investisiya layihəmiz var. Rayonlarda genişzolaqlı internet imkanları genişlənəcək. Bu da çox vacibdir. Böhrandan sonra bərpa mərhələsi üçün də bunun əhəmiyyəti olacaq. Bizim yeni mühüm infrastrukturlar üzrə proqramımız var. Şuramız onun üzərində razılığa gəlib. Biz Şura üzvlərinə təşəkkürümüzü bildiririk. Yüksək səviyyədə prosedurlar razılaşdırılıb. İstərdik ki, həmin məbləği Sizə daha tez çatdıraq, adi sürətdən daha tez. Bu, həmçinin həmin yeni proqram əsasında olacaq.

Suvarmaya gəldikdə, bir neçə il öncə Siz mənə bildirdiniz ki, kənd təsərrüfatı sektorunda bu sahəyə xüsusi önəm verilir. Biz istərdik bu baxımdan pilot layihəni həyata keçirək, bu sektorda müəyyən yeni texnologiyaları tətbiq edək. Eyni zamanda, biz təklif etdik ki, bu sahədə sığorta qurumu yaransın və biz onu maliyyələşdirək. Hökumətdən, həmçinin bu sahədə təsdiqləməni gözləyirik. Bundan əlavə, böyük həcmdə texniki əməkdaşlıq aparılır. Bir sıra yerli banklarla iş birliyi qurulub ki, onlara riskin idarə edilməsində, problemli kreditlərin həllində, uyğunluğun planlaşdırılmasında və sair işlərdə yardımçı olaq. Biz nəinki bank sektoru vasitəsilə, birbaşa kiçik və orta sahibkarlıq subyektləri ilə də işləyirik. Böhran vəziyyətinə hansı yanaşmanı tətbiq etmək? Bu baxımdan onlara dəstək verilməlidir. Bu da normaldır. Biz bunu da etməyə çalışırıq. Qeyd etməliyəm ki, biz sizin yaşıl iqtisadiyyata keçidə bağlı olduğunuzu bilirik. Bir çox ölkələr çəkinir. Biz isə həmin ölkələr üzrə əməliyyatları genişləndiririk. Bir tərəfdən deyə bilərik, əlbəttə, yaşıl iqtisadiyyat çox yaxşıdır, lakin ölkələr deyir ki, biz axı indi böhran içərisindəyik. Əslində, biz bunu yaşıl rəngə çevrilmə adlandırırıq. Böhran zamanı belə çalışırıq ki, əlavə nəticələri əldə edək, yaşıl iqtisadiyyat inkişaf etsin. Bir sözlə, biz gələcəkdə bərpa olunan enerji təşəbbüslərini dəstəkləyəcəyik. Artıq özəl sektor öz marağını nümayiş etdirir. Bunu nəzərə almalıyıq. Enerjiyə aid qaydaları da nəzərdən keçirməklə yardım etməliyik.

Yekun olaraq, dövlət müəssisələri və dövlət sektoru. Fikrimcə, biz növbəti həftə və ay ərzində dövlət müəssisələrinin orta perspektivdə kommersiyalaşdırılmasına, özəlləşdirilməsinə keçmək istəyirik. Bu, dövlət investisiya holdinqi vasitəsilə edilə bilər. Biz dövlət-özəl tərəfdaşlığı düsturu üzərində hökumətlə qanunvericilik sahəsində artıq işləyirik. Biz dövlət müəssisələrinin kommersiyalaşdırılması və özəlləşdirilməsinə keçidə həqiqətən kömək etmək istərdik. Biz, həmçinin Azərbaycanın yeni İnkişaf Korporasiyasının yaradılması istiqamətində çalışırıq. Bir sözlə, qeyd etmək istəyirəm ki, Avropa Yenidənqurma və İnkişaf Bankı olaraq, biz, - bilmirəm Azərbaycan dilində də bu kəlam varmı?, - “İşləri məcrasına salmaq” istəyirik. Əlimizdən gələni edirik ki, Azərbaycanda və digər ölkələrdə böhrandan sonra bərpa baş versin və bu, mümkün qədər tez baş versin. Fikrimcə, Azərbaycana gəldikdə, vəziyyət daha yaxşıdır, çünki birinci rübdə artım müşahidə olunub. Lakin biz yalnız bununla arxayınlaşmamalıyıq. Biz hökumətin səylərini və özəl sektorla işi çox fəallaşdırmalıyıq ki, Azərbaycanda bu, baş versin. Bunu da edəcəyik. Mənim bütün həmkarlarımı ekranda görürsünüz. Bütün yüksək rəhbərlik Sizə dəstək vermək üçün buradadır.

Prezident İlham Əliyev: Sağ olun, cənab prezident. Əvvəlcə ölkəmizlə, koronavirusla əlaqədar gördüyümüz işlə və iqtisadi gündəliyimizlə bağlı söylədiyiniz sözlərə görə minnətdaram. Bu məsələləri əvvəllər dəfələrlə müzakirə etmişik. Sonra apardığımız müzakirələri yenidən nəzərdən keçiririk. Görürük ki, planlaşdırdığımız işlərin əksər hissəsini artıq yerinə yetirmişik. Hazırda iqtisadi inkişafımızın əsas məqsədlərindən biri kölgə iqtisadiyyatının miqyasının azaldılmasıdır. Ötən il biz yaxşı irəliləyişə nail olduq. Bu il isə biz bu istiqamətdə çox uğurla irəliləyirik. Azərbaycanda çoxlu dəyişikliklər olub. Prezident Administrasiyasında, hökumətdə, parlamentdə, yerli icra hakimiyyəti orqanlarında dəyişikliklər baş verib. Onlar davam edir.

Gələcək planlara gəldikdə, mən, həmçinin şəxsən sizə, bankın rəhbərliyinə Azərbaycana önəm verdiyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Ən vacib infrastruktur və enerji infrastrukturu layihələrinə, o cümlədən Cənub Qaz Dəhlizinə dəstək verdiyinizə görə sizə çox minnətdarıq.

İndi isə biz razılaşdırdırılmış gündəliyə keçirik. Mən də planlarımızla bağlı dediklərinizi şərh etmək istərdim. Yaşıl proqrama gəldikdə, biz bu məsələyə çox ciddi yanaşırıq. Mənə məlumat verildi ki, hazırda bizdə 9 layihə var. Gəncədə tullantıların idarə edilməsi layihəsinə artıq yaşıl işıq yandırılıb. “Gəncə - Yaşıl Şəhər”, fikrimcə, Azərbaycanın digər böyük şəhərləri üçün yaxşı nümunə ola bilər. Bərpa olunan enerjiyə gəldikdə, biz buna çox həvəslə yanaşırıq. Bu, indi də belədir. Yanvarda biz bərpa olunan enerji sahəsində iki təcrübəli şirkətlə 440 meqavatlıq günəş və külək enerjisi stansiyalarının tikintisi ilə əlaqədar ilkin sənədləri imzaladıq. Bildiyim qədər, Avropa Yenidənqurma və İnkişaf Bankı onlara dəstək verməyi planlaşdırır. Çox vacibdir ki, bu koronavirus həmin şirkətlərin planına müdaxilə etməsin. Bir neçə gün öncə Energetika nazirimiz mənə məlumat verdi ki, onlar öhdəliklərinə ciddi yanaşırlar. Bu, əlbəttə ki, digər böyük şirkətlər üçün də geniş qapıları açacaq. Yəqin bilirsiniz ki, tender prosesində iştirak edən 7 əsas enerji şirkəti var idi. Bu dəfə keçməyən şirkətlərə gəldikdə, biz onlara ayrıca olaraq növbəti danışıqların aparılması təklifi ilə müraciət etmişik. Həmçinin sizin o fikirlə razıyam ki, bu böhran dövründə biz çox ciddi tədbirlər görməliyik. Biz səylərimizi səfərbər etməliyik və daha çox vəsait sərf etməliyik ki, böhrandan çox asan çıxış yolu tapa bilək. Bu, elə bir vəziyyətdir ki, heç kəs buna hazır deyildi. Biz bu vəziyyətdən necə çıxacağıq, fəsadları hansı olacaq, fəsadları necə qiymətləndirməliyik, prioritetləri necə planlaşdırmalıyıq. Buna görə cənab prezident, bizim bankın və sizin dəstəyinizə, ekspert yardımınıza ehtiyacımız olacaq. Çünki söylədiyim kimi, dünyada heç bir ölkə belə vəziyyətlə qarşılaşmamışdır.

Siz, həmçinin suvarma məsələsini qeyd etdiniz. Sizə deyə bilərəm ki, həmin məsələ infrastruktur sektorunda hazırda bizim əsas prioritetimiz ola bilər, çünki bütün digər infrastruktur layihələri demək olar ki, başa çatıb. Ötən il bizdə çox ciddi quraqlıq oldu. Çox ciddi quraqlıq bu il də müşahidə olunur. Anbarlarda saxlanılan su həcmləri heç vaxt görünməmiş qədər azdır. Ötənilki kimi quraqlığı hətta yaşlı nəsil belə xatırlamır. Bu səbəbdən suvarma ən vacib infrastruktur layihəsinə çevrilir. Bu məqsədlə bu yaxınlarda mən dövlət komissiyasını yaratdım və ona keçmiş İqtisadiyyat nazirimiz, yaxşı tanıdığınız Şahin Mustafayev rəhbərlik edir. Maliyyə naziri, İqtisadiyyat naziri, Ekologiya naziri, Kənd təsərrüfatı naziri, dövlət suvarma qurumunun rəhbəri bu komissiyasının üzvləridir. Əvvəlcə onlar bizim bütün su ehtiyatlarımızı qiymətləndirəcəklər. Bizdə su ehtiyatlarına nəzarət üçün elektron sistemimiz olmalıdır. Sonra qiymətləndirmə infrastrukturumuz üzərində aparılacaq. Onun əksər hissəsi sovet vaxtının mirasıdır. Bizdə bəzi hallarda su itkiləri hətta 40-50 faiz təşkil edir, çünki həmin kanallar demək olar ki, bütün keyfiyyətini itiriblər. Biz xarici mütəxəssisləri dəvət edəcəyik. Həmçinin sizin dəstəyinizə nəinki maliyyə, o cümlədən ekspert bacarıqları baxımından arxalanırıq ki, bizim həm qısa, həm orta perspektivdə layihələrimiz olsun. Biz uzunmüddətli strateji plan istəmirik, çünki bizim bu halda beş ilə ehtiyacımız olacaq. Biz öz resurslarımızı ayırmağa hazırıq. Əlbəttə ki, bank dəstək versəydi, lap yaxşı olardı. Ən vacibi isə, layihənin lazımi şəkildə idarə edilməsidir. Dövlət müəssisələrinə gəldikdə, İqtisadiyyat naziri bu məsələ üzərində çalışır. Artıq qeyd edildiyi kimi, kommersiyalaşdırma, qismən özəlləşdirmə - biz, ola bilsin, bunu sizinlə müzakirə etməliyik ki, ilkin addımlar hansılar olacaq. Biz əslində buna hazırıq. Korporativ idarəçilik məsələsi də var. Hazırda biz bildiyiniz kimi, daha çox əlaqələndirmə məqsədilə ana təşkilat ideyasını müzakirə edirik. Çünki problemlərimizdən biri dövlət şirkətləri arasında əlaqələndirmənin çatışmamasıdır. Hətta indi ən perspektivli sektorlardan biri olan nəqliyyat sektorunda biz görürük ki, şirkətlərin korporativ maraqları dövlət maraqlarını üstələyir. Bu məqsədlə əlavə işçi qrupu yaradılacaq.

x x x

Sonra Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın perspektivi ətrafında fikir mübadiləsi aparıldı. Müzakirələrdə İqtisadiyyat naziri Mikayıl Cabbarov və Avropa Yenidənqurma və İnkişaf Bankının Şərqi Avropa və Qafqaz Regionu üzrə icraçı direktoru Matteo Patrone çıxış etdilər.

Videokonfrans zamanı Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi bir daha Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizədə həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirdi, pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların qarşısının alınması üçün ölkəmizdə görülən səmərəli işlərin böyük əhəmiyyət daşıdığı vurğuladı.

Bildirildi ki, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanla gələcəkdə də müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Sonda Prezident İlham Əliyev dedi:

-Təşəkkür edirəm, cənab prezident. Bütün həmkarlara iştiraka görə təşəkkür edirəm və böhran başa çatandan sonra sizinlə tezliklə görüşməyə ümid edirəm.

# "İlham Əliyev: İnkişaf - məqsədimizdir" çoxcildliyinin 97-ci kitabı çapdan çıxıb

***"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 97-ci kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 97-ci kitabındakı materiallar 2019-cu ilin oktyabr-noyabr aylarını əhatə edir.***




Ötən il noyabrın 14-15-də Bakıda Dünya Dini Liderlərinin II Sammiti keçirilib. Prezident İlham Əliyev Sammitin açılış mərasimində geniş nitq söyləyib. Beynəlxalq təşkilatların və dünya dini liderlərinin Azərbaycanda dinlərarası dialoqun yüksək səviyyədə təşkil edilməsi haqqında dəfələrlə fikir söylədiyini xatırladan, bu yüksək qiymətin reallığı əks etdirdiyini bildirən dövlətimizin başçısı deyib: "Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır". Prezidentin milli dəyərlər, tolerantlıq, dinlərarası dialoqun əhəmiyyəti barədə bu və digər fikirlərinin yer aldığı dərin məzmunlu nitqinin mətni 97-ci kitaba daxil edilib.

Nəşrdə Azərbaycan Prezidentinin Bakıda keçirilən "Qoşulmama hərəkatı"na üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşündə söylədiyi geniş nitqinin mətni, ölkəmizə gələn dövlət və hökumət rəhbərləri ilə görüş və danışıqlarına dair materiallar da toplanıb.

Kitabda Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Koreya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Rusiya və digər dövlətlərin yüksəkvəzifəli nümayəndələrini, MDB Müdafiə Nazirləri Şurası iclasının iştirakçılarını, ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etməsinə dair informasiyalar verilib.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Oxucular dövlətimizin başçısının Qəbələ və Ağdaş rayonlarına səfərləri zamanı bölgələrdə infrastruktur obyektlərinin açılış mərasimlərində çıxışlarının mətnləri, həmçinin ictimaiyyət nümayəndələri ilə görüşlərinə aid materiallarla bu kitabda tanış ola bilərlər.

Yeni nəşrdə Prezident İlham Əliyevin məsul vəzifələrə təyin etdiyi şəxsləri qəbul etməsinə dair materiallar, "Neft daşları"nın 70 illiyi münasibətilə Azərbaycan neftçilərinə təbrik məktubu və digər məktubları da yer alıb.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib. "Azərnəşr" tərəfindən buraxılan 97-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# "China Daily": Azərbaycan iqtisadiyyatı koronavirus böhranının öhdəsindən minimum itkilərlə gələcək

***Çinin nüfuzlu "China Daily" qəzetində "Azərbaycan iqtisadiyyatı koronavirus infeksiyası və neft böhranının öhdəsindən gələ biləcəkmi?" adlı məqalə dərc olunub.***

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanda iqtisadiyyatın COVID-19 pandemiyası və azalan neft qiymətləri fonunda yaranan böhranın öhdəsindən gələ bilməsi üçün görülən işlərdən söz açılır. Qeyd olunur ki, Azərbaycan iqtisadiyyatının nə dərəcədə möhkəm dayaqlar üzərində bərqərar olduğunu nümayiş etdirən amildən biri ümumi daxili məhsulun (ÜDM) cari ilin ilk 3 ayında 1,1 faiz, qeyri-neft sektorunun isə 3,5 faiz artımıdır. Eyni zamanda, cari ilin ilk 3 ayında informasiya-kommunikasiya texnologiyaları sahəsində 18 faiz, dağ-mədən sənayesində 12 faiz, kənd təsərrüfatında 3,7 faiz, yük daşımalarında isə 7,2 faiz artım olub. Azərbaycanın cari böhrandan minimal itkilərlə çıxmaq üçün iqtisadi terminlə desək, çox böyük "təhlükəsizlik yastığı" mövcuddur. Bununla yanaşı, dövlət borcu da çox aşağı səviyyədədir.


CHINADAILY.COM.CN Global Edition Apr 28, 2020
CHINA DAILY MOBILE
HOME OPINION VIDEO WORLD CHINA TECHNOLOGY BUSINESS CULTURE TRAVEL SPORTS SERVICE NEWSPAPER
• Featured Contributors

Will Azerbaijan's economy cope with outbreak, oil crisis?

By Seymur Mammadov | chinadaily.com.cn | Updated: 2020-04-27 18:03

The Azerbaijani economy is experiencing a double blow. On the one hand, novel coronavirus, which slowed down the growth rate of some sectors of the country's economy. On the other hand, an unprecedented oil crisis, since most of the state budget revenue comes from oil, and prices for the world's main natural resource demonstrate instability. How is Azerbaijan going to deal with these two global challenges? Will the Azerbaijani economy withstand these tests? Let's try to understand these issues.

Despite the social isolation of the population due to the coronavirus pandemic and a sharp drop in oil prices on world markets, the year 2020 started well for the Azerbaijani economy. Azerbaijan's GDP in the first quarter of this year showed an increase of 1.1 percent, while the non-oil sector grew by 3.5 percent. According to the results of the first quarter, 18 percent growth was achieved in the field of information and communication technologies, with 12 percent growth in the mining industry, 3.7 percent growth in agriculture , and cargo transportation growth increased by 7.2 percent. For the first three months of this year, the state budget received more than 310 million manat ($183.3 million). That is, by the beginning of the pandemic, certain funds had already been raised in the Azerbaijani budget, which made it possible to balance the unexpectedly changed situation.

Most Popular
The face of changing China
Sixteen COVID-19 rumors about China (Part One)
Feeding the fight
Top 10 Chinese regions for consumption power
Xi: Strengths should be put to good use
Columnists
White House must concentrate on fighting outbreak, not China-bashing
Learning from the best practices, not scapegoating, will save lives
Washington must stop making decisions which undermine WHO
Chen Weihua
Editor's Pick

Məqalənin müəllifi "EurAsiaAz" Beynəlxalq ekspert klubunun direktoru, "Vzglyad.az saytının baş redaktoru Seymur Məmmədov qeyd edir ki, bu böhran şəraitində Azərbaycan maliyyə yardımı üçün Beynəlxalq Valyuta Fonduna (BVF) müraciət etməyib. Halbuki 150-dən çox ölkə BVF və ya Dünya Bankına yardım almaq üçün müraciət edib. Azərbaycanın isə kifayət maliyyə ehtiyatları var. Bu da iqtisadiyyatın yeni dönəmdəki inkişafı və onun səngiyən sahələrini yenidən işə salmaq üçün çox böyük imkanlar yaradır.

Bildirilir ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı sahəsində mühüm addımlar atılıb və bu gün də atılmaqdadır. Belə ki, artıq pambıq əkini başlanıb. Tütün, şəkər çubuğu, tərəvəz, kartofun da əkini həyata keçiriləcək. Aqrar kreditləşməyə və inkişafa Prezidentin Ehtiyat Fondundan 30 milyon manat (17 milyon dollar) ayrılıb.

Müəllif qeyd edir ki, Azərbaycanın hətta böhran şəraitində inkişafı və digər ölkələrə nisbətən daha az ziyan görməsi ölkə başçısının ardıcıl apardığı müdrik, düzgün iqtisadi siyasətin və strategiyanın nəticəsidir.



# Qafqaz regionu üzrə iqtisadiyyat 1 faiz azalacaq

Beynəlxalq Valyuta Fondunun Qafqaz və Mərkəzi Asiya regionu üzrə yenilənmiş proqnozuna əsasən, regionun iqtisadiyyatı 1faiz azalacaq. SİA xəbər verir ki, ÜDM üzrə verilən yeni proqnoz fondun 2019-cu ilin oktyabrında verdiyi proqnozdan 5,4 faiz bəndi azdır. Lakin BVF regionun iqtisadiyyatının 2021-ci ildə 4,7 faiz artacağını proqnozlaşdırır və bu fondun ötən ilki gözləntisindən 0,4 faiz bəndi çoxdur.

## Əli Əhmədov: "Zərifə xanım müasirləri üçün olduğu kimi, indiki nəsillər üçün də insanlıq örnəyidir"



"Aprel ayının 28-i Azərbaycanın ən ləyaqətli xanımlarından biri, Ümummilli Lider Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın doğum günüdür. Zərifə xanım Azərbaycanın tibb elminə böyük töhvələr vermiş, yüksək mədəniyyəti və insanpərvərliyi ilə xalqın qəlbində özünə dərin hörmət qazanmışdır. Onun nurlu xatirəsi yaddaşlardan silinməyib və uzun illər silinməyəcək. Zərifə xanım müasirləri üçün olduğu kimi, indiki nəsillər üçün də insanlıq örnəyidir." Bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - icra katibi Əli Əhmədov öz rəsmi facebook səhifəsində paylaşıb.

## ÜST-nin Baş direktoru Azərbaycan Prezidentinə təşəkkür edib




Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus keçirdiyi mətbuat konfransında Azərbaycanın koronavirus pandemiyasına qarşı həm qlobal, həm də regional mübarizəyə töhfəsindən danışıb. SİA-nın verdiyi məlumata görə, Baş direktor bu yaxınlarda Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən videokonfrans formatında toplantıda koronavirusa qarşı mübarizə barədə müzakirələr aparıldığını, özünün də həmin toplantıda iştirak etdiyini bildirib. Tedros Adhanom Qebreyesus bu kimi addımları vacib hesab etdiyini vurğulayıb.

ÜST-nin baş direktoru Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizəyə verdiyi qlobal töhfənin yüksək qiymətləndirib. O deyib ki, Azərbaycan qlobal səviyyədə bu mübarizəyə 5 milyon ABŞ dolları vəsait ayırıb. "Mən Azərbaycan Prezidentinin milli, regional və qlobal səviyyədə bu mübarizədə güclü səylərini görürəm. İmkandan istifadə edərək cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm ki, bütün bu üç səviyyədə səyləri birləşdirir, dəstək verir", - deyə Tedros Adhanom Qebreyesus bildirib.

## Mərkəzçi Demokrat İnternasionalı Dağlıq Qarabağda keçirilən qondarma "seçkiləri" tanımır

idc • cdi

Yeni Azərbaycan Partiyasının müşahidəçi üzv olduğu və sıx əməkdaşlıq etdiyi Mərkəzçi Demokrat İnternasionalı (MDİ) Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində keçirilən qondarma prezident və parlament "seçkiləri" ilə bağlı bəyanat yayıb. Bəyanatda heç bir ölkənin Dağlıq Qarabağı dövlət kimi tanımadığı, bu səbəbdən də bölgədə keçirilən qanunsuz seçkilərin regionda uzun müddət davam edən münaqişənin həlli istiqamətində Azərbaycanla Ermənistan arasında aparılan danışıqlar prosesinə töhfə vermədiyi qeyd olunur.

"MDİ beynəlxalq hüquq prinsiplərinə və normalarına dəstəyinə və sadiqliyinə əsaslanaraq Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdığını bir daha təsdiqləyir. MDİ ATƏT-in Minsk Qrupu həmsədrlərinin müvafiq bəyanatına qoşularaq bu "seçkilərin" nəticələrini tanımır" - deyə bəyanatda vurğulanır.

Həmçinin bildirilir ki, təşkilat bu həssas məsələ ilə bağlı Avropa İttifaqının kəskin mövqeyini paylaşır. Sonda isə MDİ-nin münaqişənin tez bir zamanda sülh yolu ilə dayanıqlı həllinə nail olmaq üçün ATƏT-in Minsk Qrupunun səylərinə dəstəyi vurğulanır və tərəflərə regionda təhlükəsizliyi bərpa etmək naminə prosesə daha konstruktiv yanaşma nümayiş etdirməyə çağırış edilir.

# Azərbaycanın enerji siyasəti yüksəkliyə dorğru

## *Prezident İlham Əliyev: "Biz elektrik enerjisi idxal edən ölkədən elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik"*

***Bu gün enerji siyasəti dünyada mühüm və strateji rola malikdir. Qloballaşan dünyanı enerji təhlükəsizliyi məsələsindən kənarda təsəvvür etmək qeyri-mümkündür. Son illər bu problem bəşəri əhəmiyyətli məsələ kimi dünyanın diqqət mərkəzində qalmaqdadır.***

Zəngin təbii sərvətlərə, davamlı iqtisadiyyata və müasir texnologiyalara malik olan müstəqil Azərbaycan dövləti dünyanın enerji təhlükəsizliyi məsələlərinin həllində də aparıcı mövqe tutur. Qərbin enerji tələbatının ödənilməsinə önəmli töhfə verir. Müstəqil Azərbaycan dövləti hazırda dünyada nəhəng neft ixrac edən ölkələrdən biri kimi tanınır. Eyni zamanda, qaz ixrac edən ölkəyə çevrilməkdəyik. Ulu Öndərimiz Heydər Əliyevin uzaqgörənliklə işləyib hazırladığı, mərhələ-mərhələ həyata keçirdiyi milli neft strategiyası öz bəhrəsini verir. "Əsrin müqaviləsi" çərçivəsində Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin reallaşması sayəsində artıq hər gün 1 milyon barrelə yaxın yüksək keyfiyyətli Bakı nefti dünya bazarlarına çıxarılır. Prezident İlham Əliyevin İtaliyanın nüfuzlu "RAI International" telekanalına müsahibəsində xüsusi qeyd etdiyi kimi, "Azərbaycanın enerji ehtiyatları artıq Avropa, dünya enerji bazarlarına çatdırılır və əlbəttə ki, Azərbaycan bunlardan yararlanır, iqtisadi inkişaf, eyni zamanda bir çox sosial problemlərin həlli deməkdir və ölkənin regional mövqeləri əhəmiyyətli dərəcədə güclənmişdir".

Bəli, iqtisadi inkişaf, eyni zamanda bir çox sosial problemlərin həlli deməkdir. Məhz dövlətimizin başçısı İlham Əliyev ölkəmizin bütün sahələrinə olduğu kimi enerji siyasətinə də xüsusi önəm verərək deyib: "Bu baxımdan biz fərəh hissi ilə deyə bilərik ki, enerji siyasəti sahəsində ölkəmizin qarşısında duran bütün əsas vəzifələr uğurla yerinə yetirilmişdir. Bu gün biz daha geniş enerji tərəfdaşlığı qurmaq, hasilatçı, tranzit və istehlakçı ölkələrin tələbatlarına maksimum dərəcədə cavab vermək üçün hansı əlavə işlərin görülə biləcəyi barədə gələcəyə, irəliyə doğru baxırıq".

Qeyd edək ki, məhz bu sahədə icra olunan layihələrin nəticəsində strateji əhəmiyyət kəsb edən sahələr də yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu baxımdan, son illərdə respublikamızda enerji sektorunun müasirləşdirilməsi və inkişafı istiqamətində görülən işlərin miqyası əhəmiyyəti ilə seçilir. Respublikanın enerji sisteminin etibarlılığının təmin edilməsi və bu sahədə mükəmməl infrastrukturun yaradılması baxımından həyata keçirilən tədbirlər isə ardıcıl və kompleks şəkildə davam etdirilir. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin müasir səviyyədə yenidən qurulması da bunun bariz nümunəsidir.

**"Azərbaycan öz daxili enerji tələbatını tam ödəməklə yanaşı, elektrik enerjisini ixrac da edir"**

Prezident İlham Əliyev aprelin 20-də Bakıda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışında çıxış edərək deyib ki, uğurlu yenidənqurma işlərinin müsbət nəticəsi onu göstərir ki, Azərbaycan dövləti energetika sahəsinə çox böyük əhəmiyyət verir: "2018-ci ilin sonunda burada əsaslı yenidənqurma-təmir işləri başlamış və uğurla başa çatdırılıb. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti energetika sahəsinə çox böyük əhəmiyyət verir. Təsadüfi deyil ki, bizim infrastruktur layihələrinin icrası ilə bağlı ilk addımlarımız məhz energetika sahəsinə də aid idi. Hələ 2004-cü ildə regionların birinci sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilərkən orada infrastruktur layihələrinin arasında əsas diqqət energetika sahəsinə yönəlmişdi. Bu, təbii idi. Çünki o vaxt biz özümüzü elektrik enerjisi ilə təmin edə bilmirdik".




Dövlət başçısı çıxışı zamanı Astara, Xaçmaz, Şəki, Şahdağ və Səngəçalda elektrik stansiyalarının tikintilərinin olması tələbatlarımızın özümüz tərəfindən təmin edilməsinə imkan yaradıldığını, həmçinin yeni elektrik stansiyaların da inşasının nəzərdə tutulduğunu bildirib: "Ancaq bununla paralel olaraq yeni elektrik stansiyalarının, böyük elektrik stansiyalarının inşası da nəzərdə tutulurdu və son 16 il ərzində bütövlükdə ölkəmizdə 30-dan çox yeni stansiya tikilmişdir. Əgər bu stansiyalar tikilməsəydi, bu gün Azərbaycan idxaldan bəlkə də 5 qat, 10 qat daha çox asılı olacaqdı, nəinki 2000-ci illərin əvvəllərində. Bu stansiyalar arasında böyük stansiyalar xüsusilə əhəmiyyət daşıyır. Ən böyük stansiya Şirvan şəhərində tikilmişdir - "Cənub" Elektrik Stansiyası. Onun generasiya gücü təxminən 800 meqavata bərabərdir. Ondan sonra Sumqayıt Elektrik Stansiyası, 525 meqavat. "Şimal 2" bu yaxınlarda istifadəyə verilib. Onun generasiya gücü 400 meqavata yaxındır. "Səngəçal" stansiyasının generasiya gücü 300 meqavatdır. Təkcə bu dörd stansiyanın generasiya gücü 2 min meqavatdan çoxdur. Bundan əlavə, ölkəmizin müxtəlif yerlərində su elektrik stansiyaları tikildi. Bildirməliyəm ki, Naxçıvan Muxtar Respublikasında tikilmiş su elektrik stansiyalarının generasiya gücü bütün muxtar respublikanın tələbatını ödəmək iqtidarındadır. Vaxtilə İrandan və Türkiyədən elektrik enerjisi alan Naxçıvan Muxtar Respublikası indi özünü tam təmin edir və eyni zamanda, orada ixrac potensialı da yaranmışdır. O cümlədən bütövlükdə ölkəmizdə bu gün ixrac potensialı var və biz elektrik enerjisini idxal edən ölkədən elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik".

**"Bizim enerji potensialımız artan iqtisadi inkişafımıza uyğun olmalıdır"**

Dövlət başçısı çıxışı zamanı enerji potensialımızın artan iqtisadi inkişafımıza uyğun olmağını da dedi: "Bizim enerji potensialımız artan iqtisadi inkişafımıza uyğun olmalıdır. Eyni zamanda, "Azərenerji" son iki il ərzində mövcud stansiyaların generasiya güclərinin bərpası barədə yeni layihə təqdim edib. Çünki bu stansiyaların əksəriyyəti çoxdan tikilib. Bu stansiyalarda mövcud vəziyyət bizi heç cür qane edə bilməzdi. Hamımızın yadındadır ki, Mingəçevir Elektrik Stansiyasında baş vermiş qəza hansı fəsadlara gətirib çıxardı. Ölkəmizi qaranlıq bürüdü. Metronun bütün stansiyalarında böhran yarandı və ölkəmiz qaranlığa qərq olmuşdu. Bu, ilk növbədə, səhlənkarlıq, məsuliyyətsizlik ucbatından baş vermiş qəza idi. Ona görə "Azərenerji"nin rəhbərliyi dəyişdirildi, cəzalandırıldı. Yeni rəhbərlik gətirildi. Yeni rəhbərlik qarşısında çox konkret vəzifələr qoyuldu və bu vəzifələr bu gün icra edilir. Çünki enerji təminatı hər bir ölkənin döyünən ürəyidir. Bu olmasa, heç nə olmayacaq. Bu olmasa, sənaye, kənd təsərrüfatı inkişaf etməyəcək, suvarma işləri təmin edilə bilməyəcək, ictimai nəqliyyat işləməyəcək. Ümumiyyətlə, həyat iflic vəziyyətə düşəcək. Ona görə bizim əsas məqsədimiz müstəqil enerji sistemi yaratmaq, xaricdən asılılığı aradan götürmək idi. Enerji potensialımızı elə həcmdə yaratmalı idik ki, bizim ehtiyatda da kifayət qədər generasiya güclərimiz olsun və bu gün bu var. İndi müxtəlif rəqəmlər səslənə bilər, amma ən aşağı rəqəmlər onu göstərir ki, bizim hazırda ehtiyatda ən azı 1000 meqavat generasiya gücümüz var. Mövcud stansiyaların güclərinin bərpası artıq başa çatır. Bunların arasında, ilk növbədə, Mingəçevirdəki İstilik Elektrik Stansiyasını qeyd etməliyəm. Çünki bu, bizim ən böyük generasiya gücümüzdür və həmin stansiyada baş vermiş qəza nəticəsində ölkəmiz qaranlığa düçar oldu. Bu stansiyada 8 blokun hamısı yenidən qurulur. Ümid edirəm ki, yaxın bir neçə ayda bu stansiya tamamilə yenidən qurularaq istifadəyə veriləcək. Bu stansiyada təkcə bərpa olunan güclərin həcmi 600 meqavata yaxındır. Təsəvvür edin, ancaq bərpa işlərini düzgün aparmaqla biz 600 meqavat gücündə əlavə generasiyaya sahib olacağıq. Əgər bunu biz ayrıca bir stansiya kimi götürsək görərik ki, bu, ölkəmizin generasiya gücünə görə ikinci böyük stansiya olacaq, "Cənub" stansiyasından sonra".

Digər elektrik stansiyalarında da bərpa işlərinin aparıldığını deyən dövlət başçısı bildirdi ki, bütün bu işlər, o cümlədən ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, iqtisadi inkişaf, sənaye potensialımızın artması, eyni zamanda, qonşu ölkələrlə enerji xətlərinin təmin edilməsi, inşası ona gətirib çıxarır ki, xarici investorlar artıq bu sahəyə böyük maraq göstərirlər: "Digər elektrik stansiyalarında da bərpa işləri aparılır və əminəm ki, biz bu istiqamətdə öz hədəfimizə çatacağıq. Bütün bu işlər, o cümlədən ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, iqtisadi inkişaf, sənaye potensialımızın artması, eyni zamanda, qonşu ölkələrlə enerji xətlərinin təmin edilməsi, inşası ona gətirib çıxarır ki, xarici investorlar artıq bu sahəyə böyük maraq göstərirlər. Biz bunu həmişə arzulamışıq. Ancaq görəndə ki, xarici investor bu sahəyə maraq göstərmir, bütün işləri biz özümüz görürük, öz pulumuzla. Müəyyən hissəni biz borc kimi götürdük, amma əsas hissəni öz pulumuzla həll etdik və bu gün dünya miqyasında ən səmərəli enerji sistemindən biri məhz Azərbaycandadır və bunu təsdiqləyən Davos Ümumdünya İqtisadi Forumunun hesabatıdır. Bunu mən elə-belə demirəm. Beləliklə, Forumun hesabatında elektrik enerjisinin əlçatanlıq indeksinə görə Azərbaycan dünyada ikinci yerdədir. Təsəvvür edin, ikinci yerdə. Bizdən qabaq, sadəcə olaraq, bir ölkə var. Yəni, biz çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Özü də nə vaxt, qısa müddət ərzində".

Dövlət başçısı həmçinin, yeni müstəqillik əldə edən ölkəmizdə enerji təsərrüfatının bərbad vəziyyətdə olduğunu və həmin illərdə "Barmek" adlı şirkətin Azərbaycandan milyonlarla pul apardığını dedi: "Bizim müstəqilliyimizin hələ 30 yaşı tamam olmayıb. Biz müstəqil ölkə olanda enerji təsərrüfatımız bərbad vəziyyətdə idi. Ondan sonra daha da bərbad vəziyyətə düşdü. Biz o illəri xatırlayırıq. Burada bir "Barmek" şirkəti peyda olmuşdu, özü də qeyri-təmiz sxemlər əsasında, keçmiş məmurlarla sövdələşmə əsasında gəlib bizim Bakı şəhərinin bütün enerji təsərrüfatına sahib olub və pul qoymaq əvəzinə, bu sistemi bərbad vəziyyətə salıb, Azərbaycandan milyonlarla pul aparıb. Sonra da bu, azmış kimi, bizi hələ məhkəməyə vermək istəyirdi. Mənim göstərişimlə bu çirkin sövdələşməyə son qoyuldu, bu dələduz şirkət Azərbaycandan qovuldu və mənim Sərəncamımla o vaxt "Azərişıq" Səhmdar Cəmiyyəti yaradıldı. Adını da mən qoymuşam, "Azərişıq". Biz bütün enerji təsərrüfatımızı dövlət mülkiyyətinə qaytardıq. Əgər bunu etməsəydik, bu gün biz qaranlıq içində yaşayacaqdıq və "Azərenerji"nin bütün əmlakı dağıdılacaqdı, necə ki, bu bina. Təsəvvür edin, 13 min kvadratmetrlik binanı çıxardılar özəlləşdirməyə və ucuz qiymətə satmaq istəyirdilər. Əgər mən xəbər tutmasaydım, mənə məlumat verilməsəydi, göstəriş verməsəydim satacaqdılar. İndi görün siz nə gözəl binada yerləşirsiniz. Bu, demək olar ki, bizim enerji sistemimizin tənzimlənməsi işində əsas mərkəzdir. Skada sistemi, dispetçer sistemi, idarəetmə sistemi, hamısı burdadır, harada yerləşəcəkdi? Bizim enerji sistemimizi belə dağıtmaq istəyirdilər.

Ona görə bizim vətəndaşlar bunu bilməlidirlər və xatırlamalıdırlar. Bu gün haradan-hara gəlmişik, dünya miqyasında ikinci yerdəyik. Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir. Təkcə bu ilin 3 ayında, - baxmayaraq ki, neftin qiyməti düşdü, koronavirus pandemiyası bizim ölkəmizə də çox böyük təsir göstərdi, - qeyri-neft sənayesi sahəsində artım 23 faizdir və bütün bu artan sənaye müəssisələri enerji tələb edir. Həm generasiya, həm ötürmə, həm dayanıqlı təchizat - bütün bunlar bu gün təmin edilir. Ona görə hesab edirəm ki, bu gün bu binanın açılışı çox böyük rəmzi məna daşıyır. Təbii ki, burada institut yerləşir, Baş İdarəetmə Mərkəzi, Tədris-Laboratoriya Mərkəzi, Dispetçer Mərkəzi və eyni zamanda, bu, bizim enerji sistemimizin yeni simasını əks etdirir. Bu bina artıq satışdan, hərracdan çıxarılaraq energetiklərə, onun sahiblərinə qaytarılmışdır. Ona görə bu binada işləyən vətəndaşlar öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər. Elə etməlidirlər ki, bizim enerji təminatımız daim yüksək səviyyədə olsun".

**""Azərenerji"nin böyük planları var və hesab edirəm ki, ardıcıl siyasət nəticəsində bütün bu planlar həyata keçəcək"**

Dövlət başçısı, həmçinin görüləcək işlər barədə də məlumat verərək bildirdi ki, ardıcıl siyasət nəticəsində bütün bu planlar həyata keçəcək: "Bütün bunlarla yanaşı, hələ görüləcək işlər çoxdur. "Azərenerji"nin böyük planları var və hesab edirəm ki, ardıcıl siyasət nəticəsində bütün bu planlar həyata keçəcək. Bir daha demək istəyirəm ki, bütün bu müsbət dinamika və eyni zamanda, sabitlik ona gətirib çıxardı ki, xarici investorlar Azərbaycana pul qoymaq qərarına gəlmişlər. Bu ilin yanvar ayında ilkin razılaşma əldə edildi və bərpa olunan enerji sahəsində böyük təcrübəyə malik 2 böyük şirkət Azərbaycanla ilkin sazişləri də imzaladı. Bu sazişlər əsasında ölkəmizdə 440 meqavat gücündə - biri külək, biri günəş olmaqla, 2 stansiya tikiləcəkdir, sırf xarici investorların hesabına. Onu da bildirməliyəm ki, bu layihələri icra etmək, yəni, investisiya qoymaq istəyən şirkətlərin sayı 7 idi. Mən ad çəkmək istəmirəm, onların arasında dünyanın ən böyük enerji şirkətləri də vardı. Ancaq müsabiqə onu göstərdi ki, 2 şirkət daha gözəl şərtlər verib və onlar artıq bu işləri başlamalıdırlar. Düzdür, bu koronavirus araya girdi, ola bilər ki, müəyyən yubanma olsun, amma prinsip etibarilə ilkin razılaşmalar əldə edilib. Bu, öz növbəsində, digər şirkətlərə də yol açacaq. Bizim bərpa olunan enerji potensialımız çox böyükdür, günəş, külək bizdə boldur. Ona görə əmin edirəm ki, həm yerli, həm də xarici şirkətlər bu sahəyə maraq göstərəcəklər".

**RƏFİQƏ KAMALQIZI**

# The Jerusalem Post: “Azərbaycanda koronavirus: çağırışlar və reallıq”

**_2019-cu il dekabrın 31-də Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) bildirilmişdi ki, Çinin Uxan şəhərində aşkar edilmiş yeni koronavirus mənbəyi bir qrup insanın respirator xəstəliyinə tutulmasına səbəb olub. 2020-ci il yanvarın 12-də ÜST bu məlumatın həqiqət olduğunu təsdiq etdi._**

2020-ci il fevralın 27-də koronavirus pandemiyasının doğura biləcəyi təhlükənin qarşısının alınması və təcili profilaktik tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Azərbaycanın Baş Naziri Əli Əsədov başda olmaqla müvafiq dövlət təşkilatlarının rəhbərlərindən ibarət operativ qərargah yaradıldı.

AZƏRTAC xəbər verir ki, İsraildəki “Cəmiyyət üçün beynəlxalq layihələr” qeyri-hökumət təşkilatının rəhbəri, beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc olunmuş “Azərbaycanda koronavirus: çağırışlar və reallıq” sərlövhəli məqaləsində bu haqda yazır.

İstinad: https: //www.jpost.com / opinion/-coronavirus - in-azerbaijan - challenges-and - reality-626065



THE JERUSALEM POST CORONAVIRUS ISRAEL NEWS OPINION MIDDLE EAST DIASPORA U.S. POLITICS WORLD NEWS Login

These are presidential candidate Joe Biden's Jews

For olim who came despite coronavirus, a different Yom Haatzmaut

Why Everybody in Azerbaijan is Snapping Up These New Earphones!

Exclusive Offer: Save 49% and Try This VPN 100% Risk-Free!

Jerusalem Post > Opinion

## Coronavirus in Azerbaijan: Challenges and reality

From the very first day, Azerbaijan took the virus threat quite seriously, and put the country on lockdown.

By ARYE GUT APRIL 27, 2020 13:19

The iconic skyline of Baku in Azerbaijan. (photo credit: REUTERS)

On January 12, the World Health Organization confirmed a novel coronavirus was the cause of a respiratory illness in a cluster of people in Wuhan, China, which had been reported to the WHO on December 31, 2019.

On February 27, an operational headquarters under the Azerbaijan Cabinet of Ministers was created to prevent danger that the coronavirus pandemic could cause, to implement prophylactic and urgent measures. This headquarters included heads of related state organizations, led by Azerbaijan's prime minister, Ali Asadov.

Subscribe for our daily newsletter

Your e-mail address

By subscribing I accept the terms of use

Hot Opinion

Independence Day – Israel's 72nd birthday
By JPOST EDITORIAL

Remembrance Day and the haredim - opinion
By FLEUR HASSAN-NAHOUM

Sharing responsibility and joy on Israel's Independence Day
By ISAAC HERZOG

A different Memorial Day - opinion
By DANNY DANON

When the desirable and reality do not tally, the unity
By SUSAN HATTIS ROLEF

Advertisement
Ads by Google
Stop seeing this ad Why this ad?
HUAWEI
HUAWEI Mate30 Pro
ARTIQ SATIŞDA!
Huawei FreeBuds 3

İsrailli ekspertin fikrincə, gözəgörünməz düşmən olan bu yeni koronavirus dənizə çıxışı olmayan Azərbaycana gizli yolla daxil olub. İsrailli ekspert öz məqaləsində yazır: “Bu gün İsrailin Avrasiyada etibarlı tərəfdaşı və müttəfiqi olan Azərbaycan güclü, müstəqil dövlət və Cənubi Qafqaz regionunda geosiyasi və geoiqtisadi proseslərin lideridir.

Geoiqtisadi və nəqliyyat sahəsində əməkdaşlıq üzrə müxtəlif layihələri həyata keçirən Azərbaycan regionda və onun hüdudlarından kənarda sülhün, sabitliyin və firavanlığın sərhədlərinin genişlənməsinə imkan yaradır. Başqa sözlə, bu gün Azərbaycan təhlükəsizliyin və sabitliyin ixracatçısıdır. Bundan başqa, ölkə beynəlxalq ictimaiyyətin müasir təhdidlərin qarşısının alınmasına yönəlmiş səylərini birbaşa dəstəkləyir”.

Arye Qut qeyd edir ki, Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz regionuna nəzər salsaq, adi gözlə görmək olar ki, bu ölkə çox mürəkkəb, kompleks “geosiyasi mühitdə” Rusiya, Türkiyə və İran kimi qeyri-adi geosiyasi aktorların əhatəsindədir.

Arye Qut vurğulayır: “Azərbaycan virus təhlükəsini ilk gündən kifayət qədər ciddi qəbul etdi. Virusun yayılmasını məhdudlaşdırmaq üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə kompleks tədbirlər həyata keçirilib. COVID-19 virusuna yoluxma ilə bağlı ilk bir neçə hadisə aşkar ediləndən dərhal sonra bütün uşaq bağçaları, məktəblər və universitetlər bağlandı.

Adamlar evlərindən yalnız təcili tibbi məhsulları almaq üçün, onların həyatlarına və ya sağlamlığına təhlükə yarandıqda və ya zibil atmaq üçün çıxa bilərlər. Nazirlər Kabinetinin qərarına əsasən, aprelin 20-sinə qədər bazarlar, apteklər və onlayn-mağazalardan başqa bütün mağazalar və restoranlar, bütün əyləncə mərkəzləri, muzeylər, kinoteatrlar, teatrlar, idman zalları, bərbərxana və gözəllik salonları, dərzi və fotoqraf xidmətləri bağlanmışdı. Dəfn mərasimlərindən başqa insanların kütləvi şəkildə toplaşması, toylar və əyləncə gecələri də daxil olmaqla, qadağan idi. Bir neçə gündən sonra Azərbaycan öz sərhədlərini qismən bağladı, hava nəqliyyatının hərəkətini əhəmiyyətli dərəcədə azaltdı. Kütləvi yığıncaqlar qadağan edildi, mədəni və əyləncə müəssisələrini bağladılar, kafelər, restoranlar, mağazalar, ticarət mərkəzləri və ictimai nəqliyyat üçün konkret göstərişləri qəbul edildi. Sonra virusun yayılmasının ləngidilməsi üçün əlavə məhdudiyyətlər qəbul edildi, 2020-ci il aprelin 5-dən Azərbaycanda bütün ölkə üzrə karantin elan edildi”.

Məqalənin müəllifi qeyd edir ki, hazırda ölkə vətəndaşları və xarici vətəndaşlar qida məhsulları, dərmanlar kimi ilkin tələbat mallarını almaq, tibb müəssisəsinə baş çəkmək və ya zəruri səfər etmək məqsədilə evdən çıxmaq üçün müəyyən nömrəyə pulsuz mətn mesajı göndərib, icazə almalıdırlar. Azərbaycanın bütün sərhədləri sərnişin daşımaları üçün tamamilə bağlanıb.

Arye Qut yazır: “Yaşı 65-dən yuxarı olan şəxslərin evdən çıxması qadağandır, tənha yaşayan ahıl insanlara hökumət yardım göstərir. Eyni zamanda, tənha ahıl insanların “60+ risk qrupu”nda qeydiyyatı üçün xüsusi platforma yaradılıb. Belə insanlara xüsusi çağrı mərkəzinə zəng vuraraq və tənha olduqlarını bildirmək və ya onlayn rejimdə qeydiyyatdan keçmək imkanı verilir.

Artıq həqiqətən köməyə ehtiyac duyan1408 nəfər sosial cəhətdən həssas və zəif insan aşkar edilib. Bu insanlara bilavasitə dövlət tərəfindən və Heydər Əliyev Fondunun dəstəyi ilə könüllülər hərəkatının üzvləri tərəfindən kömək göstərilir. Bu risk qrupundan olan bütün insanlar yeməklə və bütün zəruri vasitələrlə təmin edilib. Mağazalardan mallar onlara pulsuz çatdırılır. Belə malların hamısının haqqını dövlət ödəyir”.

Məqalənin müəllifi vurğulayır ki, Azərbaycanda 75.000-dən çox test keçirilib. Bu, əhalinin hər milyon nəfərinə təxminən 7300 test deməkdir.

İsrailli ekspert yazır: “Bu rəqəm onu göstərir ki, Azərbaycan sınaqların miqdarına görə bütün regionda birinci yeri tutur və keçirilmiş testlərin sayına görə qabaqcıl Avropa ölkələrinin çoxundan irəlidədir. İndi bütün Azərbaycan karantindədir. İnsanlar parklara və kababxanalara getmir, ibadət yerlərinə getməyə çalışmırlar. Ən başlıcası, bütün bunlar sivil şəkildə baş verir. Çünki ölkədə lüzumsuz təlaş yoxdur. Dövlət təsisatlarına etimad yüksək səviyyədədir, insanlar əmindirlər ki, onları atmayacaqlar və onlara humanist münasibət göstəriləcək”.

Arye Qut qeyd edir ki, Azərbaycan Prezidenti İlham Əliyev COVID-19-un iqtisadi və sosial təsirini yumşaltmaq və azaltmaq, koronavirus pandemiyasına qarşı mübarizədə üçün real kömək etmək üçün ölkə üzrə ÜDM-in 3 faizi (2,5 milyard manat və ya 1,47 milyard dollar) məbləğində vəsait ayırıb. Bu, bütün post-sovet dövrü üçün Azərbaycanın ÜDM-inin ən böyük hissəsi deməkdir.

Arye Qut vurğulayır: “600.000-dən çox insan dövlət proqramından dəstək alacaq. Hökumət maaşların əhəmiyyətli hissəsini ödəyəcək. Bu kateqoriyaya aid olan insanlar əhalinin aztəminatlı təbəqələrinin nümayəndələri, həmçinin koronavirusa görə işini itirmiş və qeyri-rəsmi işləyən insanlardır.

Postpandemiya dövründə biznesin iqtisadi fəallığının daha sürətli bərpası məqsədilə sahibkarlar üçün vergi güzəştlərini genişləndirən, onların güzəştli kreditlərdən bəhrələnə bilməsi üçün dövlət dəstəyi şəklində stimullar paketi tətbiq edilir.

Məqalənin müəllifi qeyd edir ki, Azərbaycan dövləti işsizliklə bağlı problemləri də həll edir - 70.000-dən çox insan ünvanlı sosial yardım alır. Arye Qut vurğulayır: “Bütün bu addımlar Azərbaycan dövlətinin öz vətəndaşlarına böyük qayğı və diqqətin, həmçinin indiki böhranın nəticələri fonunda ciddi dəstəyin göstəricisidir. Sosial paketdə yeni koronavirusun təsiri ilə bağlı problemləri yüngülləşdirməyə yönəlmiş bir sıra tədbirlər, o cümlədən 200.000 işsiz vətəndaşa iki ay ərzində yaşam minimumu həcmində birdəfəlik ödəmələr, 50.000 ödənişli ictimai iş yeri yaradılması, sosial baxımdan həssas ailələrdən olan tələbələr üçün təhsilə dəstək proqramı, ipotekaların və kreditlərin təminatı mexanizmi üçün maliyyə dəstəyi proqramı, kommunal ödənişlərin dəstəyi proqramı, ilk növbədə, əhali tərəfindən elektrik enerjisi istehlakı və həyati əhəmiyyətli sərnişin nəqliyyat əməliyyatları üçün maliyyə dəstəyi proqramı nəzərdə tutulur”.

Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc olunmuş məqaləsinin sonunda yazır: “Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizə məqsədilə Ümumdünya Səhiyyə Təşkilatının yaratdığı COVID-19-a qarşı qlobal səylərin dəstəklənməsi Fonduna 5 milyon dollar ianə verib. Qeyd edək ki, postsovet məkanında və bütün Avrasiyada belə bir addım atmış yeganə ölkə Azərbaycandır. Göründüyü kimi, Azərbaycan koronavirusun yayılmasının qarşısını almaq üçün, həmçinin pandemiyanın ölkə iqtisadiyyatına və əhaliyə vurduğu zərəri yumşaltmaq üçün mümkün olan bütün tədbirləri həyata keçirir”.

# AŞPA-nın prezidenti: “Ali Məhkəmənin Plenumunun qərarlarını alqışlayıram”



Council of Europe
Parliamentary Assembly

The President

Strasbourg, 27 April 2020

Dear Chairperson, Dear Mr Seyidov,

Thank you for your letter of 23 April 2020 informing me of the recent decisions of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan regarding the cases of Ilgar Mammadov and Rasul Jafarov. I welcome these decisions.

Indeed, for a number of years, the failure to execute the decisions of the European Court of Human Rights in these two cases was a stumbling block in the co-operation between Azerbaijan and the Council of Europe. Therefore, the decisions of the Plenum of the Supreme Court open new opportunities for enhanced co-operation between Azerbaijan and the Council of Europe, with a view to resolving, inter alia, some systemic issues in the functioning of the judiciary which were identified by the European Court of Human Rights in these two cases, as well as in a number similar decisions of the Strasbourg Court.

This is indeed the spirit of the statements made in this connection by Mr Stefan Schennach and Sir Roger Gale, the co-rapporteurs of the Assembly's Monitoring Committee, and Ms Sunna Ævarsdottir, rapporteur of the Assembly's Committee on Legal Affairs and Human Rights. Therefore, I count on you and the Azerbaijani delegation to the Assembly to continue co-operation with the Assembly rapporteurs and the Council of Europe competent bodies.

We stand ready to provide support and expertise in this respect.

Yours sincerely,

Rik Daems

Mr Samad Seyidov
Chairperson
Delegation of Azerbaijan to the Council of Europe

Postal Address: F-67075 Strasbourg Cedex

Tel: +33 (0)3 88 41 20 94
Fax: +33 (0)3 88 41 27 96
rik.daems@coe.int

**_Aprelin 23-də Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda ReAL Partiyasının sədri İlqar Məmmədovun, eləcə də hüquq müdafiəçisi Rəsul Cəfərovun barəsində olan hökmlə bağlı işə baxılıb._**

Hər iki məsələ üzrə şəxslər barəsindəki cinayət işinə bəraətverici əsaslarla xitam verilib. AZƏRTAC xəbər verir ki, beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılanan bu qərara münasibətini bildirən AŞPA-nın prezidenti Rik Daems Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidova məktub göndərib.

Məktubda deyilir:

“İlqar Məmmədov və Rəsul Cəfərovun işləri ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun son qərarları barədə məlumatla tanış olduğum 2020-ci il 23 aprel tarixli məktubunuza görə sizə təşəkkür edirəm. Mən bu qərarları alqışlayıram.

Həqiqətən də, bir neçə ildir ki, bu iki iş üzrə Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icra olunmaması Azərbaycanla Avropa Şurası arasındakı əməkdaşlıq qarşısında maneəyə çevrilmişdi. Buna görə, Ali Məhkəmə Plenumunun qərarları, digər məsələlərlə yanaşı, bu iki işlə bağlı Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən, eləcə də Strasburq Məhkəməsinin bir sıra oxşar qərarları ilə müəyyən edilmiş ədliyyə orqanlarının fəaliyyətində bəzi sistemli məsələlərin həll edilməsi məqsədilə Azərbaycanla Avropa Şurası arasında genişləndirilmiş əməkdaşlığa yeni imkanlar açır”.

Rik Daems, həmçinin Azərbaycan nümayəndə heyətinin Assambleya məruzəçiləri və Avropa Şurasının səlahiyyətli qurumları ilə əməkdaşlığı davam etdirəcəklərinə inandığını bildirib.



# İqtisadi artım üçün stimullaşdırıcı amillər mövcuddur

***Aparıcı beynəlxalq təşkilatlar, qurumlar və müvafiq şirkətlər tərəfindən proqnozlaşdırılan pozitiv iqtisadı meyarlar, məlum olduğu kimi, neqativ təsirlərlə, məqamlarla üzləşməkdə davam edir. Məhz belə neqativ təsir və məqamlar, xüsusən də ötən ilin sonlarından başlayan infeksiya, sonra isə ÜST tərəfindən elan olunmuş pandemiya səbəbindən bu proqnozlar reallıqdan çox uzaq görünür. Çünki, dünyanı bürüyən və öz cənginə alan pandemiya dalğası hələ də öz sarsıdıcı təsirlərini göstərməkdə davam edir və hələ nə qədər davam edəcəyi də bilinmir.***

Qeyd olunduğu kimi, pandemiyanın öz mənfi təsirləri danılmazdır və bu təsirlər təkcə səhiyyə, sağlamlıq sahəsinə deyil, eyni zamanda iqtisadiyyata da təsirsiz ötüşə bilməz. Bu vəziyyətin iqtisadi göstəricilərə, xüsusən dünya iqtisadiyyatına bu və ya digər formada təsirləri ilə mütləq qarşılaşacağıq. Amma, mütləq şəkildə deyə bilmərik ki, bu təsirlər yalnız mənfi təsirlərdən ibarət olacaq. Əgər dünya iqtisadiyyatının hər 10-15 ildən bir böhranlı vəziyyətlə qarşılaşmasını və bu təsirlər səbəbindən daha təkmil sistemlərin işlənib hazırlandığını nəzərə alsaq, xatırlasaq heç də pessimist əhval-ruhiyyəyə köklənmərik. Çünki, hazırlanacağına şübhə belə olmayan daha təkmil sistemlər daha dayanıqlı iqtisadi mexanizmlərin hazırlanmasına zəmin yaradır.

Pandemiyanın təsirləri nəticəsində Azərbaycan da böhransız ötüşə bilməz. Amma, onu da qeyd etmək yerinə düşərdi ki, bu böhran digər dövlətlərlə müqaisə edilə də bilməz. Çünki, hökumətimiz pandemiya və postpandemiya vəziyyətinin stabilliyi və idarə edilməsi üçün kifayət qədər vəsait sərf etməyi planlaşdırır və bu vəsait 3,5 milyard manat həddinə qədərdir ki, həmin vəsait böhranın qarşısının alınması üçün stimul deməkdir. Dövlət sektorunda, eyni zamanda muzdla çalışanların maliyyələşdirilməsi, əlavə xüsusən sahibkarlıq subyektlərinə olan yardımlar Azərbaycanın bir dövlət olaraq postpandemiya dövründə nəzərəçarpacaq dərəcədə iqtisadi böhranla üzləşməməsinə stimul yaradacaq.

Təbii ki, pandemiya dövründə qlobal miqyasda olduğu kimi, yəni dünya iqtisadiyyatı kimi Azərbaycan iqtisadiyyatı da arzuolunmaz vəziyyətlə üzləşməli olub. Xüsusən də bu dövrdə pandemiya ilə yanaşı neftin dünya bazarında qiymətinin ehtimal edilən də dəfələrlə aşağı düşməsi sözsüz ki, ikinci bir mənfi təsir hesab olunur ölkə iqtisadiyyatına. Amma bir məsələni də unutmaq lazım deyil ki, ölkəmizin kifayət qədər valyuta ehtiyatları var və bu ehtiyatların 60 faizdən artığı dollar, 30 faizi isə Avro ekvivalentindədir. Nəzərə alsaq ki, bu iki valyuta üzrə bu vaxta qədər 4 faizə qədər artım müşahidə olunub, deməli, xərclənənlər haradasa konpensasiya olunmuş hesab edilə bilər.

Ən çox diqqəti çəkən məqam, bir qədər əvvəl qeyd etdiyimiz daha təkmil sistemlərin, daha dayanıqlı iqtisadi sistemlərin yaradılmasıdır ki, bu istiqamətdə də artıq ölkəmizdə pandemiyadan da əvvəl işlərin görüldüyünü etiraf etmək yerinə düşərdi. Bilirik ki, neftin qiyməti dəfələrlə aşağı da düşüb, yenidən qalxıb da. Hətta ötən ilin sonunda, cari ilin əvvəlində qara qızılın minimum aşağı həddi olaraq 55 dollar nəzərdə tutulsa da qiymətlərin bundan da çox aşağı olduğunun şahidi olduq. Bir növ pandemiya dövründə bütün neft ixrac edən ölkələr yaxşı başa düşdülər ki, ehtiyatlar üçün neftə ümid olmaq olmaz və istehsal, emal daha məqsədəuyğundur. Məsələ burasındadır ki, pandemiyadan da uzun zaman əvvəldən Azərbaycanda qeyri-neft sektorunun inkişafı diqqət mərkəzindədir. Xüsusən ölkə başçısı, Cənab Prezident İlham Əliyev qeyri-neft sektoruna, istehsal, emal sənayesinə, kənd təsərrüfatına xüsusi diqqət ayırıb. Təkcə pandemiya dövründə deyil, ondan da çox-çox əvvəldən ölkəmizdə istehsal, emal sahələrinə, kənd təsərrüfatına dövlət dəstəyinin, yardımların hamımız şahidiyik. Bu isə ondan xəbər verir ki, Azərbaycanda hələ pandemiyadan əvvəldən belə daha təkmil sistemlərin, daha dayanıqlı iqtisadi sistemlərin yaradılması istiqamətində addımlar atılır. Təbii ki, bu tədbirlər ölkə başçısının uzaqgörənliyinin, doğru, düzgün, rasional siyasətinin isbatıdır və bu da öz növbəsində o deməkdir ki, iqtisadi artım üçün ölkəmizdə stimullaşdırıcı amillər artıq mövcuddur. Ola bilsin bu stimullaşdırıcı amillər, ehtiyac üzündən hansısa qərb ölkəsində, Avropada pandemiya dövründə yaranmaqdadır. Lakin, ölkəmizdə bu daha əvvəldən düşünülüb və müvafiq tədbirlər görülüb. Belə tədbirləri, dövlətimizin atdığı addımları, göstərilən dəstəyi təbii ki, saymaqla bitən deyil. Sahibkarlıqla, istehsalla, emalla, kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, tədarükü ilə məşğul olanlara subsidiyaların verilməsi, əlavə güzəştlərin tətbiq edilməsi, xüsusilə aqrar sahədə çalışanların texnika ilə, gübrələrlə təmin edilməsi, heyvandarlıqla məşğul olanlara yem tədarükündə dəstək verilməsi, bir çoxlarına iri və xırda buynuzlu heyvanlar verilməsi və sair addımlar dövlətin sadalanan sahələrin, qeyri-neft sektorunun inkişafına marağını isbatlayır. Sozsüz ki, bütün bu atılan addımlar öz növbəsində neftdən asılığın minimuma endirilməsi deməkdir və özü-özlüyündə postpandemiya dövründə həmin sahələrin, yəni qeyri-neft sektorunun inkişafına əsaslı zəmin yaradır. Bu zəmin də əlbəttə ki, stimullaşdırıcı amillər mövcudluğunu cəsarətlə söyləməyə və nikbin proqnozlar verməyə əsas verir.

***İnam Hacıyev***

# "Uğurlu siyasətiniz nəticəsində Azərbaycanımızı dünyaya örnək etdiniz"



Koronavirus pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, xalqımızın sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması istiqamətində atdığı qətiyyətli addımlara görə Prezident İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. SİA Prezidentin saytına istinadla Xızı Suvarma Sistemləri İdarəsinin kollektivi adından Fərrux Haqverdiyevin yazısını təqdim edir:

<u>Hörmətli cənab Prezident.</u>

Bu gün aktuallığı ilə dünyada diqqət mərkəzində olan koronavirus pandemiyasına qarşı ölkəmizdə Sizin rəhbərliyinizlə aparılan işlər, virusun yayılmaması üçün görülən qabaqlayıcı tədbirlər bütün xalqımız, eyni zamanda, beynəlxalq təşkilatlar tərəfindən müsbət qarşılanır. Həyat fəaliyyətinin bütün istiqamətlərində olduğu kimi, pandemiyaya qarşı mübarizədə də Azərbaycanı bir çox ölkələrdən fərqləndirən Sizin müdrik rəhbərliyiniz, xalqımıza tükənməz sevginiz, ölkəmizin taleyi üçün hamıdan çox məsuliyyət daşımağınızdır.

Meliorasiya və su təsərrüfatı sahəsinə göstərdiyiniz diqqət və qayğı ölkəmizdə əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına, kənd təsərrüfatı məhsullarının qıtlığının qarşısının alınmasına böyük köməkdir.

Cənab Prezident, Azərbaycan xalqını koronavirus təhlükəsindən qorumaq üçün ilk günlərdən atdığınız addımlar onu göstərir ki, Siz daim xalqın sağlamlığını, təhlükəsizliyini, rahatlığını və rifahını hər şeydən üstün tutursunuz. Uğurlu siyasətiniz nəticəsində Azərbaycanımızı dünyaya örnək göstəriləbiləcək bir məmləkətə çevirmisiniz. Bu xalq Sizin rəhbərliyinizlə bir çox çətinliklərin öhdəsindən gəlib. Dünyanın qabaqcıl ölkələrində bu xəstəlik səbəbindən həyatın iflic olduğu dönəmdə Azərbaycanda hər şeyin öz axarı ilə davam etməsi Sizin sayənizdədir. Vaxtında verdiyiniz sərəncamlar, görülmüş təxirəsalınmaz tədbirlər virusun ölkəmizdə kütləvi yayılmasının qarşısını aldı. Bütün bunlara görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz Sizinlə fəxr edirik və hər zaman yanınızdayıq.

# DSX-nin qadın hərbi qulluqçuları Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər



28 aprel 2020-ci il tarixdə Dövlət Sərhəd Xidmətində (DSX) görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 97-ci ildönümü münasibəti ilə tədbir keçirilib. SİA-ya DSX-nin mətbuat mərkəzindən verilən məlumata görə, ənənəvi olaraq Dövlət Sərhəd Xidmətinin qadın hərbi qulluqçuları Zərifə xanım Əliyevanın məzarı önünə tər çiçək dəstələri düzüblər.

Dövlət Sərhəd Xidmətinin Aparatında dünya şöhrətli alim Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən sərgi nümayiş etdirilmiş, istedadlı alim, bacarıqlı pedaqoq, qayğıkeş ana olan Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti barədə məlumat verilib.

Tədbirdə Zərifə xanımın elm üçün gözəl tədqiqatçı, Ulu Öndər Heydər Əliyev üçün ömür yoldaşı, sadiq dost, övladları üçün qayğıkeş ana və nənə, bu çevrədən kənardakı şəxslər üçünsə əsl insanlıq nümunəsi olması xüsusi vurğulanıb. Zərifə xanımın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər Azərbaycan tibb elminin parlaq səhifələridir. Zərifə xanımın 150-dən artıq elmi əsəri, 10 monoqrafiyası çap olunub. Göz xəstəlikləri üzrə elmi-tədqiqat işləri akademik Zərifə xanım Əliyevaya böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məhşurlaşdırıb.

Fundamental elmi tədqiqatları ilə oftalmologiyanın inkişafına böyük töhfələr verən akademik Zərifə xanım Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın alim olub. Akademik Zərifə xanım Əliyeva həm də böyük ictimai iş aparıb, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü olub, ""Əməkdar Elm Xadimi" fəxri adına layiq görülüb. Tədbirdə fitri istedada malik alim, sözün yüksək anlamında pak və nəcib insan olan Zərifə xanımın xatirəsinin xalqımız tərəfindən həmişə əziz tutulacağı qeyd edilib.

# <u>Mərkəzi Bank:</u> "Atabank" ASC-nin və "Amrah Bank" ASC-nin lisenziyaları ləğv edilib




Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2020-ci il 27 aprel tarixli qərarları ilə "Atabank" ASC, "AGBank" ASC, "NBCBank" ASC və "Amrah Bank" ASC-yə müvəqqəti inzibatçılar təyin olunmuş, adı çəkilən bankların idarə olunması üzrə bütün səlahiyyətlər, o cümlədən bank səhmdarlarının ümumi yığıncağının səlahiyyətləri müvəqqəti inzibatçıya keçib. Mərkəzi Bankın İdarə Heyətinin 2020-ci il 28 aprel tarixli qərarına əsasən həmin banklardan ikisinin - "Atabank" ASC-nin və "Amrah Bank" ASC-nin lisenziyaları həmin tarixdən etibarən ləğv edilib. Bu barədə AZƏRTAC-a Mərkəzi Bankdan məlumat verilib.

# "Azərbaycan xalqı çox xoşbəxt xalqdır ki, qayğıkeşliyi, humanistliyi ilə örnək olan Sizin kimi Prezidenti var"

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir*

***AZƏRTAC həmin məktubların bir neçəsini təqdim edir. Milli Qəhrəman Eltun İsgəndərovun valideynləri Xaləddin İsgəndərov və Münəvvər İsgəndərova yazırlar: "Möhtərəm cənab Prezident, xalqımızın və bütün dünyanın ağır sınaqdan keçdiyi bir dövrdə göstərdiyiniz vətənpərvərlik mövqeyinə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Hətta dünyanın ən güclü dövlətlərinin belə tədbir görməkdə gecikdiyi zamanda Sizin göstərdiyiniz qayğı və diqqət bizim bu sınaqdan da üzüağ çıxmağımızın göstəricisi və qarantıdır. Siz insanlara çox kömək edirsiniz. Bunu hamı bilir. Allah Sizdən razı olsun. Koronavirusla əlaqədar xalqa müraciətiniz bir daha göstərdi ki, Siz xalqın yanındasınız, onlara kömək göstərirsiniz. Sizin müraciətiniz bu həssas məqamda insanlara ruh yüksəkliyi verdi. İnsanların təşvişə düşməmələri üçün bu müraciət çox vacib idi və Siz bunu etdiniz. Biz bir daha əmin olduq ki, ən çətin məqamda belə güvənə biləcəyimiz Prezidentimiz var. Ulu Tanrı Sizi qorusun. Nə yaxşı ki, varsınız".***



Şəki rayonu Orta Zəyzid kəndinin 7-ci sinif şagirdi Nurlan Qədirli: "Hörmətli cənab Prezident, karantin müddətində insanlara göstərdiyiniz qayğıya, həkimlərə ayırdığınız diqqətə görə Sizə ailəmiz adından minnətdarlığımızı bildirir, uzun ömür, cansağlığı arzulayırıq. Sizin həkimlərlə görüşünüzdə onları ayaq üstə alqışlamağınız mənim heç vaxt yadımdan çıxmayacaq. Çünki mənim əmim də həkimdir. İnşallah, bu virus ötüb keçər və hər şey öz axarına qayıdar".

Məcburi köçkün, Pənah Məmmədov adına Laçın rayon 46 nömrəli tam orta məktəbin 6-cı sinif şagirdi Nuriyyə Nəsirova: "Hörmətli cənab Prezident, koronavirus xəstəliyi ilə bağlı apardığınız mübarizədə verdiyiniz qərarların və göstərişlərin məqsədinin ölkəmizi, Azərbaycan xalqını qorumaq və onun sağlamlığının qeydinə qalmaq olduğunu çox gözəl dərk edirik. İnanırıq ki, Sizin sayənizdə tez bir zamanda bu bəladan qurtulacağıq. Sizin "Biz birlikdə güclüyük!" çağırışınıza uşaqdan böyüyə hamımız qoşularaq hər zaman Sizə dəstək olmağa hazırıq. Bu günlərdə bütün dünyaya dövlətimizin güclü olduğunu sübut etdiniz. Buna görə biz Sizinlə fəxr edik. Cənab Prezident, ailə üzvlərimin və sinif yoldaşlarımın adından Sizə və Mehriban xanıma təşəkkür edir, Ramazan ayında Uca Allahdan Sizi və xalqımızı qorumasını arzu edirik".

Qubadlı rayon Ağsaqqallar Şurasının sədri Əvəz Həsənov: "Çox hörmətli cənab Prezident, Azərbaycan xalqı çox xoşbəxt xalqdır ki, qayğıkeşliyi, humanistliyi ilə örnək olan Sizin kimi Prezidenti var. Mən bir neçə dəfə Sizin ictimaiyyət nümayəndələri ilə görüşünüzdə olmuşam. Sizin qayğıkeşliyiniz, sadəliyiniz, insanlara verdiyiniz yüksək dəyər qəlbimdə böyük qürur hissi yaradıb. Bu gün dünyanı bürüyən koronavirus pandemiyası respublikamızdan da yan keçməyib. Hər gün dünyada yüzlərlə insan bu pandemiyanın qurbanı olur. Koronavirus pandemiyasına qarşı gördüyünüz qabaqlayıcı tədbirlər xalqımızı bu bəladan xilas etməkdədir. Karantin rejimi dövründə işləməyənlərə birdəfəlik yardımların verilməsi Sizin xalqımıza göstərdiyiniz qayğının növbəti nümunəsidir. Hörmətli cənab Prezident, Qubadlı rayonunun əhalisi Sizin daxili və xarici siyasətinizi dəstəkləyir və Sizin ətrafınızda sıx birləşib. Gördüyünüz işlərə görə rayonumuzun ağsaqqalları adından Sizə təşəkkürümü bildirir, Sizə və ailənizə uzun ömür, cansağlığı arzu edirəm. Allah Sizi və ailənizi qorusun!".

Mingəçevir şəhərindən Ruslan Rüstəmovun məktubunda deyilir: "Hörmətli cənab Prezident, Sizi Mingəçevir səhərindən salamlayıram. Dünyanı sarsıtmış koronavirus pandemiyasına qarşı ölkəmizdə görülən işlərə, xüsusən səhiyyəmizə və vətəndaşlarımızın sağlamlığına göstərilən diqqətə görə şəhərimizin sakinləri adından Sizə minnətdarlığımızı bildiririk. Siz gördüyünüz işlərlə və verdiyiniz qərarlarla hər zaman vətəndaşın yanında olduğunuzu bir daha sübut etdiniz. İnanırıq ki, doğma ölkəmizdə həyat yenidən öz axarına düşəcəkdir. Cənab Prezident, Sizin və Mehriban xanımın bu dar gündə xalqımıza verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Allah Təala Sizi və ailənizi qorusun! Amin! İnşallah, bu gözəl Ramazan ayında Azərbaycanımız gözəl əhval-ruhiyyədə olacaq".

Neftçala rayonunun sakini Fərhad Baxışov yazır: "Hörmətli cənab Prezident, koronavirus pandemiyası elə bir qlobal çağırışa səbəb oldu ki, dünya birliyinin bütün üzvlərini eyni amal uğrunda səmimi niyyətlə birləşməyə sövq etdi. Sizin rəhbərliyinizlə dövlətimiz tərəfindən pandemiyanın geniş yayılmasının qarşısını almaq üçün həyata keçirilən tədbirlər nümunəvi model kimi ixrac olunur. Dünyanın aparıcı dövlətləri virusla mübarizədə acizlik nümayiş etdirdikəri halda, Sizin ardıcıl və hesablanmış qərarlarınız sayəsində ölkəmiz infeksiyanın pik həddini geridə qoymuşdur. İnsanların sağlamlığının qorunması ilə yanaşı, iqtisadi fəallığın azaldığı və neftin qiymətinin kəskin düşdüyü halda əhalinin sosial rifahının gücləndirilməsi istiqamətində qəbul etdiyiniz qərarlar, verdiyiniz tapşırıqlar kiçikdən-böyüyə hər kəsin sevincinə səbəb olur. Bizim sağlamlığımızı, təhlükəsizliyimizi, maliyyə imkanlarımızı, bir sözlə, həyatımızı qoruduğunuz üçün sizə təşəkkür edirik. Bütün Azərbaycan xalqı Sizə inanır, arxayındır və minnətdardır".

Xocalıdan məcburi köçkün, şəhid övladı Seymur Çobanov: "Möhtərəm cənab Prezidentim, mən Xocalıdan məcburi köçkün, eyni zamanda, şəhid övladıyam. Dünyada gedən bu ağır, çətin proseslərdə hətta inkişaf etmiş dövlətlərin də aciz qaldığı bu dövrdə Sizin qətiyyətli, uzaqgörən siyasətiniz və öncədən gördüyünüz qətiyyətli tədbirlər nəticəsində dövlətimiz, xalqımız bu çətinlikdən də üzüağ və güclü çıxa bildi. Bunun üçün biz Sizə - öz müdrik Prezidentimizə borcluyuq. Yaxşı ki, varsınız və nə yaxşı ki, bizim, bu gözəl ölkəmizin rəhbərisiniz. Cənab Prezidentim, biz qarabağlılar, bütün xalqımız inanırıq ki, Sizin rəhbərliyinizlə tez bir zamanda erməni virusuna da qalib gələcəyik və doğma torpaqlarımızı düşməndən azad edəcəyik. Allah Sizi qorusun, qəlbən sevdiyimiz müdrik Prezidentimiz!".

Şəki şəhərindən Rəna Ağabəyli: "Möhtərəm cənab Prezident, artıq bir neçə aydır dünyanı lərzəyə gətirən koronavirus pandemiyasından minlərlə insan dünyasını dəyişib. Ayrı-ayrı ölkələrdə müşahidə olunan acınacaqlı vəziyyət insanı dəhşətə gətirir. Bu çətin vəziyyət ölkəmizdə də müşahidə oluna bilərdi, lakin Sizin uzaqgörənliyiniz və diqqətiniz sayəsində ölkəmiz İran, İtaliya, İspaniya kimi dövlətlərin vəziyyətinə düşməkdən xilas oldu. Məktəb və bir sıra müəssisələrin bağlanması, xüsusi karantin rejiminin tətbiq olunması, avtomobil yollarında hərəkətin məhdudiyyəti bu virusa yoluxmanın qarşısını almağa kömək etdi. Həmçinin tibb işçilərimizin, polis orqanlarında işləyən şəxslərin ayıq-sayıqlığı nəticəsində ölkəmizdə vəziyyət nəzarət altındadır. Hörmətli Cənab Prezident, bu çətin dövrdə Sizin və Mehriban xanım Əliyevanın bir illik əməkhaqqınızı pandemiya ilə mübarizə tədbirləri üçün yaradılmış fonda bağışlamağınız, minlərlə işsiz ailə üçün birdəfəlik yardımların göstərilməsi ilə bağlı sərəncamlarınız çox təqdirəlayiqdir. Bununla Siz ölkə əhalisinin qayğısına qaldığınızı bir daha sübut etdiniz. Bu xalq Sizə və Mehriban xanıma çox güvənir, çox inam bəsləyir. Əmin olun ki, biz həmişə Sizinləyik və Sizə daim minnətdarıq".

Yevlax rayonunun sakini Fərid Vaqifli: "Hörmətli cənab Prezident, bu məktubu Sizin məqsədyönlü siyasi xəttinizi özünə məktəb bilən gənclərin adından yazıram. Bütün dünyanı bürümüş koronavirus Azərbaycandan da yan keçmədi. Lakin güclü dövlətlərin böyük insan təlafatı ilə üzləşdiyi halda Sizin sayənizdə ölkəmiz az itki ilə pandemiyadan qurtulmaq üzrədir. Məhz Sizin ciddi tapşırıq və nəzarətiniz virusun ölkəmizdə geniş yayılmasının qarşısını aldı. Epidemiyanın sürətlə yayıldığı ölkələrdə yaşayan və təhsil alan vətəndaşlarımızı çarəsiz vəziyyətdən məhz Sizin xeyirxahlığınız çıxardı. Qısa zaman kəsiyində ölkəmizdə tibbi maska istehsalının təşkili də Sizin əzmkarlığınız sayəsində oldu. Xəstələrin bütün ehtiyacı dövlət tərəfindən ödənildi. Xalqımız bir daha əmin oldu ki, seçimində yanılmayıb. Sizin kimi yüksək idarəçilik qabiliyyətinə malik, Azərbaycan vətəndaşının rifahını hər şeydən üstün tutan bir rəhbərlə biz bütün çətinliklərin öhdəsindən gələrik. Cənab Prezident, Siz biz gənclərin idealısınız. Biz Sizin yaratdığınız məktəbin tələbələriyik və bununla fəxr edirik. Allah Sizi qorusun!".

Şamaxı şəhərinin 81 yaşlı sakini Almas Baloğlanova: "Hörmətli Prezidentim, bir ağbirçək ana kimi Sizə və Mehriban xanıma şəxsən öz adımdan və ailəmin adımdan dərin minnətdarlığımı bildirirəm. Siz artıq Azərbaycan xalqının ümid yeri, pənah gətirdiyi insansınız. Şükürlər olsun ki, uzaqgörənliklə başlatdığınız və birbaşa rəhbərliyinizlə həyata keçirilən tədbirlər nəticəsində pandemiya ölkəmiz üçün faciəvi nəticələrə gətirib çıxarmadı. Mən - ağbirçək bir ana hər dəfə namaz qılanda Sizə saatlarla dualar edirəm. Allah Sizə bu məsuliyyətli işlərinizdə kömək olsun. Siz 600 min ailəyə 190 manat birdəfəlik ödənişin edilməsi ilə bağlı göstəriş vermisiniz. Sizin xalqımıza göstərdiyiniz qayğılar nəticəsində mənim kimi ahıl şəxslər də sosial qayğı ilə hərtərəfli təmin olunurlar. Mən SSRİ dövrünü və ondan sonrakı - ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməmişdən qabaqkı dövrləri yaxşı xatırlayıram. O zamanlar pensiyanın, verilən bütün sosial ödənişlərin su, qaz, işıq kimi kommunal xidmətlərə yetmədiyinin şahidi olmuşam. Hazırda isə yaşa görə verilən təqaüd həm qaz, işıq, su kimi kommu-

# "Azərbaycan xalqı çox xoşbəxt xalqdır ki, qayğıkeşliyi, humanistliyi ilə örnək olan Sizin kimi Prezidenti var"

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir*

nal xidmətlərdən istifadə üçün, həm də rifahımız üçün yetərlidir. Biz yaşlı nəslə dəstəyinizi daha aydın görür, öz növbəmizdə, Sizin siyasətinizi alqışlayırıq. Mən 81 yaşlı ağbirçək ana olaraq Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycan xalqı Sizinlə fəxr edir".

Qubadlı rayonundan Fuad Bədəlov: "Möhtərəm cənab Prezident, dünyanı bürüyən koronavirus pandemiyasına qarşı mübarizə sahəsində vətəndaşların sağlamlığını düşünərək görülən tədbirlərin yüksək səviyyədə təşkilinə görə bir təhsil işçisi kimi Sizə öz minnətdarlığımı bildirirəm. Sizin vətənpərvərliyiniz hər birimiz üçün nümunədir. Siyasətinizin əsasını həmişə vətəndaş amili, xalqa, dövlətə yorulmadan göstərdiyiniz xidmət təşkil edir. Bu yolda Sizə uğurlar arzulayıram. Cənab Prezident, qeyd etmək istəyirəm ki, Sizin "Biz birlikdə güclüyük!" şüarınıza sadiq olaraq biz hər zaman Sizinləyik. Allah Sizi qorusun!".

Gəncə şəhərinin Hacıkənd qəsəbəsindən şəhid bacısı Rəfiqə Qurbanova: "Hörmətli cənab Prezident, Sizə bütün şəhid bacılarının adından təşəkkürümü bildirirəm. Siz Azərbaycan xalqına böyük qayğı göstərirsiniz. Bizim qardaşlarımız Vətən yolunda şəhid olublar, lakin biz özümüzü qardaşsız, arxasız hiss etmirik. Çünki Sizin diqqətinizlə, qayğınızla əhatə olunmuşuq. Qəsəbəmizdə yaşayan aztəminatlı ailələr bu günlərdə yardımlarla təmin olunurlar. Onlar bir daha əmin oldular ki, dövlətimiz hər an onları düşünür. Ailə üzvlərimin adından Sizə dərin təşəkkürümü bildirirəm. Dualarımız Sizinlədir".

Salyan rayonundan Nilufər Bəşirova: "Hörmətli cənab Prezidentimiz, mən bu məktubu yazmağı bir vətəndaş olaraq özümə borc bildim. Bu gün dünyanın 200-dən çox ölkəsində yayılan COVID-19 pandemiyası ilə üz-üzə qalan Azərbaycan digər ölkələrlə müqayisədə çox az itki vermişdir. Bu Sizin vaxtında Nazirlər Kabinetinə verdiyiniz qabaqlayıcı göstəriş və gördüyünüz tədbirlərin sayəsində mümkün olmuşdur. Sərhəd-keçid məntəqələrində gücləndirilmiş iş rejimi, səhiyyə ocaqlarındakı qaynar xətlər, virusla bağlı maarifləndirmə işləri xalqımızı nə qədər düşündüyünüzün bariz nümunəsidir. Sosial rifahın inkişafı üçün maddi dəstəyiniz əvəzolunmazdır. Karantin rejimi əvvəl hamıda çaşqınlıq yaratsa da, bu gün hamı bu addımın nə qədər doğru qərar olduğunu anlayır. Xalqına daim arxa, dayaq olan bir Prezidentin olması qürurvericidir. Belə çətin günlərdə maddi və mənəvi dəstəyiniz üçün mən şəxsən öz adımdan və işlədiyim Salyan rayon Arbatan kənd tam orta məktəbinin kollektivi adından Sizə dərin minnətdarlığımı bildirirəm. Birliyimiz və Sizin uğurlu fəaliyyətiniz daimi olsun. Sizi sevirik".

Samux rayonundan şəhid atası İlyas Ləzgiyev, Qarabağ müharibəsi əlili Səfər Hüseynov, 1-ci qrup əlil Bayram Məmmədov, əmək veteranı Ədalət Yusifova və Xurşid İbrahimova yazırlar: "Hörmətli cənab Prezident, Azərbaycan Prezidenti kimi ölkəmizin bütün sahələrdə inkişafı, xalqımızın sağlam və gümrah olması üçün böyük işlər görürsünüz. Siz və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva ölkəmizdə yeni məktəblərin, uşaq bağçalarının tikilməsinə böyük diqqət göstərirsiniz. Siz gördüyünüz işlərlə bütün Azərbaycan xalqı kimi, Samux rayonunun Sərkar kəndinin ağsaqqallarının və ziyalılarının da rəğbətini qazanmısınız. Bu yaxınlarda 6 minə yaxın əhalisi olan Sərkar kəndində Heydər Əliyev Fondunun təşəbbüsü ilə üçmərtəbəli, 800 yerlik məktəb binasının və 100 yerlik uşaq bağçasının tikintisinə başlanılması sakinlərin böyük sevincinə səbəb oldu. Siz dünyanı bürüyən koronavirus bəlasından xalqımızı xilas etmək və onun sağlamlığını qorumaq üçün gecə-gündüz çalışırsınız. Bu günlərdə Sizin və Mehriban xanımın kəndimizdə imkansız ailələrə, əlillərə, qocalara, şəhid və Qarabağ müharibəsi əlillərinin ailələrinə etdiyiniz bu yardımlara görə Sizə minnətdarlığımızı bildiririk. Əminik ki, bizim sağlamlığımızın keşiyində müdrik və uzaqgörən Prezidentimiz dayanır. Ulu Tanrı Sizi və Mehriban xanımı qorusun!".

Bakının Pirallahı rayonunun sakini Sevda Alxasova: "Möhtərəm və dəyərli Prezidentimiz, əvvəlcə onu deyim ki, ailəmin və yaşadığım Pirallahı rayonu 168 saylı məktəbin müəllim kollektivinin Sizə və ailənizə bu müqəddəs Ramazan ayında duaları var. Pandemiyanın ilk vaxtlarında çox təlaşlı günlər yaşadım. Ermənilərin Qarabağda Şuşa və Laçını işğal edərkən Alazan tipli raketlərlə evlərimizi bombaladığının şahidi olmuşam. Körpələrimi götürüb evimizin zirzəmisində qalmışam, ancaq qorxmamışam. Bu gözəgörünməz düşməndən çox qorxdum. Televizorda xəbərləri izləyəndə Sizin çox möhtəşəm, inamlı və qürurverici nitqiniz, dəyərli Birinci vitse-prezidentimiz Mehriban xanımın müraciəti mənə bir ümid, təsəlli oldu. "Uca Allahımıza şükür olsun!", - deyərək əmin oldum ki, ölkəmizin taleyi etibarlı əllərdədir. Ulu Öndərimizin yaratdığı müasir müstəqil Azərbaycan onun şah əsəridir. Siz isə bu şah əsərin növbəti layiqli səhifələrini yazan ədalətli, mətin və mübarizələrdən qalib çıxmağı bacaran lidersiniz. Cənab Prezident, Siz hadisələri gecə-gündüz nəzarətdə saxlamaqla, lazımi tapşırıqlar verməklə bu bəlanın təsirlərini minimuma endirə bildiniz və hər bir vətəndaşınızın yanında olmağı bacardınız. Mən və eləcə də mənim kimi minlərlə insan Sizin bu xeyirxah əməllərinizin canlı şahidləriyik. Bütün bunları saymaqla bitirmək, bir məktuba sığdırmaq mümkün deyil. Bu gün dünyaya meydan oxuyan pandemiya göydə Uca Allahımızın, yerdə Sizin sayənizdə Azərbaycanda tüğyan edə bilmədi. Nə yaxşı ki, varsınız...Allah Sizi və ailənizi, Azərbaycanımızı qorusun!".

Salyan rayonundan həkim Tehran Ağabəyova: "Çox hörmətli cənab Prezident, ölkəmizin koronavirus pandemiyası ilə üz-üzə olduğu bir dövrdə Sizin uzaqgörən siyasətiniz və verdiyiniz qərarlar nəticəsində dövlətimiz bu sınağın da öhdəsindən məharətlə gəlməkdədir. Bütün dünya ölkələrindəki kimi, bizim səhiyyəmiz də hazırda çətin bir sınaqla üz-üzə qalmışdır. Bu sınaqdan ən yaxşı şəkildə, uğurla çıxmaq üçün ölkəmizin bütün tibb işçiləri səfərbər olmuşlar. Mən bir həkim kimi məsuliyyətimi dərk edərək ailəmi və iki azyaşlı övladımı evdə qoyaraq xəstələrimizi müalicə etmək məqsədilə Astara rayon Mərkəzi Xəstəxanasına ezam olundum. Sizin göstərişinizlə koronavirus xəstələrinə ən yüksək xidmətin göstərilməsi üçün yüksək təchizatla təmin olunmuş xəstəxanada yaradılan şəraitin, göstərilən diqqət və qayğının şahidi oldum. Bütün bu gördüklərim dövlətimi, xalqımı, Prezidentimi sevən bir həkim kimi mənə mənəvi güc verdi. Bu çətin dövrdə Sizin də yanımızda olmağınız, bizə dəstək verməyiniz, çıxışlarınızla, müraciətlərinizlə, mükafatlarınızla səhiyyə işçilərimizi dəyərləndirməyiniz bizim ruh yüksəkliyimiz üçün ən böyük amildir. Əziz Prezidentimiz, ölkə vətəndaşlarının sağlamlığının qorunması naminə gördüyünüz işlərə görə bir həkim kimi Sizə təşəkkür edir, müstəqil Azərbaycanımızın daha da çiçəklənməsi uğrunda gələcək işlərinizdə yeni nailiyyətlər arzulayıram".

Yardımlı rayonundan Tarverdi Tarverdiyev: "Hörmətli cənab Prezident, mən fəxr edirəm ki, azərbaycanlıyam, müstəqil dövlətim var və dövlətimin də rəhbəri cənab İlham Əliyevdir. Bir ziyalı kimi yaşadığım ərazinin əhalisi adından Sizə təşəkkür edir və minnətdarlığımızı bildirirəm. Son hadisələrdə bir daha sübut etdiniz ki, doğrudan da hər bir vətəndaşın Prezidentisiniz və daim onların qayğısına qalırsınız. Ona görə də icazə verin ki, Sizi xalqımızın qayğıkeş Prezidenti adlandırım və bir daha təşəkkürümü bildirim".

Qobustan rayonunun sakini Əlisəfa Cəbiyev: "Möhtərəm cənab Prezident, biz uzun illərdir ki, Sizin Azərbaycan xalqının rifahı naminə ardıcıl olaraq həyata keçirdiyiniz tədbirlərin, gördüyünüz işlərin uğurlu nəticələrinin şahidiyik. Sizin çevik və məqsədyönlü siyasətiniz nəticəsində Azərbaycan dünya birliyində söz sahibinə çevrilmişdir. Dünyanı cənginə almış koronavirus pandemiyasının bir sıra böyük dövlətləri iflic vəziyyətinə saldığı göz qabağındadır. Cənab Prezident, Sizin xalqımızı bu bəladan qorumaq üçün həyata keçirdiyiniz çoxşaxəli qabaqlayıcı tədbirlər öz bəhrəsini verir, ölkəmizdə bu dəhşətli virusa yoluxma hallarının məhdudlaşdırılmasına etibarlı təminat yaradır. Xalqımız bu həssas vaxtda hər bir insana qarşı qayğınızı hiss edir və dəyərləndirir. Hörmətli cənab Prezident, dünyada müxtəlif vaxtlarda baş verən iqtisadi böhranlar Sizin müdrik siyasətiniz nəticəsində Azərbaycanımıza təsirsiz olmuşdur. İnanırıq ki, Siz uzaqgörən siyasətinizlə xalqımızı çətin imtahan olan koronavirus bəlasından da uğurla çıxaracaqsınız. Azərbaycan xalqının rifahı naminə sərf etdiyiniz gərgin əməyə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Ulu Tanrı Sizə yar olsun. Biz Sizinlə güclüyük!".

Bakıdan professor Dilqəm Quliyev yazır: "Hörmətli cənab Prezident, koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə həyata keçirdiyiniz qabaqlayıcı tədbirlərə, əhalinin sağlamlığının qorunması üçün gördüyünüz işlərə görə Sizə minnətdarlığımı bildirirəm. Siz çıxışlarınızın birində dediniz: "Burada biz iki amil arasında seçim etməliyik - iqtisadi fəallıq, insanların sağlamlığı. Mənim seçimim birmənalıdır - insanların sağlamlığı". Məhz bu seçiminiz bütün xalqımızı ruhlandırdı. Bu infeksiyanın sərhədlərimizə çatdığı ilk gündən Sizin təşəbbüsünüzlə Nazirlər Kabineti yanında Operativ Qərargah və Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. Ölkəmizdə qısa müddətdə tibbi maska istehsalı müəssisəsi açıldı. Azərbaycanda koronavirusla mübarizədə işsiz şəxslərə 190 manat birdəfəlik ödəmənin verilməsi, əhalinin həssas qrupuna aid tələbələrin təhsil haqqının dövlət hesabına ödənilməsi, tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə maaşının 3-5 mislinədək miqdarda müddətli əlavənin müəyyən edilməsi və digər tədbirlər bütün xalqımız tərəfindən bəyənilir. Həmçinin Sizin hər kəsə göstərdiyiniz diqqət və qayğı insanları ürəkləndirir və Sizin hər bir vətəndaşın Prezidenti olduğunuzu bir daha sübut edir. Möhtərəm cənab Prezident, zaman göstərdi ki, əgər Siz vaxtında bu tədbirləri görməsəydiniz, indi bizi ölkəmizdə vəziyyət daha çətin ola bilərdi. Bu çətin günlərdə xalqa dəstək olduğunuza görə Sizə minnətdarlığımı bildirirəm. Xalqımız bir daha əmin oldu ki, dövlətimiz etibarlı əllərdədir. Biz ziyalılar da çağırışlarınıza qoşularaq evdə qalır, əmin olduğumuzu bildiririk ki, inşallah, xalqımız Sizin rəhbərliyinizlə bu sınaqdan da zəfərlə çıxacaq. Siz "Biz birlikdə güclüyük!" deyirsiniz, biz isə "Biz Sizinlə güclüyük!" deyirik. Xalqımızın fıravanlığı üçün yorulmadan çalışdığına görə Sizin ən yaxın silahdaşınız Mehriban xanım Əliyevaya da təşəkkür edirik".

Bakının Səbail rayonunun sakini Ruslan Abışov: "Möhtərəm cənab Prezident, mən "Azneft" İB-nin Bibiheybət Neft və Qazçıxarma İdarəsində çalışıram. Hazırda bütün dünyada koronavirusla mübarizə getdiyi bir vaxtda Sizin zamanında verdiyiniz müdrik və mühüm qərarlar, qabaqlayıcı tədbirlər və onların nəticəsi göz önündədir. Ulu öndər Heydər Əliyev demişdir: "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır". Bu şüara sadiq qalan neftçilər, səbirlə, fədakarlıqla sağlamlığımızın keşiyində dayanan həkimlər, asayişi qoruyan polislər günümüzün qəhrəmanına çevrildilər. Amma belə bir zamanda biz neftçilərə ən gözəl örnək, ən xeyirxah insan Siz oldunuz. Siz bu gün hər birimizə vətənpərvərlik, xeyirxahlıq, birlik, bərabərlik dərsi keçdiniz. Siz öz çıxışlarınızda daim vurğulayırsınız: "Gərək hər birimizin nəbzi Vətənin nəbzi ilə birgə vursun". Bu ağır günlərdə də Sizin nəbziniz Vətənin və Vətən övladının nəbzi ilə bir vurdu. Əziz Prezidentimiz, biz əminik ki, Allahın köməyi, xalqımızın dəstəyi ilə bu ağır sınaqdan daha güclü və üzüağ şəkildə çıxacağıq. Çünki biz birlikdə güclüyük. Bu birlik Azərbaycanı zirvədən-zirvəyə aparıb, aparır və aparacaq".

Qaxın Cəlayir kəndinin sakini İmam Rəşidli: "Hörmətli cənab Prezident, Siz bu çətin günlərdə diqqət və qayğınızı bizdən əsirgəmədiniz. İnşallah, koronavirus bəlası bütün Azərbaycan xalqının başı üzərindən çəkilər. Mən buna tam inanıram. Çünki Sizin uğurlu və uzaqgörən siyasətiniz, gördüyünüz tədbirlər bunu deməyə əsas verir. Əziz Prezidentimiz, Allah Sizə və ailənizə uzun ömür, möhkəm cansağlığı versin. Xalqımıza olan diqqətinizə görə Sizə təşəkkür edirəm. Allah amanında olasınız!".

# Ankoloji xəstələr COVİD-19-dan necə qorunmalıdır?



***Y**eni növ koronavirus (COVİD-19) epidemiyası xərçəng xəstələri üçün böyük risk yaradır. Mütəxəssislərin fikrincə, hazırki dönəmdə xərçəng xəstələrinin virusa yoluxmamaq üçün daha çox qorunması əsas şərtlərdən biridir. Belə xəstələrin virusa yoluxduqları zamanı necə müalicə ediləcəyi və onkoloji prosesin davam edib-etməməsi isə həkimlərindən asılıdır. Tibbi onkoloji mütəxəssis Orxan Türken xərçəng xəstələrinin hazırki dönəmdə fikir verəcəyi məqamları və virusa yoluxduqları zamanı atacağı addımları açıqlayıb.*

SİA-nın xəbərinə görə, türkiyəli mütəxəssis söyləyib ki, qorunma və təcrid tədbirlərinə əməl edilmədiyi təqdirdə bütün xərçəng xəstələri üçün infeksiyaya tutulma riski çox yüksəkdir.

Onun sözlərinə görə, yaşlı və aktiv xərçəng xəstəliyi ilə yanaşı, yüksək təzyiq, şəkərli diabet, xroniki ağciyər və digər bu kimi xəstəlikləri olan şəxslərin də koronavirusa yoluxması acı nəticələr verə bilər: "Ağciyər xərçəngi və ya tənəffüs problemi infeksiyanın qısa müddət ərzində daha da ağırlaşmasına şərait yaradır. Sümük və digər kök hüceyrə köçürmə əməliyyatları keçirən və ağır müalicə alan insanlarda isə qan dəyərləri aşağı olduğundan onların infeksiyaya qarşı daha həssas olması belə xəstələrin tez bir zamanda COVİD-19-a yoluxması və daha ağır şəkildə keçirməsinə şərait yaradır".

O bildirib ki, həkim məsləhəti ilə xərçəng xəstəliyindən müalicə olunan, xüsusilə də tənəffüs problemləri olan xəstələr, sətəlcəm və ya qrip infeksiyalarına qarşı peyvənd edilə bilərlər: "Onkoloji müalicələr özünütəcrid tədbirləri zamanı da davam etdirilməlidir. Lakin belə şəraitdə müalicələr xəstələrin xəstəxanaya gəlməsini minimuma endirməklə faydalı şəkildə qurulmalıdır. Hazırki məqamda xərçəng xəstələri xəbərdarlıqlara daha çox riayət etməli, qaydalara ciddi əməl etməlidirlər".

Orxan Türken qeyd edib ki, mümkün olduğu təqdirdə hazırki dönəmdə kimya və ya radioterapiya kimi müalicə üsulları təxirə salınmalıdır: " Əgər belə xəstələr koronavirusa yoluxarsa, o zaman kifayət qədər kalorili, zülal, vitamin və minerallarla zəngin qidalanma ilə müalicə üsulu seçmək olar. Gündə 3-5 dəfə tərəvəz və meyvə, həftədə 1-2 dəfə balıq və bol maye istehlak edilməlidir. C və D vitaminləri, selenium və sink kimi elementlər immunitet sistemi üçün faydalıdır. Yuyulmadan və yaxşı bişmədən yeyilən tərəvəz və meyvələr həzm sistemində infeksiya mənbəyi ola bilər. Bu səbəbdən evdən kənarda istehlak edilən qidalar və içkilərdə təmizliyə diqqət yetirilməlidir və yaxşı təmizlənməmiş qidalardan istifadə edilməməlidir".

***Nailə Məhərrəmova***

## "Vətəndaşlarımızın minnətdarlıq məktubları onların səmimi hisslərinin ifadəsidir"

***"S**on günlərdə sadə vətəndaşlarımız tərəfindən cənab Prezidentə minnətdarlıq məktubları gəlməkdə davam edir. İnsanlar öz Prezidentlərinə, dövlətin başında duran insana təşəkkürlərini, öz səmimi hisslərini ifadə edirlər. Fikirləşirəm ki, vətəndaşlarımız tərəfindən Prezidentə göndərilən minnətdarlıq məktubları onların səmimi hisslərinin ifadəsidir". Bunu SİA-ya Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru, İlqar Orucov deyib.*



Sədrin sözlərinə görə, ölkə vətəndaşları fərqindədirlər ki, onların seçdiyi dövlət rəhbəri çətin dövrlərdə, günlərdə hər zaman öz xalqına ləyaqətlə xidmət etməyi bacardı və hazırda da bu xidməti cənab Prezident davam etdirir: "Dövlət başçımız çətin günlərdə ölkənin bu qədər iqtisadi itkiləri olduğu halda bütün dünyanı cənginə alan pandemiya ilə mübarizə tədbirlərində yalnız və yalnız Azərbaycan insanının sağlamlığını, rifahını düşündü. Azərbaycan insanının bu proseslərdən itkisi çıxması və zərər görməməsi üçün öz iradəsini, bacarığını ortaya qoydu. Pandemiya ərəfəsində ölkə başçımızın insanlarla görüşlərində, təmaslarında, müxtəlif KİV-lərə müsahibələrində, müxtəlif açılışlarda, müraciətlərində yalnız və yalnız ana xətti o təşkil etdi ki, dövlət vətəndaşın, insanların yanındadır. Hər bir Azərbaycan vətəndaşı öz arxasında güclü, qüdrətli Azərbaycan dövlətini görə biləcək. İnsanlardan yalnız bir xahiş oldu ki, evdə qalsınlar və karantin rejiminin tələblərinə əməl etsinlər.

Növbəti günlərdə də ölkə başçısı, Nazirlər Kabineti, dövlətin aidiyyatı qurumları tərəfindən insanlara yönəlik xeyli sayda sosial addımlara atıldı, sosial paketlər ortaya qoyuldu. Cənab Prezident yaşa görə təqaüd alan insanların qayğısını təmin etdi, işsizlərə münasibətini ortaya qoydu. Həmçinin sosial təqaüd alanlara, ailə başçılarını itirmiş ailələrə, əlillərə, fiziki qüsurunu itirmiş insanlara qarşı münasibətini ortaya qoydu. Yəni cəmiyyətin elə bir təbəqəsi olmadı ki, Prezidentimiz orada insanları düşünməsin. Xüsusilə pandemiya dövründə gərgin şəraitdə çalışan, sağlamlıqlarını təhlükəyə qoyaraq insanların keşiyində dayanan həkimlərin əməyini stimullaşdırmaq istiqamətində işləri ortaya qoydu. Bütün bunları Azərbaycan insanı görür və dəyərləndirir".

***Ceyhun Rasimoğlu***

## "Yumlaşmadan istifadə edib özümüzdə arxayınlıq yaratmamalıyıq"



***"P**rezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən və ciddi əhəmiyyət kəsb edən tədbirlər Azərbaycanı bəşəriyyəti bürüyən koronavirus bəlasından az itki verməklə sığortalaya bilir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Fəzail Ağamalı deyib.*

Son statistik məlumatların ümidverici olduğunu deyən deputat söyləyib ki, Azərbaycanda koronavirusa yoluxanların və ölənlərin sayının az olması fonunda sağalanların sayının çoxalması nikbinlik doğurur: "Böhran zamanı, fors-major vəziyyətlərində hər bir dövlət başçısının liderlik keyfiyyətləri özünü göstərir. Bu baxımdan Prezident İlham Əliyev bütün çətin vəziyyətlərdə olduğu kimi pandemiya ilə mübarizədə də özünün potensialını, istedadını və səfərbəredici idarəetmə imkanlarını yüksək səviyyədə nümayiş etdirdi. Həyata keçirilən tədbirlər müəyyən yumşaldıcı tədbirlərin reallaşmasına şərait yaratdı".

O bildirib ki, yumlaşdıcı tədbirlər pandemiyanın tamamilə sovuşduğu anlamına gəlməməlidir: "Dünya miqyasında koronavirusla bağlı gedən prosesləri izləyərkən bir daha əmin oluruq ki, virusla ehtiyatla davranmaq lazımdır. Hətta bəzi ölkələrdə virusla bağlı ikinci dalğanın başladığı da deyilir. Bu baxımdan bizim arxayın olmağa əsasımız yoxdur. Hər bir Azərbaycan vətəndaşı ölkədə tətbiq olunan qaydalara ciddi şəkildə fikir verməli və əməl etməlidir".

F.Ağamalı qeyd edib ki, hər kəs Nazirlər Kabineti yanında Operativ Qərargahın vermiş olduğu tövsiyələri tərəddüd etmədən həyata keçirməlidir: "Yaxınlarımızı, xalqımızın ayrı-ayrı təbəqələrini qorumaq hər birimizin vətəndaşlıq borcudur. Ehtiyac olmadan küçəyə çıxmaq lazım deyil. Verilən təlimatlara uyğun hərəkət etməliyik. Hər kəs anlamlıdır ki, bəladan qorunmağın yeganə üsulu sosial təcrid, gigiyenik qaydalara əməl etməkdir. Ona görə də, yumlaşmadan istifadə edərək özümüzdə arxayınlıq yaratmamalıyıq. Yalnız belə halda biz bu bəladan az itki ilə tam şəkildə canımızı qurtara bilərik".

## "Vergi güzəştlərinin sahibkarlara çox böyük faydası olacaq"



"**V**ergi güzəştlərinin verilməsində mənfəət vergisindən 75 faiz güzəşt nəzərdə tutulub. Bu böyük bir güzəştdir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadi məsələlər üzrə ekspert Natiq Cəfərli ölkədə pandemiyadan zərər görmüş fəaliyyət sahələrinə vergi güzəştlərinin tətbiq edilməsi ilə bağlı danışarkən deyib. O bildirib ki, vergi güzəştlərinin edilməsi sahibkarlara çox böyük faydası olacaq, hətta, bəzi vergilərdən sahibkarların yanvar ayının 1-nə qədər ümumiyyətlə azad olunması nəzərdə tutulub: "Karantin dövründən sonra da qapalı olan sahələrin, hansılar ki, vergi güzəştləri ən çox bu sahələr üçün nəzərdə tutulub, bura turizm, ictimai iaşə, nəqliyyat sərnişin daşınması, rayonlararası və ölkələrarası sərnişin daşınması ilə məşğul olan firmalara əsasən güzəştlər tətbiq olunur. Onların işlərinin post-karantin dövründə belə əvvəlki vəziyyətə qaytarılması mümkündür. Hətta mən düşünürəm ki, karantindən çıxış da addım-addım, mərhələ-mərhələ olacaq. Ola bilər ki, ictimai iaşə obyektlərinin işləməyə başlaması bir neçə həftə uzadılsın və onların işə başlaması yay aylarına təsadüf etsin.

Vergi güzəştlərinin verilməsində isə mənfəət vergisindən 75 faiz güzəşt nəzərdə tutulub. Bu böyük bir güzəştdir. Təbii ki, mənfəət gərək olsun ki, oradan vergi də götürülsün. Çünki, bəzi şirkətlərin mənfəəti ümumiyyətlə olmayacaq. Kiçik və orta sahibkarlıq strukturları bu ili ziyanla başa vuracaq. Bu zaman onların mənfəətləri də olmayacaq. Mənfəəti olmayan şirkətləri mənfəət vergisindən də azad etmək olardı".

## "İnsanların sağlamlığı hər şeydən üstündür"



"Ümumiyyətlə karantin rejimi əbədi davam edə bilməz. Bu ölkədə iqtisadi vəziyyətə pis təsir edəcək. Digər tərəfdən bu insanların psixologiyasına ciddi təsir edə bilər və müxtəlif başqa xəstəliklərin yaranmasına səbəb ola bilər. Ona görə də mümkün qədər karantin rejimindən tez çıxmaq lazımdır. Amma bunu da indiki vəziyyətdə etmək çox risklidir". Bunu SİA-ya siyasi şərhçi Azər Həsrət deyib.

Onun sözlərinə görə, koronovirusla mübarizə hələ bitməyib və proqnozlaşdırılması çətindir: "Ona görə də tələsmək olmaz. Bu baxımdan Azərbaycanda dünyanın hər bir ölkəsində olduğu kimi mərhələli şəkildə karantin rejimindən çıxmaq üçün addımlar atılır. İndiki mərhələdə yündülləşdirmə tətbiq olunur. Təbii ki, bu da başa düşüləndir və məqbuldur. Düşünürəm ki, insanların sağlamlığı hər şeydən üstündür. Digər tərəfdən də insanların gündəlik keçimini təmin etməsi, eləcə də öz təsərrüfatlarını, bizneslərini inkişaf etdirməsi, irəli aparması vacibdir. O baxımdan çox düzgün qərarlar qəbul edilib ki, mərhələli şəkildə müxtəlif sahələrdə fəaliyyət bərpa edilsin. Hər halda Azərbaycan dövlətinin müvafiq qurumları, eləcə də cənab Prezidentin özü hər şeyi ciddi şəkildə ölçüb-biçir. Bu mərhələyə qədər biz deyə bilərik ki, həqiqətən də Azərbaycan olduqca uyğun bir rejim tətbiq etməklə həm yoluxanların sayının azalmasını, həm ölənlərin sayının minimumda saxlanılmasını təmin etdi, həm də digər tərəfdən vətəndaşların ümumilikdə sağlamlığının qorunmasına nail ola bildi. Ona görə də bu cür davam etmək ən uyğun variantdır".

## Koronavirus peyvəndi üçün tarix təyin edildi

Dünyanın ən varlı insanlarından biri olan Bill Geyts CNN-də Fareed Zakarianın GPS proqramında koronavirusla bağlı açıqlama verib. SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, Geyts öz açıqlamasında bildirib ki, hər şey mükəmməl davam edərsə, bir ildən sonra kütləvi peyvənd istehsalına başlaya bilərik. Lakin bu iki il də çəkə bilər.

O vurğulayıb ki, hazırda 100-dən artıq aşkarlanan vaksin üzərində çalışmalar davam etdirilir. İçlərində ən perspektivlisini seçib mənbələri köçürmək lazımdır. Eyni zamanda istehsal gücümüzü də artırmalıyıq. Bill Geyts dekabr ayına qədər peyvəndin tapıla biləcəyi iddialarını təkzib edib.

# “Avropa Şurası ermənipərəst mövqeyini gizlədə bilmir”

***“Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktı ilə heç bir zaman barışmayıb, barışmayacaq da. Bunu dövlətimizin başçısı cənab İlham Əliyev dəfələrlə bəyan edib. Təəssüf ki, zamanla Azərbaycanın hərbi gücünün nəyə qadir olduğunu görsə də, rəsmi Ermənistan sərsəm addımlar atmaqdan çəkinmir, siyasi şoularla dünyanın onsuz da qaynar olan gündəminə soxulmağa can atır. Belə şoulardan birini isə 31 mart və 14 aprel tarixlərində Azərbaycanın işğal altında olan torpaqlarında-qondarma “Dağlıq Qarabağ Respublikadında “qondarma “prezident seçkiləri” keçirməklə göstərdi. O Dağlıq Qarabağda ki, onun Azərbaycanın ayrılmaz tərkib hissəsi olması beynəlxalq aləmdə birmənalı şəkildə qəbul edilib”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü İlham Məmmədov deyib.***



Onun sözlərinə görə, bəs bu addımı ilə Azərbaycana meydan oxuyurmuş kimi görünməyə çalışan Ermənistan əslində hansı duruma düşüb? “Cənab Prezident 2020-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə bunu çox aydın şəkildə ifadə edib: “Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vurulub. Bu zərbəni, əslində, onlar özləri özlərinə vurublar. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla yaranmış əlaqələr bu zərbəni daha da gücləndirib. Söhbət qondarma “Dağlıq Qarabağ respublikası”nda keçirilmiş qondarma “prezident”in qondarma “seçkiləri”ndən gedir. Bu “seçkilər” bir daha göstərib ki, bu qanunsuz xunta rejimini heç kim tanımır. “Seçkilər”dən sonra bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri tanımayıb və açıq-aydın bəyanatlar səslənib”. Bəli, Ermənistan özü özünə zərbə vurub. Bu “seçkilərlə” beynəlxalq hüquqa zidd hərəkət etməklə, regionda sülhə və inkişafa ziyan vurmaqla. Düşmən ölkə eyni zamanda bütün dünyaya göstərib ki, o, sülh tərəfdarı deyil, indiyədək Azərbaycan-Ermənistan münaqişəsinin danışıqlar yolu ilə həlli ilə bağlı keçirilən görüşlərdə iştirakı imitasiyadan başqa bir şey deyil. Burda ən diqqətçəkən məqam beynəlxalq aləmin bu seçki şousuna reaksiyasıdır. Bu reaksiyalar eyni zamanda İlham Əliyevin apardığı uğurlu xarici siyasətin nəticəsi idi. Heç bir ölkə və beynəlxalq təşkilat qondarma”seçkiləri” tanımayıb. Başqa cür də olmaya bilməzdi. Necə deyərlər, ağılın yolu birdir. Hər kəs, haqlı olaraq, Ermənistanın güc yolu ilə işğal etdiyi ərazidə belə bir addımını beynəlxalq hüquqa, insan haqlarına, dövlətlərin ərazi bütövlüyünə, mehriban qonşuluq və dostluq prinsiplərinə əks olduğunu bəyan edib”.

Deputat bildirib ki, Avropa İttifaqı, ATƏT, NATO, İslam Əməkdaşlıq Təşkilatı və digər mötəbər təşkilatlar qondarma “seçkilərdən” dərhal sonra Ermənistana etirazlarını bildiriblər: “Türkiyə, Böyük Britaniya, Estoniya, Latviya, Moldova, Serbiya, Almaniya, İtaliya, Ukrayna, Gürcüstan, İran və sair ölkələr bu “seçkiləri” tanımadıqlarını rəsmi şəkildə bəyan ediblər. Bu fonda Avropa Şurası Parlament Assambleyasının susqunluğu diqqətdən yayınmayıb. Başqa vaxt ölkəmizlə bağlı məsələlərdə milçəyi böyüdüb fil etməyi yaxşı bacaran, pozulmuş hüquqların müdafiəçisi rolunda yaxşı “vay-şüvən” salması ilə məşhur olan , “əsl həqiqətləri” öyrənmək adına məruzəçilər təyin edən bu təşkilatın ermənipərəst mövqeyi bütün aydınlığı ilə göz önündədir. Azərbaycanın ərazisində işğalçı bir rejimin qeyri -qanuni hərəkətləri bu təşkilata görə suveren bir respublikanın qanunlarına hayqırı deyilmi? Və nəhayət ki, dövlət başçısının kəskin tənqidindən sonra bu günlərdə Avropa Şurası Media Direktorluğunun məsələyə münasibət bildirməsi, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmətlə yanaşdığını bəyan etməsi daldan atılan daş effekti verir. Gecikmiş mövqenin əsil simanı gizlətməyə gücü çatmır”.

İ.Məmmədov qeyd edib ki, pandemiya səbəbilə Ermənistanda durumun heç də yaxşı olmadığı, hökumətin öz vətəndaşlarının sağlamlığı qayğısına qalmaq əvəzinə dünyanın etirazı ilə qarşılanan bu qeyri-qanuni hərəkətləri qarşısında susmaq bağışlanası hal deyil: “Hətta ədalətsizliyin özüdür. Bununla belə Avropa Şurasının bu mövqesizliyi bizim üçün o qədər də əhəmiyyətli bir şey deyil. Bu təşkilatın dəyərini möhtərəm Prezidentimiz layiq olduğu kimi verərək bildirib ki, “Avropa Şurası Parlament Assambleyası niyə susur? Niyə bunu demir? Sualın cavabı aydındır. Ona görə ki, orada cəmləşən anti-Azərbaycan qüvvələr, ermənipərəst qüvvələr Azərbaycana düşmən gözü ilə baxırlar. Bizə qarşı o təşkilatdan gələn iradların heç bir əhəmiyyəti yoxdur. Mən demişəm, bir daha demək istəyirəm ki, onların qəbul etdikləri qətnamələr, qərarlar mənim üçün kağız parçasından artıq deyil. O təşkilatın Azərbaycanla bağlı olan fikri məni maraqlandırmır və heç vaxt maraqlandırmayıb”. Bu qədər konkret və aydın. Azərbaycanda isə Prezidentin rəhbərliyi altında bütün diqqət və fəaliyyət koronavirusla dünyaya nümunə olan bir şəkildə mübarizəyə yönəlib. Sözsüz ki, dünyanı cənginə alan pandemiya təhlükəsi tam sovuşduqdan, həyat əvvəlki normasına düşdükdən sonra işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda mübarizəyə də qaldığımız yerdən,daha qətiyyətlə davam ediləcək. Azərbaycan müstəqil, güclü dövlətdir. Azərbaycanı güclü edən təkcə onun sosial-iqtisadi deyil, siyasi sahədə də əldə etdiyi çox böyük uğurlardır. Dövlət başçısının uğurlu siyasəti ölkə daxilində xalqın böyük əksəriyyəti tərəfindən bəyənilərək dəstəkləndiyi kimi, beynəlxalq aləmdə də ən güclülərin rəğbət və dəstəyini qazanıb. Demək doğru yoldayıq və demək davam etməliyik”.

***Aysel Məmmədova***

# Sahibkarlıq subyektləri güzəştlərdən necə yararlanacaq?

***“Pandemiya ilə bağlı zərərçəkmiş sahibkarlarlıq subyektlərinə münasibətdə vergi güzətləri və tətillərini nəzərdə tutan qanunvericilik layihəsi hazırlanaraq aidiyyatı üzrə təqdim edilib. Həmin layihə pandemiyadan bilavasitə əziyyət çəkən sahibkarlıq fəaliyyəti subyektlərinə bir sıra güzəştlərin verilməsini nəzərdə tutur”. Bu barədə SİA-ya Vergilər Nazirliyinin Vergilər siyasəti baş idarəsinin rəisi Əvəz Quliyev məlumat verib.***



O bildirib ki, bura əsasən, yerləşmə vasitələri hesab edilən mehmanxana (otel) və mehmanxana tipli digər obyektlər, turoperator və turagent, ictimai iaşə, avtomobil nəqliyyatı vasitələri ilə ölkədaxili (şəhərlərarası və rayonlararası, şəhərdaxili və rayondaxili) sərnişin daşımaları (o cümlədən taksi ilə), sifarişlər üzrə malların, o cümlədən yeməklərin, ərzaq və qeyri-ərzaq mallarının satıcılardan alıcılara daşınması və (və ya) çatdırılması, sərgilərin təşkili, səhnə, istirahət və əyləncə (oyun), kinoteatr, teatr, muzey və konsert zallarının, idman-sağlamlıq obyektlərinin, hazırlıq (tədris) və ixtisasartıma kurslarının, məktəbdənkənar təhsil müəssisələri, psixoloji mərkəzləri, koronavirus pandemiyasının yayılması ilə bağlı əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi ilə məqsədilə fəaliyyəti Nazirlər Kabineti tərəfindən tam və ya qismən məhdudlaşdırılmış digər fəaliyyət sahələri daxildir.

İdarə rəisi söyləyib ki, güzəştlər əsasən br neçə istiqaməti əhatə edir: “Onlardan biri yuxarıda adları sadalanan fəalyyət sahələridir ki, onlar 1 il müddətinə torpaq və əmlak vergisindən 1 il müddətinə tam şəkildə azad olacaqlar. Həmin şəxslər balanslarında əsas vəsaitlərə, istifadə və ya mülkiyyətlərində olan torpaq sahələrinə görə bu il müddətində vergi verməyəcəklər.Bununla yanaşı, mənfəət (gəlir) vergisi rejimində fəaliyyət göstərən ödəyicilər üzrə əldə edilən mənfəətin (gəlirin) 75 faizi miqdarında vergi güzəştlərinin verilməsi nəzərdə tutulur. Yəni bu il ərzində əldə etdikləri gəlirlərə 75 faiz vergi azadolması tətbiq olunacaq. Hansı ki bu da onlar üçün nəzərdə tutulan əhəmiyyətli güzəştlərdən biridir”.

Qurum əməkdaşı vurğulayıb ki, ölkəmizdə sahibkarlıq subyektlərinin bir hissəsini sadələşdirilmiş vergi ödəyiciləri təşkil edir: “Hansı ki sadələşdirilmiş verginin dərəcəsi ölkə üzrə 2 faiz müəyyən edilir. Ona da 50 faiz vergi güzəşti tətbiq edilərək 1 il müddətində 1 faiz müəyyən ediləcək”.

Ə. Quliyev qeyd edib ki, sahibkarlıq subyektlərinin kateqoriyasından asılı olmayaraq, pandemiya dövründə həm dövlət orqanları, həm də digər sahibkarlıq subyektləri özlərinin birbaşa təsərrüfat fəaliyyətləri ilə məşğul olduqları obyektlərdə binalarda mütəmadi olaraq dezinfeksiya işlərini görüblər. Bununla bağlı çəkilən xərclər onlar tərəfindən bu kimi xərclər Vergi Məcəlləsində müəyyən olunmuş qaydada sənədləşdirildiyi halda tam şəkildə məhdudlaşdırılmadan gəlirdən çıxılan xərclərə aid ediləcək. Eyni zamanda xarici iqtisadi fəaliyyətlə məşğul olan vergi ödəyiciləri də var ki, onlar idxal, ixrac əməliyyatları həyata keçirirlər. Hansı ki, ölkədə və həmin layihədə nəzərdə tutulur ki, zəruri ərzaq və sağlamlıqla bağlı məhsulların istehsalında istifadə olunan məhsullar müddətli olaraq ƏDV-dən azad olunacaq”.

İdarə rəisi qeyd edib ki, fərdi peşə fəaliyyəti ilə məşğul olan sahələr var ki onlar əsasən sabit qəbz və ya fərqlənmə nişanı ilə çalışırdılar: “Təkliflər Paketində onların sosial sığorta yükünün azaldılması nəzərdə tutulur. Belə ki, sabit qəbz və fərqlənmə nişanı əldə etməklə fəaliyyət göstərən vergi ödəyicilərinin sosial sığorta yükünün azaldılması məqsədilə sosial sığorta haqqının regionlar üzrə diferensial qaydada minimum aylıq əməkhaqqının müəyyən misli məbləğində hesablanması, habelə məcburi dövlət sosial sığorta üzrə inzibatçılığın və sosial sığorta ödənişləri üzrə prosedurların sadələşdirilməsi məqsədilə məcburi dövlət sosial sığorta haqqı ödənişlərini də sabit qəbz almaqla həyata keçirmələri təklif edilib”.

***Nailə Məhərrəmova***

# “Vergi güzəştləri ağır sınaqlardan çıxmaq üçün tətbiq olunur”

***Bir çox dövlətlərdə olduğu kimi Azərbaycan da bu koronavirusla bağlı çətinliklər yaşayır və bir çox ölkələrdə, hətta inkişaf etmiş ölkələrdə itisadiyyat çökür, işsizlərin sayı artır, sosial problemlər yaranır.***

Bu sözləri SİA müsahibəsində politoloq Elxan Şahinoğlu deyib. Onun sözlərinə görə, Azərbaycan iki istiqamətdə bu gündək fəaliyyət göstərir. “Azərbaycan dövləti və Prezidentin qərarları bu iki istiqamətə yönəlib və birinci istiqamət koronavirusla mübarizədir ki, bu çətinliyi adlamaqdır və çox yaxşı haldır ki, bu mübarizədə bizim uğurlarımız var. Prezidentin zamanında qəbul etdiyi qərarlar bizə imkan vermədi ki, o ağır sınaqlarla üzləşək. Artıq biz deyə bilərik ki, biz bu koronavirus təhlükəsindən, ümumilikdə təhlükədən qorunduq. İndi elə etmək lazımdır ki, ümumiyyət biz bu xəstəlikdən qurtulaq və buna doğru da gedirik.



İkinci istiqamət iqtisadi və sosial sahədir. Bu istiqamətdə də zəruri işlər görülür, yardımlar ayrılır və dövlət başçısı dəfələrlə çıxışlarında vurğulayıb ki, sahibkarlar heç kimi işdən çıxarmasın və bu da çox önəmlidir. Dövlət strukturlarında işləyənlərin əmək haqqları verilir, sahbkarlara yardımlar nəzərdə tutulur, sosial təminatlar var ki, ehtiyaclı təbəqəyə müəyyən yardımlar, maliyyələr verilir.

Növbəti istiqamət də qeyd olunduğu kimi, kiçik və orta sahibkarlığa dəstəkdir. İstənilən dövlətin inkişafı kiçik və orta sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır. Azərbaycanda son illərdə kiçik və orta sahibkarlıq inkişaf edib, müxtəlif sahələrdə boşluqlar doldurulub. Amma indi qeyd etdiyim kimi müəyyən çətinliklər var və bu baxımdan kiçik və orta sahibkarlığa dəstək vacibdir. Dövlətin qərarı ilə, Cənab Prezidentin qərarı ilə bu dəstək verilir, vergi güzəştləri tətbiq olunur ki, bu ağır sınaqdan biz çıxaq. Çünki, yenə də təkrar edirəm, Azərbaycanın gələcək inkişafı da qeyri-neft sektoru ilə bağlıdır ki, bunu da Cənab Prezident dəfələrlə vurğulayıb. Qeyri-neft sektorunu inkişaf etdirmək üçün isə orta və kiçik sahibkarlığın inkişafı vacibdir ki, məhz onlar büdcənin doldurulmasında fəal iştirak etsinlər. Çünki, artıq biz görürük ki, gələcək də neftə, neftin qiymətlərinə ümid etmək olmaz. Büdcədə neftin qiymətləri Azərbaycanda 65 dollara qədər aşağı salınmışdı və indi görürük ki, baş verən hadisələr nəticəsində qara qızılın qiyməti 10-12 dollardan da aşağı səviyyəyə düşüb. Ona görə də gələcəkdə biz elə hesab etməliyik ki, sanki bizim neftimiz yoxdur və Cənab Prezident də bunu dəfələrlə deyib. Yəni, neft bir gün tükənəcək və qeyri-neft sektoru o dərəcədə inkişaf etməlidir ki, əsas gəlirlərimiz oradan gəlməlidir. Bu əsas gəlirləri təmin edən məhz kiçik və orta sahibkarlıq olacaq, necə ki, indi də onu təmin edir. Bu vergi güzəştləri də məhz bununla bağlıdır”, deyə Elxan Şahinoğlu bildirib.

***İnam Hacıyev***

# Ermənistanın "status-kvo" oyunu

## *Nikol Paşinyan bu oyunun peşkasına çevrilib*

**Bəli, bu faktordur. Çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzun illər-dir davam etməsinin əsas səbəblərindən birinin işğalçı ölkənin beynəlxalq hüquq normalarına hörmətsizliyidirsə, digər tərəfdən dünya birliyinin bu ədalətsizliyə seyirçi mövqe nümayiş etdirməsi, ikili standartları və siyasi riyakarlığıdır.**







Bu vaxta qədər Ermənistana qarşı hər hansı bir sanksiyanın tətbiq edilməməsi, BMT Təhlükəsizlik Şurasının 27 il əvvəl qəbul etdiyi 4 qətnamənin hələ də kağız üzərində qalması, münaqişənin nizamlanmasında vasitəçiliyi öz üzərinə götürmüş ATƏT-in Minsk Qrupunun fəaliyyətsizliyi Ermənistanı daha da azğınlaşdırıb.

Məlum olduğu kimi, bu il aprelin 21- də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov A.M.Qarçakov adına İctimai diplomatiyaya dəstək klubunun üzvlərinin "dəyirmi masa"sında çıxışı zamanı BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qətnamələrə münasibət bildirib və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllinə dair plan və təkliflərdən də söhbət açıb. S.Lavrovun münaqişənin həllinə mərhələli yanaşma ilə bağlı səsləndirdiyi şərhinə Ermənistanın Xarici İşlər naziri əsl işğalçı kimi cavab verib. Görünən budur ki, nə Ermənistanın Baş Naziri Nikol Paşinyan, nə də Xarici İşlər naziri sülh danışıqlarına yaxın gəlmək fikrində deyillər və mövcud status-kvonu saxlamaq üçün min bir oyuna əl atırlar.

İşğalçı ölkənin Xarici İşlər naziri Zohrab Mnatsakanyanın Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovun açıqlamasına verdiyi cavab da bunu təsdiqlədi "Qarabağ əhalisinin təhlükəsizliyi prioritet yanaşmamızdır. Lavrovun açıqlamasında göstərilən rayonlar təhlükəsizlik zonasıdır və müdafiə xəttini təşkil edir. Heç kəs Qarabağ əhalisinin təhlükəsizliyini nəzərə almadan birtərəfli güzəştlərə gedilə biləcəyini güman etməsin. Sülh tənzimlənməsi qarşılıqlı güzəştlər əsasında mümkündür. Ermənistan heç vaxt birtərəfli güzəştlərə getməyəcək. Qarabağ xalqı olmadan heç bir qərar qəbul edilə bilməz. Lavrov öz, mən də öz mövqeyimi açıqladım".

### Qriqori Trofimçuk: "Paşinyan danışıqlarda əsas qeyri-sabitlik yaradan amildir"

Rusiyalı siyasi və təhlükəsizlik məsələləri üzrə analitik Qriqori Trofimçuk sözügedən məsələyə münasibət bildirərək "rus tərəfi hər zaman olduğu kimi bütün lazımi sənədlərin çoxdandır masada olduğu barədə qeyd edib. Və Rusiya Xarici İşlər naziri Sergey Lavrovun həll formatı ilə bağlı qeyd etdiyi tezisdə hər hansı sensasiya yoxdur və olmayıb, çünki mərhələli variant 25 il ərzində müzakirə olunub, məqsədə doğru hərəkət etmək üçün mərhələli yol haqqında danışıq hər zaman olub".

Trofimçuk, həmçinin hazırkı mərhələnin probleminin hakimiyyətə gəlmiş Nikol Paşinyanın ümumiyyətlə siyasət deyilən məfhumdan çox-çox uzaq olmasında olduğunu deyib: "Məhz bu savdsızlığın nəticəsidir ki, Paşinyan həmin bu mərhələlilik üzərinə xətt çəkib. Üstəlik, aydındır ki, o, heç kimə heç bir ərazini verməyə hazırlaşmır və bu baxımdan Paşinyan açıq şəkildə Bakını rədd etməyən Sarkisyandan daha radikaldır. Paşinyan Bakını müharibəyə təhrik edir, lakin sonuncu hansısa bir şeydən ehtiyat edir və hələlik öz yerində dayanıb. Böyük hesabla danışıqlar masası ətrafında heç nə baş vermir, hər şey dondurulub". Trofimçuk qeyd edib ki, Paşinyan danışıqlarda əsas qeyri-sabitlik yaradan amildir.

### Karen Bekaryan: "Dağlıq Qarabağ münaqişəsinin danışıqlar prosesi xaosa çevrilib"

Erməni siyasi analitik Karen Bekaryan isə bildirir ki, bu gün elə bir vəziyyətlə işimiz var ki, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar prosesi sözün əsl mənasında xaosa çevrilib: "Son 2 ildə Qarabağ münaqişəsinin həll prosesində səlahiyyətlilərin münasibətinə, davranışına və onun ətrafında olan inkişaflara baxaq. Bizim kifayət qədər geniş spektirli amillərimiz var ki, bu amillər zaman keçdikcə inkişaf edərək son günlərdə şahidi olduğumuz dayanacağa çatdı (Rusiya Xarici İşlər naziri Sergey Lavrovun danışıqlar masasında mərhələli variantın olması haqqında bəyanatı)". İnanın, bunların sayı kifayət qədər böyükdür", - deyə o qeyd edib.

### Armen Aşotyan: "Paşinyan və onun xarici siyasət komandası Qarabağ probleminin həllinin mərhələli və paket yanaşmalarının fərqlərini başa düşmür!"

Ermənistan Respublikaçılar Partiyasının sədr müavini Armen Aşotyan Paşinyan və onun komandasının hələ bu günə kimi mərhələli və paket yanaşmalarının fərqini başa düşmədiklərini deyib: "Paşinyan və onun xarici siyasət komandası Qarabağ probleminin həllinin mərhələli və paket yanaşmalarının fərqlərini başa düşmür. Adamın öz qəzeti və bu qəzetdə mətnlər yerləşdirmək imkanı olanda yaxşıdır. Paşinyan isə ölkənin baş naziri olaraq işləmək və ya həyati əhəmiyyətli məsələr haqqında xalq qarşısında dərhal izahat vermək əvəzinə yenidən bizimlə anonim məqalələrlə danışanda pisdir. Təəssüf ki, yaxın gələcəkdə Qərbdən də "a la Lavrov" bəyanatları eşidəcəyimizə şübhəm yoxdur. Bəs həmin vaxt nə edəcəksən, Nikol? Biz səlahiyyətlilərə xain olduqlarını söyləmirik, cahil, təkəbbürlü olduqlarını, mərhələli və paket yanaşmalarının fərqini başa düşmədiklərini deyirik".

### Erməni publisist: "Paşinyan Ermənistanda yalan danışmağı səlis bacarır"

Erməni publisist Vahan İşxanyan Paşinyanın Ermənistanda yalan danışmağı səlis bacardığını deyərək, Azərbaycan Prezidenti İlham Əliyev qarşısında dəfələrlə həqiqəti hıqqanaraq da söyləyə bilməsini Nikola xatırladaraq bildirib ki, hər zaman yalan danışdığı məlumdur, çünki həqiqəti bilmir: "Paşinyanın nə siyasi, nə iqtisadi sahədə savadı sıfırdırsa, Azərbaycan Prezidenti İlham Əliyev kimi bir dahi diplomatla üz-üzə gölməsi gülüş doğurub. Elə keçirilə görüşlərdə də Prezident İlham Əliyev Qarabağ müzakirələrində də konkret faktlarla Paşinyanı darmadağın edib. Və dünya ictimaiyyəti dəfələrlə Ermənistanın acizliyini, yalana əsaslanan tezislərinin darmadağın olduğunun şahididir. Paşinyan isə artıq son günlərini yaşayır, erməni xalqı onu gəldiyi yerə də tez bir zamanda atacaq".

Beləliklə, Paşinyanın bu addımları ciddi təhlükə olmaqla yanaşı, dövlətçiliyin isə məhvə doğru sürüklənməsinə gətirib çıxaracaq.

***A.Səmədova***

## Ermənistanda koronavirusdan ölənlərin sayı artıb



Ermənistanda daha 59 nəfərdə koronavirus aşkarlanıb, 1 nəfər virusdan ölüb. SİA-nın xəbərinə görə, məlumatı ölkənin Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və Profilaktikası üzrə Milli Mərkəzi yayıb. Beləliklə, Ermənistanda virusa yoluxanların sayı 1 867-yə, ölümlərin sayı isə 30-a yüksəlib. Qeyd edək ki, aprelin 27-nə olan məlumata görə, ölkədə bir gündə 62 yoluxma faktı və 1 ölüm qeydə alınmışdı.

## "HRAPARAK": "Həmsədrlər növbəti görüşə hazırlaşır"

Ermənistanın "Hraparak" qəzeti pzəl mənbələrinə istinadən xəbər verir ki, "Minsk qrupunun həmsədrləri növbəti Əliyev-Paşinyan görüşünə hazırlıq aparırlar". SİA-nın məlumatına görə, adıçəkilən nəşrin qeyd etdiyinə görə, bu barədə Məmmədyarov-Mnasakanyan arasında keçirlən video-konfransda da danışılıb.




"Onlar koronavirusla bağlı mümkün əzifləmə situasiyasını gözləyirlər", deyə yazan "Hraparak" həmçinin bildirir ki, bu məsələdə tərəflərə daha açıq oyun oynamaq çağırışını edən Rusiyanın həmsədrliyi daha çox maraqlıdır. Mənbə "əgər koronavirusla bağlı proses uzanarsa, görüş video-bağlantı ilə də keçirilə bilərmi?" sualını da cavablandırıb və bildirib ki, o bu barədə düşünmür: "Trampın qarşıdan yayın gəlməsi və günəşin koronanı öldürməsi fikri ilə bölüşmürəm..."

Erməni nəşri görüşün mümkünlüyü ilə bağlı Ermənistan XİN-nə sorğu göndərib və hər zamankı gözlənilən cavabını alıb. "Lazım olanda biz görüşün keçirilib-keçirilməyəcəyi barədə təfərrüatları açıqlayacağıq", ermənilərin xarici işlər idarəsi cavab verib.

## Saxta arayışlar satan daha bir şirkət rəhbəri saxlanıldı

Xüsusi karantin rejimi qaydalarını pozmaq üçün saxta arayışlar satan daha bir şirkət rəhbəri saxlanılıb. Bu barədə Daxili İşlər Nazirliyindən SİA-ya bildirilib. Qeyd edilib ki, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən keçirilmiş növbəti uğurlu əməliyyat nəticəsində Şəki şəhər sakini Orxan Ələkbərov karantin rejimi ilə bağlı polis postlarına təqdim olunması və sərbəst hərəkət etmək istəyən ayrı-ayrı şəxslərə direktoru olduğu, faktiki heç bir fəaliyyət göstərməyən "Vest Corporation" MMC-nin adından saxta arayışların hər birini 60-100 manat müqabilində satarkən saxlanılıb.

Araşdırma zamanı müəyyən olunub ki, adıçəkilən şəxs özü də daxil olmaqla 18 vətəndaşı saxta sənədlər əsasında "icaze.e-gov.az" portalında qeydiyyatdan keçirib və həmin şəxslərin adına saxta əmək müqavilələri tərtib edib. Bununla da Orxan Ələkbərov saxta sənəd satdığı şəxslərin xüsusi karantin qaydalarının tələblərini pozaraq sərbəst hərəkət etməsinə şərait yaradıb.



Saxlanılan şəxsin paytaxt ərazisindəki yaşayış ünvanına baxış zamanı eyni məqsədlə hazırlanmış saxta arayışlar, boş blanklar, möhür və iş üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar aşkar olunaraq götürülüb. Qeyd edilən faktla bağlı Baş İdarədə zəruri istintaq hərəkətləri və əməliyyat tədbirləri davam etdirilir. Orxan Ələkbərov və digər şəxslər saxlanılaraq məsuliyyətə cəlb olunublar.

# Eldəniz Quliyev təhqir etdi, cavabını aldı

## Natiq Cəfərli: “Xalq üzdəniraqların müdafiəsinə qalxan siyasi quruma yaxın gələrmi?”



***AXCP-”Milli Şura” adlı radikal qurumun REAL-a qarşı başlatdığı hücumları əndazəsini aşmaqda davam edir və artıq tərəflər arasında açıq söyüş-təhqirlərə üstünlük verilməkdədir. Daha dəqiq desək, bu qarşıdurmanın səbəbkarının Əli Kərimli olması da kimsəyə sirr deyil. Çünki həqiqət naminə etiraf etmək olar ki, REAL partiyasının təmsilçiləri digər müxalifət partiyalarının fəaliyyətlərini tənqid edərkən təhqirə yol vermirlər, amma təhqir obyektinə çevrildikdə qarşı tərəfin cavabını necə deyərlər, intellektual qaydada verirlər. Amma verilən cavablar da öz sərtliyi ilə seçilir.***

### Eldəniz Quliyev: “Oğlan uşağı təbii olaraq öz anasına ilk seksual mənbə kimi yanaşır...”

Beləliklə, Ə.Kərimlinin dirijorluğu ilə başlayan kampaniyada sanki bəhsə-bəhsə girilib. AXCP sədrindən bir “sümük” pay umanların ardıcıllıqla İlqar Məmmədovu və ətrafını hədəfə alaraq, həmin kampaniyaya “qaz” verməkdədirlər. Onlardan biri də “Milli Şura”nın koordinasiya mərkəzinin üzvü Eldəniz Quliyevdir. Ancaq onun budəfəki ittihamları və təhqirləri milli mənəviyyatı, milli dəyərləri də aşıb. Onun REAL partiyasına yönəlmiş təhqirli fikirlərindən bəzilərini diqqətə çatdırırıq. SİTAT: “Ziqmund Freyd üzdəniraqlığı, daha dəqiqi, “ismayılcəlilovluq” meyillərini oğlan uşağının öz anasına aşırı bağlılığı ilə əlaqələndirir. Qoca Freyd bu anormallığa səfeh bir izah verir: oğlan uşağı təbii olaraq öz anasına ilk seksual mənbə kimi yanaşır, lakin eyni zamanda, şüuraltı şəkildə bu istəyinə heç zaman çata bilməyəcəyini də dərk edir; belə olan halda, nəhayət O, özü ana olmaq qərarı verir verir: “Mən özüm ana olacağam və mənə yiyələnəcək, yəni məni seksual subyekt kimi qəbul edəcək ata axtaracam!..” Göründüyü kimi, E.Quliyev burada gətirdiyi sitatın “səfeh” olduğunu dilə gətirsə də, əslində həmin sitatı dəstəklədiyini və “oğlan uşağının öz anasına ilk seksual mənbə kimi yanaşması” ləyqtəsizliyini dəstəklədiyini büruzə edir. Daha dəqiq desək, bu ləyaqətsizliyi təhqir vasitəsinə çevirib, REAL partiyasına qarşı istiqamətləndirir.

### “Milli Şura” rəsmisi: “Onlar özlərini qeyri-ənənəvi oriyentasiyaya sahib şəxslərin hüquqlarını qoruyan kimi göstərdilər”

Lakin bununla da kifayətlənməyən “Milli Şura” təmsilçisi qarşı tərəfi hakimiyyətə işləməkdə ittiham etməklə eyhamlarını vurur: “Heç kəsə sirr deyil ki, REAL Hərakatı, daha sonra REAL partiyasına çevrilən qurum həmişə ATA axtarışında olub, sadəcə, əvvəllər bunu açıb-ağartmadan etməyə çalışıblar. Bu gün isə hər şey ortadadır və görünən kəndə də bələdçi-filan axtarmağa lüzum yoxdu. Siyasi fəaliyyəti özfəaliyyət səviyyəsinə salıb da “ismayılcəlilovluğu” seçənlərə təntənəli bir “TUŞ!””. Ancaq Ə.Kərimlinin “söyüş maşını” rolunu oynayan E.Quliyevin sözügedən ittihamları birmənalı qarşılanmayıb, yəni cəbhəçilərin də ondan heç bir fərqinin olmadığı üçün onlar ünvanlı təhqirləri dəstəkləsələr də, digər cinahlar bu fikirləri sərt tənbeh edib.

Maraqlıdır ki, E.Quliyev bundan sonra da öz fikirlərində qaldığını deməklə yanaşı, guya şəxsi müstəvidə ifadə etmədiyini də dilə gətirib. Saytların birinə açıqlama verən “Milli Şura” təmsilçisi REAL-a xitabən bu partiyanın siyasi baxışını, davranışını “ayağısürüşkənlik” adlandırıb, özünə haqq qazandırmağa çalışıb: “Hamı yazının əsas məqsədini kölgədə qoymaq üçün fərqli məsələni vurğulayır. Halbuki, əsas qeyd etmək istədiyim o idi ki, hər hansı siyasi qurum öz mübarizə prioritetlərindən asılı olmayaraq, ləyaqətlə mübarizə aparmalıdır. Ayağı sürüşkənlik, satqınlıq etməməlidir. Onlar özlərini qeyri-ənənəvi oriyentasiyaya sahib şəxslərin hüquqlarını qoruyan kimi göstərdilər. Bu da Avropanın, Qərbin sifarişidir. Təəssüf edirəm ki, hətta öz düşərgəmizdən də bir sıra adamlar əks fikirlərə qoşuldular...”

### Natiq Cəfərli: “Səviyyəsiz bir insanın öz səviyyəsinə uyğun sözləridir”

REAL-ın cavabı isə kifayət qədər sərt olub. Partiyanın icra katibi Natiq Cəfərlinin sözlərinə görə, İ.Məmmədovun bəraət almasına tənqidlə yanaşanlarla bərabər, təqdir edənlər də kifayət qədər çox idi: “Ancaq niyə isə hər kəs tənqidi görür. Halbuki 8 səfirlik, 4 beynəlxalq təşkilat REAL-ın atdığı addımlarla, İlqar Məmmədovun bəraəti ilə bağlı çox pozitiv məlumatlar yaydılar. Sosial şəbəkələrdə onlarla tanınmış insan təbrik postları yazdı. Mətbuat da, ictimaiyyət də bir neçə nəfərin öz səviyyəsinə uyğun şəkildə səsləndirdiyi fikirləri görür? Tənqid olsa idi, məmnuniyyətlə cavab verərdim”. N.Cəfərli E.Quliyevin fikirlərini səviyyəsiz adlandırıb və qarşı tərəfə ismarıc yollayıb: “Burada tənqid yoxdur. Səviyyəsiz bir insanın öz səviyyəsinə uyğun sözləridir. Cavab verib, mən də onun səviyyəsinə düşüm? Hər səviyyəsiz sözə cavab verməyə borclu deyilik”.

### “Tofiq Yaqublu həbsxanada ola-ola öz vəkili vasitəsilə bizə təbrik göndərib”

Başqa tərəfdən, REAL rəsmisi daha bir maraqlı faktı açıqlayıb. Daha dəqiq desək, bu gün nəyə görə “Milli Şura”nın üzvü Tofiq Yaqublunun da bəraət almaması məsələsini əllərində bayraq edib, REAL-çıları təhqir edənlərə N.Cəfərli arqumentli cavab verib və maraqlı fakt açıqlayıb. SİTAT: “İlqar bəyin bəraəti haqqında danışarkən, Tofiq Yaqublunun da adı çəkilir. Halbuki, Tofiq Yaqublu həbsxanada ola-ola öz vəkili vasitəsilə bizə təbrik göndərib. Bu qədər insanın, tanınmış ziyalının, vəkillərin, siyasətçilərin təbrikləri nədənsə müzakirə olunmur”.

### “Müxalifət olmaq o demək deyil ki, eyni cür düşünməliyik”

Müxalifət partiyaları arasındakı ziddiyyətlərə gəlincə isə N.Cəfərlinin sözlərinə görə, bu partiyalar eyni mövqedə olmaq məcburiyyətində deyil:

“Vahid fikri, ideologiyanı müdafiə etsəydik, ayrı-ayrı partiyalarda təmsil olunmağımıza ehtiyac qalmazdı. Müxalifət olmaq o demək deyil ki, eyni cür düşünməliyik. Halbuki, REAL-dan başqa digər partiyaların bu günə qədər ideoloji platformasını ortaya qoyduğunu görməmişik...Təəssüf ki, özünə demokrat deyən bəzi müxalifət nümayəndələri çalışırlar ki, hər kəs məsələlərə onlar kimi münasibət bildirdin. Bu avtoritarizmin bariz nümunəsidir”.

Nəticədə bir daha məlum olur ki, Ə.Kərimlinin nəzarəti altında olanların REAL-a hücumları nəticə verməyib və bu baxımdan, E.Quliyev adlı “söyüş maşını” ortaya atılıb. Ancaq göründüyü kimi, aldıqları cavabları artıq bütün məsələləri tam çılpaqlığı ilə ortaya qoyur. Yəni görünən dağın bələdçiyə ehtiyacın olmadığı misalı öz yerini tutur. Hər halda, AXCP və “Milli Şura” cütlüyünün söyüş və təhqirləri artdıqca, hansı məqsədlərə xidmət etmələri də daha çox üzə çıxır. Xüsusilə, E.Quliyevin mənəviyyatsızlığı çərçivəsində...

***Rövşən RƏSULOV***

# “Radikallar dialoqun nə olduğu anlamayacaq qədər cılız və primitivdirlər”



***Cəmiyyətdə birliyin və bərabərliyin daha da möhkəmlənməsi istiqamətində iqtidar geniş və əhatəli addımlar atmaqdadır. Artıq partiyalar arasında canlı dialoqun qurulması üçün siyasi partiya sədrləri ilə görüşlər keçirilir. Artıq bu günə qədər 50-yə qədər siyasi partiya rəhbəri ilə görüşlər keçirilib. Ancaq bu dəfə də, AXCP-də və “Milli Şura” milli birliyin pozulmasına xidmət edən təxribatları ilə siyasi dialoq prosesinin uğurlarına kölgə salmağa çalışırlar.***

Söhbət etdiyimiz müsahiblərimiz Ə.Kərimlinin, Cəmil Həsənlinin və digərlərinin siyasi dialoqa qatılmamalarının səbəbini onların xaricdən təlimat almaları ilə əlaqələndiriblər. Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev “Səs” qəzetinə açıqlamasında bildirdi ki, bu gün siyasi sistemdə çox mühüm islahatlar gedir: “Yeni siyasi konfiqurasiya formalaşır. Artıq mühit də, məqam da, şərtlər də başqadır. Dialoqun davam etdiyi mərhələdə qarşı tərəf bir addım atırsa dövlət bunun əvəzində iki addım atır. Üstəlik, Azərbaycan hakimiyyəti dəfələrlə bəyan edib ki, hansı siyasi qüvvə demokratik dəyərləri, milli maraqları, dövlətçilik fəlsəfəsini özü üçün prioritet biləcəksə, onlarla oturub söhbət eləməyə, fikir mübadiləsi aparmağa, bütün güzəştləri tətbiq eləməyə hazırıq. Bəyan edib və ardınca da əməli addımlar atıb. Nümunələr göstərib. Mükəmməl presedentlərin əsasını qoyub. İndi baxışlar dəyişib. Qaydalar dəyişib. Həm də kardinal şəkildə dəyişib “.

E.Musayevin sözlərinə görə, siyasi sistem və konfiqurasiya artıq fərqli komponentlərlə əhatə olunur: “İnnovativ prinsiplər prioritetə çevrilir. Siyasi qüvvələrə münasibətdə çevik və operativ xətt, mövqe nümayişi var. Bu yaxınlarda bir neçə siyasi partiya rəsmi qeydiyyata alındı. İlqar Məmmədov və Rəsul Cəfərov bəraət aldı. O gün mediadan oxudum ki, “Azadlıq” partiyasının sədri Əhməd Orucun övladı Cənab Prezidentə minnətdarlıq məktubu ünvanlayıb. Atasının müalicəsi üçün dövlətin göstərdiyi dəstək və qayğıya görə. Həmin Əhməd bəylə mən dəfələrlə üzbəüz gəlmişəm. Debatlarda, verilişlərdə. Hər zaman da fikirlərimiz çarpaz, fərqli, əks olub. Fəqət, diqqət edin: bu hakimiyyətə müxalif olmasına rəğmən onun da müraciəti, çağırışı dərhal cavablandırılıb. Daha dəqiqi, müsbət cavablandırılıb. Bunun üçün siyasi iradə lazımdır və bu iradə dövlətimizin rəhbərində var. Alqışlayıram, məlum addımı. Zatən, Prezident İlham Əliyev kimi ləyaqətli, ürəkli, qayğıkeş insandan gözlənilən budur. Başqa cür ola bilməzdi. Ölkə rəhbəri heç bir zaman vətəndaşlar arasında siyasi mənsubiyyət fərqi qoymayıb. Ayrıca, onu da qeyd edim ki, biz dövlət tərəfindən atılan bənzər addımı hüquq müdafiəçisi Oqtay Gülalıyevin timsalında da görmüşük. Heydər Əliyev Fondu, onun rəhbəri, hörmətli 1-ci vitse-prezident Mehriban xanım Əliyeva o zaman məsələni dərhal nəzarətinə götürdü və həmin şəxsin müalicəsi bu günə qədər davam edir. Yəni, presedentlər, nümunələr çoxdur. Məna, məğz, çıxarılan nəticə isə budur ki, dövlət və onun rəhbəri həqiqətən hamıya eyni gözlə baxır. Hər kəs Prezidentin, vitse-prezidentin nəzərindədir. Və məlum kontekstdə bir məsələni də qeyd eləmək yerinə düşər: Bu gün radikal siyasət xətti götürən “Milli Şura”, Əli Kərimli, Cəmil Həsənli indi görəsən haralardadır? Niyə öz dostlarının, həmfikirlərinin dadına, köməyinə çatmırlar? Mənəvi dəstək göstərməkdəmi çətindir? Ailəyə zəng edib xəbər almaqdamı çətindir? “Milli şura” bircə Gülalıyevin müalicəsi ilə bağlı arada şou yaratmağa çalışdı ki, guya yardım yığırlar. O yığılan pul da hara getdi, heç kimin xəbəri yoxdur. Yəni, deməyim odur ki, hakimiyyətlə radikal müxalifətin fərqi bax budur. Hakimiyyətdəkilər hətta siyasi rəqiblərə, onların ailələrinə də sahib çıxırlar. Radikallar isə burnunun uclarından o yananı görmürlər, hətta ən yaxın dostlarını da zərbə altında, çətinliyin məngənəsində qoyub qaçmağı bacarırlar. “Milli Şura”nın, radikal müxalifətin işi yalnız dezo və şou yaratmaq, xəyallara dalmaq və antimilli fəaliyyət göstərməkdir. Onlar insanlığın, dövlətçiliyin, dialoqun, sivil münasibətlərin nə olduğu anlamayacaq qədər kasad, cılız və primitivdirlər. Bir təşkilatın ki lideri başıpozuq, qolçomaq Əli Kərimlidir, o təşkilatın heç zaman perspektivi, sabahı, gələcəyi ola bilməz”.

***Gülyana***

# “Əli Kərimli siyasi savad və intellekt baxımından əziyyət çəkir”



“İnkişaf dinamik prosesdir. İnkişaf yenilənmədir və bu özünü bütün sahələrdə göstərir. Cəmiyyətimizin siyasi, iqtisadi, sosial həyatı daim dəyişir və buna uyğun olaraq da qanunvericilik bazası yenilənir. Biz bu inkişafı siyasi sferada da görürük və siyasi dialoq bu prosesdə xüsusilə əhəmiyyət kəsb edir”. Bunu SİA-ya açıqlamasında YAP Nizami rayon təşkilatının sədri, millət vəkili Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, Prezident Administrasiyasında aparılmış struktur dəyişikliklərindən sonra yeni yaradılmış Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi ölkəmizdə siyasi dialoqun qurulması, inkişafı istiqamətində əhəmiyyətli addımlar atıb: “Bu günə qədər artıq 50-yə qədər siyasi partiya rəhbəri ilə görüşlər keçirilib. Bu rəqəm bir daha onu göstərir ki, siyasi partiyalar, xüsusilə də onların arasındakı müxalifət partiyaları siyasi dialoqa müsbət proses kimi baxır. Lakin çox təəssüflər olsun ki, ümumi siyasi inkişaf prosesinə müsbət təsir edən siyasi dialoq tendensiyasına zərbə vurmağa çalışanlar da tapılır. AXCP-də və “Milli Şura”da birləşmiş, özlərinə müxalifət deyən bir qrup radikalist və ekstremistlər Əli Kərimlinin başçılığı ilə ölkəmizdə təxribatlar törətməyə, ictimai rəyi çaşdırmağa və siyasi dialoq prosesinin uğurlarına kölgə salmağa çalışırlar. Hər kəs artıq bilir ki, Əli Kərimliyə də siyasi dialoqda iştirak dəvəti göndərilsə də, o, “beşinci kolon” təmsilçisi olduğu üçün ilk dörd kolondan aldığı tapşırığa əsasən müxtəlif “şərtlər”, əslində isə bəhanələr ilə bu prosesdən imtina etdi. Əli Kərimli bu hərəkəti ilə bir daha siyasi partiya deyil, dərnək rəhbəri olduğunu isbatladı. İslahat kateqoriyasının mənasını anlamayan Əli Kərimlinin siyasi dialoqa “karyerasına” təhlükə kimi baxmağı da təbiidir. Ötən gün oğurluq bir müsahibəsində deyir ki, “islahat olmayanı etmək deməkdir”. Bu cümlə bəs edir ki, Əli Kərimli kimi birisinin həm intellekt, həm də siyasi savad baxımdan əziyyət çəkdiyini müəyyən edəsən. Heç olmasa müsahibədən öncə o qarşındakı kompyuterdə hazır yazılmış tezislərin yanına islahat sözü ilə bağlı wikipedia məlumatını yerləşdirərdin ki, ictimaiyyəti güldürməyəsən özünə. Son günlər sosial şəbəkələr üzərindən AXCP və “Milli Şura” daxilində baş verən təhqir və özünü ifşa halları da onu göstərir ki, dərnək əhli və onun rəhbəri təşviş içindədirlər. Siyasi dialoq ölkəmizdə yeni siyasi konfiqurasiya formalaşdıracaq, lakin burada radikalistlərə və ekstremistlərə yer olmayacaq. Çünki, bu, bir siyasi olduğu qədər də, sosial tələbdir”.

***Gülyana***

# Satqınçılığın son həddi

**Son günlər ən çox gündəmdə olan AXCP sədri Əli Kərimlinin sosial şəbəkələrdən "ev dustağı" olması və internetinin "kəsilməsi" ilə bağlı çağrışları olub. Ancaq növbəti yalanları ilə Ə.Kərimli "qaş düzəltdiyi yerdə" vurub... o kor olan gözlərini də çıxardı. İstədi ki, müxalifət "həmfikirlərini" də inandırsın, əksinə daha da belə bir vəziyyətdə "keflərinə soğan" doğradı. Və tərəfdarları Əli Kərimlinin vəziyyəti ilə bağlı ona dəstək vermədiyinə görə digər müxalifət partiyalarını kəskin ittiham etməyə başladı.**



### "Satqın və fırıldaqçı Əli Kərimlinin, nəinki koronaviruslu, hətta şeytanla da iş qura bilər..."

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev satqın və fırıldaqçı Əli Kərimlinin, nəinki koronaviruslu, hətta şeytanla da iş qura bildiyini deyib: "Bu Əli Kərimlinin növbəti oyunudur. Bu ərəfələr hamı evdə qalmalıdır. Bu o demək deyil ki, hamımız etiraz etməliyik. İndi heç kəs heç kəsin internetini kəsmir, özün kontr yükləyisən və nə qədər danışırsan danış. Mən bu iddiaları qətiyyən qəbul eləmirəm. Bu, özünü əzabkeş obrazında, xalqa canıyanan kimi sırımaq bəhanəsidir. O siyasi dələduzdur. Onu vaxtilə hakimiyyətdə olan adamlar bu səviyyəyə gətirib çıxartdı. Kərimov Əlini Azərbaycanda ana müxalifət etmək istəyən qüvvələr, indi də onu maliyyələşdirirlər. İstiyirlər ki, bundan zəhmətkeş, barışmaz radikal müxalifət obrazı yaratsınlar. Bir də necə interneti kəsilib ki, sosmal şəbəkələrin "ulduzuna" çevrilib".

Partiya sədri vurğulayıb ki, heç kəs belə cəfəngiyyat fikirləri ilə sadə insanları aldada bilməz: "Kərimov Əlinin bu cür "tryukları" keçməyəcək. 27-30 ildir "mən müxalifətəm" deyərək, siyasi alverlə məşğul olub. Alveri də "Allah işini avand eləsin", çox "xod" gedir. O, həm hakimiyyətin müəyyən dairələrindən alır, həm keçmiş vurulan nazirlərdən. Çalşırlar ki, Kərimov Əlidən başqa heç kim gündəmdə olmasın. Bu yalançı müxalifətin dırnaqarası liderinin Avropada, Qərbdə Leyla Yunus, Qənimət Zahid kimi informasiya dəsətkçiləri çoxdur. Biz də gedib Amerikaya, Avropaya, Qərb dövlətlərinə satılsaydıq, digər başqa qrupların əlinin altında işləsəydik, bizim də pulumuz çox olardı. Bizim də xaricdə saytlarımız olardı və bizi də oradan tərifləyərdilər. Biz də özümüzü əzabkeş göstərib, hay-küy salardıq".

H.Hacıyev Əli Kərimlinin müdafiəsinə qalxaraq sosial şəbəkələrdə digər partiya liderlərinin ittiham edilməsinə də birmənalı yanaşmayıb. O, özünün Əli Kərimliyə ünvanladığı tənqidi fikirlərin, məhz Əli Kərimli tərəfdarları tərəfindən ona və digər müxalif partiyalarının liderlərinə qarşı ünvanlamasını insanların çaşqın vəziyyətə salınmasına yönəldiyini ifadə edib: "Kərimov Əlinin tərəfdarları getsinlər davalarını ona daha yaxın olan Arif Hacılıyla çəksinlər. Əgər Arif buna dəstək durmursa, biz neyniyək. Bunlar daim birgə hərəkət ediblər, Azərbaycan milli hakimiyyətini birgə deviriblər. Bu günə qədər Azərbaycan xalqının başına gələn bəlaların başında bu iki partiyanın siyasətbazları durub. İndi İsanın, da adını çəkirlər. Amma İsa Qəmbər də kölgədə gizlənib".

### Ayının bir oyunu var... kim daha çox qrant alacaq, kim daha çox "əzabkeş" bəhsi

H.Hacıyev vaxtaşırı belə halların ortaya atılmasını, "ayının min oyununun, ... kim daha çox qrant alacaq, kim daha çox "əzabkeş" bəhsində olduğunu da deyib: "Əlbəttə ki, indi Kərimov Əlinin dəstəsi hamımızı günahkar çıxaracaq. İqbal Ağazadəni də günahkar çıxaracaq, digərlərini də... Azərbaycanda heç kim gedib Kərimov Əlini müdafiə eləməməlidir. Hamımız evdəyik. Amma onun pulları Amerikadan da gəlir, familiyasını dəyişmiş ingilislərdən gəlir. Bəs bizə nə gəlir. Gərək onda biz də müharibə elan edək ki, evdə oturub acından ölürük? Ona görə də Kərimov Əlinin trolları heç kəsdən inciməsinlər. Getsinlər 20 illik dayılarından umsunlar. Biz bu camiyənin içindəyik, kimin əli kimin cibindədir, kim hara xidmət edir, kim hansı oyunu qurub hamımız yaxşı bilirik".

H.Hacıyev onu da bir daha vurğulayıb ki, heç kim Əli Kərimliyə arxa duran deyil: "Azərbaycan xalqı ağıllı xalqdır və öz gələcəyini artıq müəyyənləşdirib. Xalq ölkə Prezidenti ilə bir yerdədir və bəzi çətinliklərə baxmayaraq xalqla dövlət, dövlət başçısı ilə xalq arasında böyük təmas qurulub. Bunu da istəməyən qüvvələr öz niyyətlərinə çatmayacaqlar".

***Rəfiqə HÜSEYNOVA***



**İLHAM**

# AXCP-də Əli Kərimli dönəmi bitir

Müxalifətdaxili çəkişmələr və qarşıdurmalar fonunda diqqətçəkən məqamlardan biri də, AXCP funksionerlərinin Müsavata qarşı ittihamlarını daha açıq və geniş formada səsləndirmələridir. Demək olar ki, AXCP sədr Əli Kərimli başda olmaqla partiyanın üzdə olan trolları ağına və bozuna baxmadan Müsavat rəhbərliyini tənqid və təhqir edir, onları gözdən salmağa çalışırlar.

AXCP-nin sözçüsü Natiq Ədilov sosial şəbəkələrdə paylaşdığı statusunda iddia edib ki, müxalifin inteqrasiyasına ən çox problemləri başqan Arif Hacılı yaradır. Onun sözlərinə görə, hər dəfə müxalifətin yeni qurumunun yaradılması ideyası ortaya çıxanda A.Hacılı və partiya funksionerləri buna ciddi əngəllər yaradırlar. N.Ədilovun Müsavata ünvanlanan ittihamlarına cavab isə özünü çox gözlətməyib. Müsavat başqanının qardaşı Mustafa Hacıbəyli N.Ədilovun öz sözünü deyil Ə.Kərimlinin sifarişlərini yerinə yetirdiyini bildirib: "Hər kəs bilir ki, Ə.Kərimli facebookda saxta səhifələr yaradaraq müxalifətin üzdə olan simalarını təhqir edir və müxtəlif ittihamlar səsləndirir. Araşdırsaq məlum olar ki, Ə.Kərimlinin çoxsaylı saxta səhifələri var. Saxta səhifə yaradıb, Müsavatı hədəf seçən Ə.Kərimlinin özünü və dediklərini ciddi qəbul etmək olmaz. O başdan-ayağa qədər saxtakarlıqdan ibarətdir".

Mustafa Hacıbəyli:
**"Əli Kərimli başdan-ayağa qədər saxtakarlıqdan ibarətdir"**

M. Hacıbəylinin qeyd etdiyi saxta profillərin yaradılması məsələsini AXCP-dən istefa vermiş cəbhəçilərdə təsdiqləyirlər. AXCP-nin keçmiş təşkilat şöbəsinin müdiri Ağaşirin Tanrıverdioğlu bildirib ki, AXCP-dəki trolların əsas işi-gücü saxta profillər vasitəsilə partiya sədri Ə.Kərimlinin "like"larını artırmaqdır: "Saxta profillər kifayət qədər çoxdur. Rəyasət heyətində elə şəxslər var ki, onlarla saxta profilləri var. Əli Kərimlinin statuslarına gələn 4-5 min "like"dən saxtaları çıxsaq, 200-300 bəyənmə ancaq olar. Çünki 70-80 faiz saxta profildir. Göstəriş Əlidən Məmməd İbrahimə gəlir. Profil sındırmaq da bunlar üçün adi hal alıb. Onlarda xüsusi kodlar var. Onun vasitəsilə ya profili bağlayırlar, ya da oğurlayırlar. Bunlar artıq o işlərdə "püxtələşiblər".

O, qeyd edib ki, partiyada bəzən 4-5 saat davam edən iclasın çox hissəsi Facebook səhifəsində sədrin statuslarının laykların sayılmasına gedirdi: "Bu qədər xırdalıqlara getmək düzgün ola bilməz. Laykları saymaq düzgün siyasət ola bilməz. Mən bu xırdalıqların hər zaman əleyhinə olmuşam".

AXCP sədrinin keçmiş müavini R.Nurullayevdə bildirib ki, Ə.Kərimli tərəfindən Facebook-da partiya üzvlərinə yüzlərlə saxta profil yaratmaq tapşırılıb: "Bəzilərinin 100-110 saxta profili var idi. Facebook-da şərtlər sərtkləşdirildikdən sonra onların yarısı bağlandı. Amma indi də partiyanın idarə heyətində təmsil olunan şəxslərin 30-40 saxta profili var".

AXCP sədrini keçmiş müavini partiya sədri Əli Kərimlinin partiyanın digər üzvlərinə qarşı şantajdan istifadə etdiyini bəyan edib: "Partiya üzvlərinə qarşı şantaj yolunun seçilməsi doğru deyil. Əgər bir sədr ki, özü şantaja məruz qalıbsa və buna baxmayaraq, özü də digərlərinə qarşı şantajdan istifadə etməsi qətiyyən düzgün deyil". gətirilməldiir".

Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev "Səs" qəzetinə açıqlamasında bildirib ki, Ə.Kərimli ətrafında saxladığı qolçomaqlarla internet üzərindən hücumlar edir, ölkədəki sabit və idarə olunan vəziyyətə kölgə salmağa çalışır, özünün quruluşçu rejissorluğu ilə yeni tamaşa səhnələri qurur, ictimai rəyi üzərinə çəkmək üçün dəridən qabıqdan çıxır, vurnuxur: "Fəqət, çıfayda, effekt yoxdur. Əksinə, maraq daha da azalıb. Bəyin "layk"ları tükənib. Diqqət sıfırdır. Bata bildikcə batır bu adam. Dövlət ayaq üstdədir. Hökumət tərəfindən atılan bütün addımlar yerindədir və düzgündür. Artıq xəstəliyə yoluxanlarla sağalanların arasındakı fərq ciddi bir şəkildə ikincinin xeyrinə doğru dəyişməyə başlayıb. Ümumbəşəri pandemiya üzərində qələbə qazanacağımız gün çox yaxındadır. Bu isə o deməkdir ki, "Milli Şura" ətrafında cəmlənən radikalların köməyinə koronavirus da çatmadı. Mənfur ünsürlər yenə öz xislətlərinin badına getdilər. Qazdıqları quyuya düşdülər. Arzuları bətndəcə dəfn olundu. "Milli Şura", Ə.Kərimli və onların təəssübkeşləri Azərbaycan xalqının açıq və birmənalı düşmənləridir! Koronavirus dövründə müşayət edilən hadisələr də bir daha sübut etdi ki, belələrinin əsl layiq olduğu yer siyasət məkanı deyil, tarixin zibilliyidir! O yer ki, illərdir məskunlaşıblar, gömülüb qalıblar. O yer ki, ömürlük ünvanları olacaq".

**Cəbhəçilər də Əli Kərimlidən imtina edirlər**

Göründüyü ki, Ə.Kərimli şantaj və böhtanlarını əsasən sosial şəbəkələr üzərindən yaratdığı saxta profilləri vasitəsi ilə həyata keçirir. Bu isə, ekspertlərində də, qeyd etdiyi siyasi dəllallığın açıq nümunəsidir. Söz yox ki, bu metodda Ə. Kərimlinin uzaqlara hesablanan siyasi oyunlarına yaramayacaq. Çünki, hər kəs, o cümlədən AXCP-də təmsil oluna sıravi cəbhəçilərdə aydın şəkildə dərk edirlər. Ümumiyyətlə, AXCP ilə yanaşı digər müxalif partiyalarda ağır və üzücü fəaliyyət dönəmi keçməkdədirlər. Hazırkı məqamda ən təlatümlü və narahat partiyalar AXCP, ADP, KAXCP və Müsavat partiyalarıdır. Müsavatda cərəyan edən hadisələr maraqlı nüansları ortaya çıxarır. Arif Hacılının başqanılığa gətirilməsindən sonra partiya daxilində qarşıdurmalar günbəgün artmaqdadır. Partiya başqanı A.Hacılının idarəçiliyindən narazı olan qruplar açıq müstəvidə mübarizəyə başlayaraq, situasiyanı öz xeyirlərinə dəyişdirməyə çalışırlar. Bundan istifadə edən AXCP sədri Ə. Kərimli yaranmış vəziyyətdən səmərəli istifadə etməyə çalışır. Nəzərə almaq lazımdır ki, bu iki partiya arasında əzəli düşmənçilik mövcuddur. Hər iki partiya funksionerləri bir-birini sıradan çıxarmaq üçün məqam gözləyiblər. Müsavatda baş verənlər Ə.Kərimlinin işinə yaradığından, o, bütün qüvvəsi ilə Müsavatı tamamilə sıradan çıxarmağa çalışır. AXCP-nin həmlələri qarşısından geri çəkilmək fikrində deyillər. Araşdırmalara və proseslərə əsasən, demək olar ki, hazırkı mərhələdə daha cox AXCP-Müsavat qarşıdurması diqqəti çəlb edir. Xüsusilə də, Müsavatın "Milli Şura" deyilən qondarma qurumdan çıxmasından sonra iki partiya arasında münasibətlərin gərginləşdiyi müşahidə olunur. ADP sədri Sərdar Cəlaloğlu iddia edir ki, müxalifətin ciddi iflasa uğramasının başlıca günahkarı AXCP və Müsavatdır: "Bu partiyaların bir araya gələ bilməməsi həmişə birlik istəklərini reallaşdırmağa imkan verməyib. Vaxtilə "Demkonqres"in, "Azadlıq" siyasi blokunun, "SİDSUH"un və digər qurumların dağılmasında da onlar rol oynayıb. AXCP ilə Müsavatın qarşılıqlı ittihamları və bir-birini qəbul etməməsi həmişə müxalifət düşərgəsində ciddi parçalayıcı amil olub".

## Bakıda küçədə yanmış kişi meyiti aşkarlandı

***Bakıda yanmış kişi meyiti tapılıb. SİA-nın məlumatına görə, hadisə paytaxtın Binəqədi rayonu "DSK yolu" adlanan ərazisində baş verib. Meyitin müayinəsi zamanı onun yanmamış hissələrində hər hansı bir xəsarət izi aşkar edilməyib.***



Araşdırma zamanı həmin şəxsin ətraf ərazilərdən dəmir və şüşə qabların yığımı ilə məşğul olduğu məlum olub. Faktla bağlı Binəqədi rayon Prokurorluğu tərəfindən araşdırma aparılır. Həmin şəxsin kimliyinin müəyyənləşdirilməsi istiqamətində işlər görülür.

## Rusiyada 69 yaşlı polkovnikin maşınında partlayış baş verib

***Rusiyada Volqoqrad bölgəsinin Dzerjinski rayonunda maşında partlayış baş verib. SİA "gazeta.ru" saytına istinadən xəbər verir ki, hadisə rayonun "Xoroşeva" küçəsində qeydə alınıb.***




Partlayışa səbəb Daxili İşlər Nazirliyinin istefada olan polkovniki L.Vladimirə məxsus maşının ön oturacağında saxladığı qumbara olub. Hadisə nəticəsində 69 yaşlı polkovnikin yaralandığı bildirilib. O, çoxsaylı yanıqlarla xəstəxanaya yerləşdirilərək əməliyyata götürülüb. Polis əməkdaşları zərərçəkənin həyat yoldaşının ifadəsini alıb. Hadisənin bütün detalları dəqiqləşdirilir.

# Ermənistanın “milli qəhrəmanları” kimlərdir?

***2019 -cu il oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilmiş MDB Dövlət Başçıları Şurasının iclasında çıxış edən Prezident İlham Əliyevin işğalçı Ermənistanın faşist ideologiyasını ifşa etməsi bu ölkəyə ağır zərbə oldu. Ermənistanın nasizmi dövlət siyasətinə çevirdiyini diqqətə çatdıran dövlətimizin başçısının həmin iclasda səsləndirdiyi fikirləri bir daha xatırlatmaq istərdik: “Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib”.***

Dövlət başçısı vurğulamışdır ki, 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi “Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında” məruzə təqdim edib. Həmin məruzədə deyilir: “Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb”.Alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana Ermənistanda heykəl qoyulması ermənilərin faşimzə olan sevgisindən xəbər verir. Azərbaycan torpaqlarının işğal edilməsində, xalqımıza qarşı soyqırımı həyata keçirilməsində ermənilərin faşizmə sevgisi böyük rol oynayır. Faşizmə sevgi sanki bu millətin qanına hopub. Ona görə də günahsız insanlara əzab-əziyyət verməkdən, qadınları, körpələri, yaşlı insanları xüsusi amansızlıqla qətlə yetirmələrindən zövq alırlar. Bu gün Rusiyanın müxtəlif ərazilərində məskunlaşmış ermənilərin bir sıra kütləvi informasiya vasitələrində söz sahibi olması heç kimə sirr deyil. “Sputnik”, “Russia Today”, “Life News”, “Regnum” kimi böyük xəbər agentlikləri Simonyan, Qabrelyanov, Akopyanov kimi ermənilərin əlindədir. Onlar Rusiya vətəndaşı olsalar da, yalnız erməni maraqlarını qorumaq barədə düşünür və əsasən bu istiqamətdə hərəkət edirlər. Rusiya mediasını ələ almış ermənilər rusları inandırmağa çalışırlar ki, guya, Njde, heç vaxt Sovet İttifaqına qarşı vuruşmayıb, ancaq Ermənistanın maraqlarını müdafiə edib. Ancaq faşizm tərəfdarlarının fəryadına baxmayaraq, Armavirdə bu satqın qatilin xatirə lövhəsi söküldü.Hazırda dünyanın müxtəlif ölkələrində məskunlaşmış ermənilər əllərinə düşmüş fürsətlərdən istifadə edərək, faşist ideologiyasını təbliğ edir, nasizmə olan hüsn-rəğbətlərini gizlətmirlər. Vesti.az saytının yaydığı məlumatda belə bir hadisənin Rusiya Federasiyasının ərazisində də baş verdiyi bildirilir. Bu yaxınlarda ermənilər Rusiya TV-nin efirində Qaregin Njdedən başqa digər bir “hitlerçi-erməni”nin təbliğatına başlayıblar. Budəfəki nasist də iyrənc və qatı cinayətkar Dro ləqəbli Drastamat Kanayandır. Ermənilər bu cəlladı milli qəhrəman kimi təqdim etmək üçün dəridən-qabıqdan çıxırlar. Onlar bu qatilin təbliğatında uşaqları bir vasitə seçiblər. Rusiya Federasiyasının Çelyabinsk vilayətində yaşayan ermənilərin və erməni mədəniyyət mərkəzinin dəstəyi ilə yerli OTV televiziya kanalının “Səhər” proqramında “Qusan” və “Şirak” ansamblının müşayiəti ilə (bədii rəhbər Tsaqik Xaçaturyandır) uşaqlar Aqhasi İspiryanın məşhur “Daşnak Dro” mahnısını ifa ediblər.

Dro ləqəbli erməni nasist kimdir? İkinci dünya müharibəsi illərində Dro Qaregin Njde ilə birlikdə, erməni əsirləri və Avropada yaşayan erməni legion birləşmələrinin tərkibində faşistlərə xidmət edib. O, 1945-ci ildə amerikalılar tərəfindən tutulsa da, tezliklə sərbəst buraxılıb. Bəzi məlumatlarda bildirilir ki, hətta Qaregin Njde Stalinə yazdığı məktubda da Dronun satqın və nasist olduğunu etiraf edib. Buna baxmayaraq, Çelyabinsk vilayətində yaşayan ermənilər bu nasisti milli qəhrəman kimi təqdim etmək üçün təbliğata başlayıblar. Bu, ermənilərin faşizmə olan əbədi sevgisinin növbəti təzahürüdür. Görünür, Njdenin iç üzünün açılmasından və onun abidəsinin sökülməsindən sonra daha bir erməni nasistinə abidə qoydurmaq niyyətinə düşüblər.

Faşizm ideyalarını daşıyan Ermənistan.Bu Ermənistan rejiminin idealogiyasına ucaldılan abidədir. Faşizm ideologiyasının banisi Hitlerin dostu olan Qarigen Njde. Özəlliklə Qarabağ və Zəngəzur canisi Garegin Njde alman faşizminə bənzər bir təlim ortaya atmışdır: Tsexakronizm. Bunun alman faşist “yeni nizam” anlayışına nə qədər bənzəri olduğunu irəlidə araşdıracağıq.

Əslində faşizm- sinif və gender fərqi nəzərə almadan cəmiyyətin birgə yaşamını müdafiə edən, dövlətin hər şeydən üstün olduğunu vurğulayan, tək partiyalı, “vətənpərvər”, həddindən artıq milliyyətçi, anti-demokratik, antikommunist, anti-kapitalist, populist və avtoritar bir sistemdir. Bir rejimin “faşist” olaraq bilinməsi üçün, o rejimin ideologiyasının milliyyətçi olması və millətin varlıq və maraqlarının hər şeyin üstündə tutması gərəkdir.Hədəfə çatmaq üçün isə iqtisadiyyat üzərində möhkəm bir dövlət yumruğu tətbiq etmək, həyat tərzinin aşağı düşməsinin qarşısını almaq üçün qiymət siyasətinin tətbiqi kimi tədbirlər faşizmin əsas siyasəti olmuşdur. Faşizm, siniflər arasındakı ziddiyyətləri ortadan qaldırmağı nəzərdə tutur. Bu istiqamətdə dövlətin əliylə korporativ peşələr qurulur və fəhlə ilə işəgötürən arasında müqavilə təmin edilir. Cəmiyyətdəki yoxsul və orta sinfin ehtiyacları dövlət tərəfindən ən yaxşı şəkildə qarşılanır. Məsələn, Almaniyada çıxan torpaq qanunuyla kəndlilərin torpaqlarının ipoteka yolu ilə əllərindən alınmasının qarşısı alınmış və sərmayəçilərin kəndlini istismar etməsi əngəllənmişdir. Almanlarda bu Hitlerin hakimiyyəti ilə üstünlük qazanmışdı. Ermənilərdə də ideoloji baxımdan hər şey bu sistemə uyğun idi. Milliyyətçi və ya irqçi fikirlərin mənimsənilməsi ölkələrə görə fərqli olmuşdur. Məsələn, italyan faşizmində “İtalyan vətəndaşlığı” anlayışı ön planda ikən, alman nasizmində isə “Alman qanı daşıma” düşüncəsi ön plandadır. Mussolininin doktrinasında vətəndaşlıq anlayışına üstünlük verilir, Hitlerin doktrinasında isə qan bağı xüsusi vurğulanır. İtalyan faşizmi milliyyətçidir, alman nasizmi isə irqçidir. Erməni faşizmi italyan faşizminə deyil, alman faşizminə yaxındır. Əsas hədəfə çatmaq üçün ermənilər almanlara özlərini sırımağa çalışırdılar. Eyni irqdən olduqlarını isbatlayan dəlillər axtarmaları da uzun sürmədi. Hitlerin “irq dövləti” anlayışı Ermənistanda da eyni anlama gəlir.

Bəlkə də Sarkisyan rejiminin Qaragin kimi qara ləkəsini Paşinyan hakimyyəti silsəydi, baş nazir MBD ölkələrinin qarşısında başı bükük oturmazdı. Lakin hadisələr tam əksinə cərəyan etdi. Gəlin öncə sizə Qaragin Njdedən danışım.

Qareqin Ter-Arutyunyan 1886-cı ilin yanvar ayının 1-də İrəvan Quberniyasının Naxçıvan qəzasında anadan olub.

Njde ləqəbin isə Qareqin Daşnaksütuna üzv olduqdan sonra alır.

Njde “Tseqakron” hərəkatını təsisçisidir. Bu hərəkat qatı millətçi, faktiki faşist ideologiyasına malik bir təşkilat olub. 1937-ci ildə Daşnaksütunun sıralarından ayrılır. Faşist Almaniyası ilə əlaqələr yaradır və Nasional Sosialist Alman Fəhlə Partiyasın rəhbəri Rozenberqlə görüşür, onları Türkiyəyə hücum etməyə çağırır və öz köməyini təklif edir.

1942-ci ildə Dro ləqəbli general Drastamat Kanayanla birlikdə Vermaxt nəznində erməni hərbi birləşmələrinin formalaşdırılmasında iştrak edir.Dro və Njdenin başçılıq etdiyi erməni hərbi birləşmələri, Krım yarımadasının işğalında və Qafqazdakı döyüşlərdə iştirak ediblər.

Sovet hərbi əks-kəşfiyyatı onu həbs edərək Moskvaya göndərir. Bir müddət Dövlət Təhlükəsizlik Nazirliyinin həbsxanasında qaldıqdan sonra Njde İrəvana göndərilir. Məhkəmə zamanı Qareqin Njde antisovet fəaliyyətində və kütləvi qətlləri təşkil etməkdə günahkar bilinir və 25 illik həbs cəzasına məhkum olunur.

Njde 1955-ci ilin dekabr ayının 21də Vladimir şəhərində həbsxanada ölür. Njdenin kimliyi barədə məncə kifayət qədər danışdıq, indi isə qayıdaq mətləbə. Ermənistanın əvvəlki prezidenti Serj Sarkisyan başda olmaqla erməni rejimində təmsil olunanların əksəriyyəti Azərbaycan torpaqlarının işğalında, azərbaycanlılara qarşı qəddarlıqla törədilən qətliamlarda birbaşa iştirakçı olub. Xocalıda nasizm üslubu ilə soyqırım törədən Sarkisyan yəhudi soyqırımını həyata keçirənlərdən birinə - Njdeyə abidə ucaldır. Bunu sadecə təsadüf olması inandırıcı deyil. Belə olan təqdirdə Paşinyanın Aşqabadda MDB dövlət başçılarının qarşısında təşvişə düşməsinin əsl mahiyyətini anlamaq çətin deyil.

Paşinyan gördüki onların yürütdüyü siyasətin əsl mahiyyəti üzə çıxır.

Araşdırmalarımızdan belə qənaətə gəldikki, Dağlıq Qarabağ münaqişəsinin eləcədə Ermənistanın Azərbaycanın ərazi iddialarının mərkəzindədə elə Njdenin ideyaları dayanıb. Rusiya Xarici İşlər Nazirliyinin “Nasizmin qəhrəmanlaşdırılması, irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və onunla bağlı olan dözümsüzlüyün təşviqinə xidmət edən neonasizm və onun digər növlərinə qarşı mübarizə” adlı məruzəsində bu faktları xatırlatmaqla Ermənistanda nasizmin qəhrəmanlaşdırılmasını qınayıb. Rusiya Xarici İşlər Nazirliyinin Qaragin Njde ilə bağlı rəsmi münasibəti Rusiya Federasiyası Müdafiə Nazirliyinin Baş Redaksiya Komissiyasının ordu generalı Sergey Şoyqunun sədrliyi ilə nəşr edilən 12 cildlik ensiklopediyanın “Gizli müharibə: Böyük Vətən müharibəsi illərində kəşfiyyat və əks-kəşfiyyat” adlı 6-cı cildində qeyd olunub.

Ensiklopediyada bildirilib ki, Abverqrup 114-də aparılan agentura işi çərçivəsində əks-kəşfiyyatçılar daşnak ordusunun keçmiş generalı, “Njde” təxəllüsü ilə nasistlərə xidmət edən emiqrant Ter-Arutyunyanı aşkar edib və yaxalayıblar. Böyük Vətən müharibəsi illərində Njde Bolqarıstan ərazisində 30-dan çox milliyyətcə ermənini fəaliyyətə cəlb edib, onların Qızıl Ordunun arxa cəbhəsində diversiya hazırlığında iştirak edib. Əks-kəşfiyyat baş idarəsinin əməkdaşları tərəfindən 17 Njde tərəfdarının yaxalanaraq onların terror aktı törətmələrinin qarşısı alınıb.

Müasir Rusiyada həqiqətən məlumdur ki, Qareqin Njde yalnız nasistlərin məxfi agenti deyil, həm də döyüşən ordunun arxa cəhbəsində diversiya-terror aktları törətmək üçün cəlb edən şəxs olub. Sizi bilmirəm ancaq bu faktların təsadüf olduğuna inanmıram. Ermənilər tarixin onlara məxsus bu qara səhifələrini nə qədər dəyişdirməyə çalışsalarda, bu onların alnına yazılan qara ləkə kimi qalacaq.

Ermənistan əvvəlki hakimiyyətinin Qarigen Njdeyə abidə qoyulması faşizmi və nasizmi qəbul etməyən beynəlxalq ictimaiyyət, həmçinin, İrəvanın özünə müttəfiq hesab etdiyi Rusiya tərəfindən belə ciddi tənqidlə qarşılandı. Bəyan edildi ki, Ermənistanın faşizm kimi qaniçən rejimin əlaltılarını qəhrəmanlaşdırması qəbuledilməzdir.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

29 aprel

# Səs

Son səhifə

## "Kurtlar vadisi"nin Elifi ekranlara qayıdır



Ana olduqdan sonra sənətdən uzaqlaşaraq təsərrüfat işləri ilə məşğul olan aktrisa Özgü Namal ekranlara qayıtmağa qərar verib. 6 ildir seriallardan uzaq düşən aktrisa yenidən layihələri qəbul etməyə başlayıb. Namal karantindən əvvəl bədii filmə və serialda çəkilməyə razı olub. Filmin çəkilişi üçün ona 800 min TL, serial üçün isə 80 min TL təklif edilib. Xatırladaq ki, Azərbaycanda "Kurtlar vadisi" serialı sayəsində tanınan ulduz iki uşağı və həyat yoldaşı ilə birlikdə Muğlada yaşayır.



## "Barselona" bu qapıçıya görə 3 futbolçusunu təklif etdi!

"Barselona" yay transfer pəncərəsi zamanı "Ayaks"ın qapıçısı Andre Onananı heyətinə cəlb etmək istəyir. Qol.az xəbər verir ki, bu barədə "De Telegraaf" məlumat yayıb. Bildirilib ki, kataloniyalılar bir qapıçıya görə dörd 3 futbolçusunu - qapıçı Neto, yarımmüdafiəçilər Riki Puiq, qarşı tərəfin seçimindən asılı olaraq Aleks Kolyado və ya Karles Alenyonu təklif edib. Amma "Ayaks"ın idman direktoru Mark Overmars Onananın daha bir mövsüm Amsterdarda qalmasını istəyir.

Qeyd edək ki, Onana "Barselona" akademiyasının yetirməsidir. Bu mövsüm o, "Ayaks"ın heyətində bütün turnirlərdə 24 oyun keçirib.

## Hollivud ulduzu evini bağçaya çevirdi

***Döyüş filmlərinin ulduzu, Hollivudun məşhur aktrisası Mila Yovoviç ilk dəfə rus dilində paylaşım edib. Cazibədarlığı ilə əks cinsin nümayəndələrini ovsunlayan Mila evində müxtəlif bitkilər əkib.***

Bitkilərin şəkillərini sosial media hesabında paylaşan Yovoviç bunları yazıb: "Toxum yetişdirməyə başladığım yer çox əyləncəlidir. Son bir neçə həftə içərisində otlar və yeni cücərmiş bəzipomidor sortlarını əkdim. Bu gün bu fidanların bir hissəsini böyük qablara köçürəcəm ki, küçədə əkməzdən əvvəl güclənsinlər". Xatırladaq ki, rejissor Pol Andersonla evli olan Milanın 12 yaşlı Eva və 4 yaşlı Daşiyel adlı iki qız övladı var.

## ŞOK: Dünyada 200 milyon insan iş yerini itirə bilər!

***Koronavirus pandemiyası nəticəsində dünyada təxminən 200 milyon insan iş yerini itirə bilər. REN TV xəbər verir ki, BMT-nin hesablamalarına görə, ilk növbədə kiçik və orta biznes, eyni zamanda, özünüməşğulluq sahələri zərər çəkəcək.***

Təkcə Fransada işsizlik artıq tarixi rekord müəyyən edib. Bu ölkədə əhalinin dörddə biri koronavirusun yayılmasına görə iş yerini itirib.

"2020-ci il ərzində Avropada resessiya gözlənilir. Bizdə ümumi daxili məhsulun (ÜDM) 7,5 faiz azalması gözlənilir. Bu, 2008-ci ildəkiqlobal maliyyə böhranının itkilərindən daha çoxdur", - Avropa İttifaqının iqtisadiyyat və maliyyə məsələləri üzrə komissarı Paolo Centiloni bildirib.



## Sumqayıtda tanışını bıçaqlayan şəxs həbs edilib

**Sumqayıtda aprelin 26-da axşam saatlarında 37 yaşlı kişini bıçaqlayan şəxs saxlanılıb. Şəhər Polis İdarəsindən AZƏRTAC-a bildirilib ki, hadisəni törədən Elxan Rüstəmov istintaqa təhvil verilib.**

Qeyd edək ki, hadisə şəhərin 9-cu mikrorayon ərazisində baş verib. Şəhər sakini, əvvəllər məhkum olunmuş, 1983-cü il təvəllüdlü Ramil Xəlilov tanışı Elxan Rüstəmov tərəfindən bıçaqlanıb. Yaralı xəstəxanaya yerləşdirilib. Hazırda onun səhhəti ağır stabildir. Faktla bağlı Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə cinayət işi başlanıb. Araşdırma davam edir.



## Məşhur cütlük koronavirus xəstələri üçün qan verdi



***Məşhur Hollivud ulduzu Tom Henks və həyat yoldaşı Rita Uilson koronavirus xəstələri üçün qan veriblər. Bu barədə "StarNews" Telegramkanalı xəbər yayıb.***

Avstraliyada film çəkilişlərində olarkən məşhur aktyor həyat yoldaşı Rita ilə birlikdə koronavirusa yoluxmuşdu. Müalicədən sonra ulduz cütlük sağaldığını elan etmişdi.

Qeyd edək ki, COVID-19-a yoluxub sağalan xəstələrin qan plazmasında koronavirus xəstələrini sağaltmağa şərait yaradan anticisimlər olur.

## Narkobaron nazir oldu

***Venesuela Prezidenti Nikolas Maduro Tariq el Ayssamini neft sənayesi naziri təyin edib. Bu məlumatı "Doyçe Velle" yayıb. Ayssami bu vəzifədə general Manuel Kevedonu əvəz edib. Maduro, həmçinin PDVSA şirkətinə Venesuelanın eks-prezidenti Uqo Çavesin qohumu Asdrubal Çavesi rəhbər təyin edib.***

Sayt ABŞ Milli Təhlükəsizlik Nazirliyinin məlumat bazasında Ayssaminin xüsusi kateqoriyalı narkotacir olması və beynəlxalq narkotədarükün təşkilində əhəmiyyətli rol oynanmasına dair informasiyanın yer aldığını bildirib. Yeni nazirin ABŞ-ın ən çox axtarılan cinayətkarlar siyahısında olduğu, ona qarşı sanksiyalar tətbiq edildiyi vurğulanıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**